**Döyüş bayrağını qaldıran oğul,**
**Tanrı qollarına güc verəcəkdir.**
**Xankəndə bayrağı sancdığın günü**
**Analar, bacılar sevinəcəkdir.**

**Z.Xınalı**

**Zəminə Xınalı**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**3**
**CİLDDƏ**

**Bakı - «Təknur» - 2013**

Zəminə Xınalı

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## I CİLD

Bakı - «Təknur» - 2013

**Ön sözün müəllifi:** **Nizami Cəfərov**
*AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Atatürk Mərkəzinin rəhbəri*

**Redaktor:** **Tariyel Abbaslı,**
*Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar birliyinin üzvü*

**Zəminə Xınalı. *Seçilmiş əsərləri. I cild.***
Bakı – "Təknur" nəşriyyatı – 2013 səh

*XX əsrin 70-ci illərində ədəbiyyatımıza gəlmiş tanınmış hərbçi şairə Zəminə Xınalı 20-dən çox kitabın Azərbaycanda fəaliyyət göstərən Ali Hərbi Məktəblərin "Məktəb marş"larının müəllifidir. Şairənin oxuculara təqdim olunan üçcildliyinin birinci cildində onun hərbi-vətənpərvərlik mövzusunda əsərləri – şeirlər, poemalar və pyesləri toplanmışdır.*

**© Zəminə Xınalı**

## ÖN SÖZ ƏVƏZİ

Zəminə Xınalı müasir Azərbaycan poeziyasında kifayət qədər tanınan şairələrimizdəndir və onun yaradıcılığı haqqında müxtəlif vaxtlarda, müxtəlif fikirlər səslənib, deyilib, təhlillər edilibdi. Zəminənin digər şairlərdən bir üstün cəhəti, onun xüsusilə daha çox vətənpərvərlik mövzusunda yazmasıdır. Azərbaycanın şair xanımları içərisində bu baxımdan çox az adamı Zəminə xanımla müqayisə etmək olar. Onu da qeyd eləyim ki, Zəminə Xınalının seçilmiş əsərlərinin 3 cilddə çap olunmasını, meyadana çıxmasını mən tamamilə təbii hesab edirəm. Çünki onun yaradıcılığı elədir ki, öz zənginliyi ilə bu günkü Azərbaycan oxucusuna çox lazımdır. Və bu bu əsərlərin 3 cilddə çap olunmasına həqiqətən ehtiyac var idi. Onun müxtəlif illərdə çap olunmuş kitabları haqqında, o kitabların qazandığı nüfuz haqqında da danışmaq olar. Əlbəttə, bu nüanslar olmasaydı nə üçün "Seçilmiş əsərləri" çap olunur sualı ətrafında düşünmək çətin olardı. Amma yaradıcılığının, belə deyək, xüsusi fəallığı, onun tez-tez müxtəlif görüşlərdə habelə hərbi hissələrdə əsgərlər arasında görünməsi, əsərlərinin tez-tez müzakirələrinin keçirilməsi, bütün bunlar həm də onu göstərir ki, Zəminə xanım cəmiyyətlə - ordu ilə sıx ünsiy-

yətdədir, oxucularla təmasdadır və onun yazdığı şeirlərdə də bizim cəmiyyətimizin, insanımızın ruhu, ürəyi döyünür. Bu baxımdan o, həqiqətən, bizim istedadlı şairələrimizdəndir. Burada onu da qeyd edək ki, qarşıdan onun yubileyi gəlir və bu 3 cildlik də onun yubileyinə bir tövhədir.

Kitabın I cildinə onun hərbi-vətənpərvərlik mövzusundakı əsərləri: şeirləri, poemaları və pyesləri verilibdir. Bu elə bir mövzudur ki, bu mövzular Zəminə xanımın yaradıcılığının əsasını təşkil edir. Başqa sözlə, onun əsərlərinin böyük əksəriyyəti bu sahəyə həsr olunmuşdur. Təsadüfi deyil ki, o həm də Vətən uğrunda döyüşən və həlak olan zabitin xanımıdır. Eyni zamanda özü hərbiçidir, övladları da zabitdirlər. Yəni bu onun taleyidir, həyatıdır. Bu baxımdan Zəminə Xınalının hərbi-vətənpərvərlik mövzusunda yazmasını, əlbəttə, onun taleyinin göstəricisi kimi qəbul etməliyik. Bu sahə onun üçün doğmadır, ağrıları ilə doğmadır, uğurları ilə də doğmadır. İstər-istəməz o həyatın poeziyasını yaratmaq onun taleyinə, qismətinə düşüb. Və mən hesab edirəm ki, bu əsərlərin böyük bir hissəsi dərsliklərə düşməlidir və tədris olunmalıdır. Həm özünün canlılığı ilə, təbiiliyiylə, müəllifin o mövzunu dərindən bilməsi, dərindən duyması ilə. Ona görə də bu əsərlər xüsusi dəyərləndirilməlidir. Ümumiyyətlə şair birinci növbədə taleyini yazır. Taleyindən kənar, belə

deyək, ümumi mövzulara müraciət edəndə həmişə o lazımi səmimiyyəti əks etdirə bilmir. Bunun üçün mütləq avtobioqrafik notlar iştirak etməlidir. Budur Zəminə xanımın yaradıcılığını səciyyələndirən və onun vətənpərvərlik mövzusunda çox səmimi poetik obrazlar yaratmağı ona bu imkanı verir.

Bu cilddə diqqəti cəlb edən əsərlər içərisində, əlbəttə, marşlar xüsusi hadisədir. Onun xeyli marşları var, bizim buna çox böyük ehtiyacımız var, çünki düşmənlə üz-üzə dayanan, ordusunu inkişaf etdirən, əsgərinin döyüş ruhunu qaldıran bir xalq əlbəttə, hərbi nəğmələrsiz, marşlarsız keçinə bilməz. Bunu da ayrıca qeyd etmək lazımdır ki, Zəminə Xınalının marşları kifayət qədər məşhurdur, müxtəlif vaxtlarda, müxtəlif tədbirlərdə, xüsusilə Ali Hərbi Məktəblərin buraxılış mərasimlərində Ali Baş Komandan qarşısında ifa edilibdi və çox maraqla da qarşılanıbdı: - həm məzmununa görə, həm də intonasiyasına, ifadə texnologiyasına görə. Marş yazmaq çox çətindir, marş elədir ki, burada həm o qürur, iddia olmalıdır, həm də eyni zamanda bir səmimiyyət olmalıdır, hissiyat olmalıdır, coşqunluq, qələbə əzmi olmalıdır. Bu baxımdan Zəminə xanımın bu sahədəki yaradıcılığı çox uğurlu yaradıcılıqdır. Və bunlar çox uğurlu əsərlərdir.

Fikrimizi təsdiq üçün H.Əliyev adına AAHM-

nin məktəb marşından bir bəndə fikir verək:

*Birləşin azəri-türk övladları,*
*Düşmənin ürəyi, həm qəlbi yansın.*
*Bütün yer üzündə sülhün sədası,*
*Azadlıq, ədalət qoy zəfər çalsın.*
*Müstəqil dövlətimin hərbi məktəbi*
*Heydər Əliyev adına hərbi məktəbi*

-burada yuxarıda dediyimiz coşqu, qələbə əzmi, döyüşkən əhval-ruhiyyə, ən başlıcası isə bir vətənpərvərlik əzmi özünü göstərməkdədir.

Eləcə də Azərbaycan Hərbi Təyyarəçilik və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəblərinin məktəb marşlarında da başqa-başqa poetik təqdimatlarda da eyni ruhu görməkdəyik.

Seçilmiş əsərlərin II cildinə Zəminə Xınalının lirik şeirləri, poemaları, dastanları, daxil edilmişdir. Bunlar bizim poetik yaradıcılığımızın əlbəttə, ənənəvi formalarıdır. Şair adı çəkiləndə, şair sözü deyiləndə birinci növbədə istər-istəməz, məhəbbət-sevgi, lirik hisslər yada düşür, bu şairin hansı mövzuda yazmağından asılı olmayaraq, istər ictimai-siyasi mövzu olsun, istər təbiət mövzusunda olsun, istər hər hansı məişət mövzusunda olsun – fərqi yoxdur. Bütün hallarda lirika əlbəttə, olmalıdır. Lirikada məhəbbət, sevgi-bu insanın təbiətidir və insan həyatını bunsuz təsəvvür etmək olmaz. Huma-

nist bir şairi də məhəbbətdən kənarda təsəvvür etmək mümkün deyil. Zəminə xanımın lirik şeirlərində də insan və təbiət duyğularını özündə əks etdirən poetik duyumlar çoxdur. Xüsusilə, Azərbaycan təbiətinin gözəlliyi, bu gözəllikdən doğan insani duyğular şairənin poeziyasında üstünlük təşkil edir. Onun poetik formaya yeni məzmun verən əsərləri də çoxdur. Elə ikinci cilddə çap olunan və Şəhriyarın "Heydər babaya salam" poemasına nəzirə yazılmış "Ötən illərimdən xatirələr" poemasında böyük Şəhriyar üslubu qorunub saxlanılmışdır. Yəni, burada şairə köhnə formaya yeni bir məzmun çalarları vermişdir. Bu cilddə biz Zəminə Xınalını həm də, bir yaradıcı tədqiqatçı-folklorçu kimi də tanıyırıq. Onun el deyimləri əsasında qələmə alınmış "Qaçaq İsmayıl", "Pəhləvan Kamilin dastanı", "Oqtay Xalloğlu" dastanları və "Bənövşə və Qızılgül" əfsanə-poeması dediklərimizi təsdiq edir.

Üçüncü cildə daxil olan əsərlər şairənin daha çox publisistik yaradıcılığıdır. Xüsusilə ümummilli liderimiz Azərbaycanda ordu quruculuğunun banisi, müstəqil Azərbaycanın yaradıcısı Heydər Əliyevə həsr olunmuş "Hərbi məktəblərin banisi" əsəri təqdirəlayiqdir. Əlbəttə, Zəminə Xınalı hərbi məktəbdə çalışır. Hərbi məktəblərin işini dərindən bilən adamdır. Və buna görə də bu sahədə onun yazmağa

mənəvi haqqı var. Və bu əsərində də o, ümumilli liderimizin Azərbaycanda hərbi məktəblərin banisi kimi obrazını yaradır. Bu xidmətin, bu böyük tarixi xidmətin Azərbaycan üçün, Azərbaycanın gələcəyi üçün böyük tarixi əhəmiyyətə malik olduğunu konkret faktlarla göstərir.

Zəminə Xınalının türk generalı Zəki Paşaya həsr olunmuş "İncə duyğularda yaşayacaqsan" publisistik əsəri də çox maraqlıdır. Vaxtılə mən bu əsərə və o cümlədən, şairənin "Tənha türk məzarı" poemasına da ön söz yazmışdım. Zəki Paşa Azərbaycanda bir tarix qoydu: dünyadan vaxtsız getdi, amma Azərbaycan ordusunda bir tarix qoydu. Tarixi həm də onunla müqayisə eləmək lazımdır ki, vaxtılə Azərbaycana xarici təcavüz olanda türk ordusu, xüsusilə türk zabitləri Azərbaycanda ordu yaratmışdılar və Qafqaz İslam Ordusu Azərbaycanda hərb mədəniyyətinin inkişafına kömək etmişdir. Zəki Paşa da həmin o tarixi xidmətlərin davamçısı idi, həmin xidmətlərin yenidən, yeni şəraitdə tətbiqi hadisəsi kimi maraq doğururdu. Zəminə Xınalının bu əsərinin həm Azərbaycanda, həm də Türkiyədə nə qədər məhəbbətlə qarşılanmağının da şahidi olmuşam. Bu əsər təqdim olundu və həm də bizim türk ordusuna və türk zabitinə olan məhəbbətimizi ifadə elədi. Bu yalnız bir şairin, bir yazıçının əsəri deyildi, bu bütöv bir xalqın hissiyatlarının öz müdafiəçisinə, ordu

qurucusuna məhəbbətinin ifadəsi idi.

Üçüncü clddə həm də müasirlərinin şairəyə həsr etdiyi şeirlər, ayrı-ayrı vaxtalarda çap olunmuş kitablarına yazılmış ön sözlər, o cümlədən, tənqidçi və yazarlarımızın onun yaradıcılığına həsr olunmuş ədədi-tənqidi, elmi-nəzəri məqalələri təqdim olunmuşdur. Bu yazılarda Zəminə Xınalının çox səmimi, çox sevimli, çox gözəl obrazı yaradılmışdır. Yazıçılarımız, sənət adamlarımız, ədəbiyyat adamlarımız arasında o, həm həyatıyla, həm fəaliyyəti ilə, özünün enerjili, səmimi münasibəti ilə, gözəl yaradıcılığı ilə bizim cəmiyyətimizdə yüksək səviyyədə tanınan, hörmət olunan xanımlarımızdandır və ona həsr olunan şeirlərdən və yazılardan da bunu görə bilərik.

Ümumiyyətlə, mən düşünürəm ki, Zəminə Xınalının "Seçilmiş əsərləri"nin nəşri onun müxtəlif illərdə çap olunmuş kitablarını, şeirlərini, poemalrını, pyeslərini, publisistik yazılarını bütöv halında çatdırmaq baxımından və bu dəyərli şairənin yaradıcılığını bütövlükdə təqdim eləmək baxımından çox böyük hadisədir. Əlbəttə, bundan sonra da onun çoxlu kitabları, şeirləri yaranacaq, çap olunacaq, oxuculara çatdırılacaq. Amma bu "Seçilmiş əsərlər"ə qədər onun keçdiyi kifayət qədər yaradıcılıq yolunun ayrıca təqdim olunmağına böyük ehtiyac var. Doğrudur, bu sahədə filologiya üzrə fəlsəfə

doktoru, ədəbiyyatşünas alim Tariyel Abbaslının yazdığı "Zəminə Xınalının yaradıcılığında hərbi-vətənpərvərlik" monoqrafiyası yuxarıda dediyimiz fikirləri təsdiqləyir. Bu kitaba da ön sözü mən yazmışam. Mənə belə gəlir ki, bu əsəri bir az da təkmilləşdirib elmi-nəzəri monoqrafik dissertasiya işi kimi oxuculara yenidən təqdim etmək olar. Bu baxımdan Zəminə Xınalının mənəvi halal haqqıdır. Ona yeni-yeni yaradıclıq uğurları arzulayıram.

**Nizami Cəfərov,**
***AMEA-nın müxbir üzvü,***
***filologiya elmləri doktoru, professor,***
***Azərbaycan Atatürk Mərkəzinin rəhbəri***

## SƏNƏ BORCUM VAR, VƏTƏN!

Qəlbimin şah damarı,
Dağ vüqarlı atamsan.
Könlümün arzuları,
Şirin dilli anamsan.
Odlar yurdu Vətənim,
Şanlı Azərbaycansan.
Təkcə sənə borcum var,
Sənə borcum var, Vətən!

Şərəfli əsgər ömrü
Mənə bəxş eyləmisən.
Söyləyəndə dərdimi
Səbrlə dinləmisən
Könlüm fəryad edəndə
Harayıma gəlmisən
Təkcə sənə borcum var,
Sənə borcum var, Vətən!

Sənə olan borcumu,
Sevgimlə ödəyərəm.
Sənin uğrunda mən,
Ölümə də gedərəm.
Adın Tanrıya yaxın,
Sənə səcdə edərəm.
Təkcə sənə borcum var,
Sənə borcum var, Vətən!

***1999. AAHDM***

## VƏTƏN ÇAĞIRIR

Dostlar, sayıq olun,Vətən dardadır,
Sanmayın qələbə uzaqlardadır.
Düşmən ulasa da quduz it kimi,
Gərək biz onları əzək bit kimi.
Verməyin savaşda yadlara aman,
Qorxmayın döyüşə atılan zaman.
Vətən əzəl gündən güvənir bizə,
Allah özü çatçın köməyimizə.

***1993***

## SÜLH MƏRAMLI QÜVVƏLƏR

***( Marş) Mus: G.Abbasquluyeva***

Odlar yurdu, Ana Vətənim,
Azadlığa özü yetənim.
Həyat verib torpağa-daşa,
Son qoyacaq hərbə-savaşa-
Sülh Məramlı Qüvvələr.

Vətənimin şanlı bayrağı,
Ay-ulduzdur, onun çırağı.
Fərəh verib ürəyimizə,
Açıq səma gətirir bizə-
Sülh Məramlı Qüvvələr.

Qartal kimi qanad açır o,
Zirvələrdən işıq saçır o.
Azadlığın-haqqın səsidir,
Dünyanın sülh elçisidir-
Sülh Məramlı Qüvvələr.

***2008***

## VƏTƏN QURBAN OLUM SƏNƏ

Nə deyirsiz deyin mənə,
Vətən oğul deyir mənə.
Bax indi də mən deyirəm,
Vətən, qurban olum sənə!

Qoymadın ki, ölüm-itim,
Qoymadın ki, qalım yetim.
Toxum kimi torpağında,
Cücərt məni, göyərt bitim.

Vətən, mənim and yerimsən,
Vətən, mənim yurd yerimsən.
İsti ana qucağıtək
Həzin laylam, beşiyimsən.

Bitsə ömür, bitsə həyat,
Məzarımdan səngər yarat.
Ruha can ver məni oyat,
Vətən, qurban olum sənə!
Vətən, qurban olum sənə!

***1996.***

## XOŞ MÜJDƏ, QƏLƏBƏ YETİRƏCƏYİK

Təbiət geyinib yaşıl donunu,
Səs-səsə veribdir qaranquşlar da.
Qış başa yetirib ömrün sonunu,
Nəğmələr oxuyur dağlar-daşlar da.

Ətrini aləmə yayır bənövşə,
Xoş əhval yaradır eldə həmişə.
Çiçək ətirlidir o yaşıl meşə,
Ellərə təbəssüm gətirir bahar.

Vətən torpaqları cənnətə dönüb,
Vətən oğulları keşik çəkirlər.
Bağrını qan edib, mənfur düşmənin,
Vətənin köksündən səngər çəkirlər.

Bu bahar qələbə, zəfər bayramı,
Gözləyin analar, biz gələcəyik.
Bahar bayramında, yaz bayramında,
Xoş müjdə, qələbə yetirəcəyik.

***8.03.2010***

## İGİDLƏR GƏLMƏDİ

Anamız Qarabağ dərd-qəm içində,
Gözləri yol çəkir gələni yoxdur.
Ağlayıb-ağlayıb hönkürüb deyir,
İgidlər gəlmədi, gəlmədi...

Dərd xalı salıbdır cıdır düzündə,
Buludlar dolubdur, göyün üzündə.
Suallar yurd salıb Vətən göyündə,
İgidlər gəlmədi, gəlmədi…

Sönmüş ocaqların külü sovrulub,
Dağlar dərd çəkməkdən yanıb qovrulub
Bəlkə də bizləri onlar unudub,
İgidlər gəlmədi, gəlmədi…

Çox uzaq deyil ki, əllərim çatır,
Sinəmdə sızlayan tellərim çatır,
Mənim harayıma ellərim çatır.
İgidlər gəlmədi, gəlmədi….

Bəlkə də atların nalı sökülüb,
Güllü yamacların xalı sökülüb,
Pətəkdə arının balı sökülüb,
İgidlər gəlmədi, gəlmədi….

Gəlmədi, gəlmədi, deməkdən dili
Yanıb Qarabağın obası-eli
Coşub dağ çayının gözünün seli
İgidlər gəlmədi, gəlmədi....

Dağlar ağ saçından, bulud suyundan,
Qayalar dumandan, palıd boyundan,
Dönükmü çıxıblar soyu-soyundan,
İgidlər gəlmədi, gəlmədi…

Torpağın bağrından yara sağalmaz,
Vətəni sevməyən heç vaxt ucalmaz,
Nə yaman dərd oldu, yox belə olmaz,
İgidlər gəlmədi, gəlmədi…
İgidlər gəlmədi…

***1.10.2008***

## DOĞMA YURDUMUN

Açılıb səhəri, doğma yurdumun,
Gül-gülü çağırır, bülbül-bülbülü,
Çəmənin-çöllərin ətri nə xoşdur,
Nə qədər gözəldir, açan hər gülü.

Göylərdə buludlar sıralanıbdır,
Meşələr, ormanlar talalanıbdır,
Dağların başını duman alıbdır,
Hər yanı gözəldir, doğma yurdumun.

Zümzümə söyləyər bulağı-çayı,
Göylərdən nur saçır ulduzu-ayı,
Toylu-düyünlüdür, baharı- yayı,
Hər yanı gözəldir, doğma yurdumun.

***07.03.2008***

# ANA DEYİB AND İÇDİ

***Oğlum Arzu Türkiyədə Kara Harb Okulunda, Ayaz Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində təhsil aldığı illərdə.***

İllərdir ki, gözlərim
gecə-gündüz yol çəkir.
Tənhalığım sinəmdə
qubar əkir, qəm səpir.
İntizardan gözlərim,
könlüm yaman kövrəlir.
İllər quş kimi uçur,
gecə yaman uzanır.
Oğlum Arzu, Ayaz da
şərəfli bir yol seçdi,
Atasının yoluyla
eniş-yoxuşlar keçdi.
Oğullarım Vətənə
ana deyib, and içdi.
Hər ikisi keşikdə
fəxarətlə dayanır.

Bu Tanrının yazısı,
yazıdan qaçmaq olmaz,
Ürək sirli xəzinə,
heç kimə açmaq olmaz,
Yaman günün ömürü,
qısadır, uzun olmaz.
Zülmətləri yararaq,
günəş göydən boylanır.
Yol çəkən gözlərim də

bir rahatlıq tapacaq,
Zirvəyə lap az qalıb,
oğullarım çatacaq.
Çoxlu nəvəm, nəticəm,
kötücəm də olacaq,
Ona görə Xınalı
özünü xoşbəxt sanır,
Ona görə Zəminə
özünü xoşbəxt sanır.

***2001-2012***

## VƏTƏN DƏ ANADIR

***(Xaricdə yaşayan və orada yaşamağı ilə öyünən bir xanıma)***

Vətən torpağına, Vətən daşına,
And içmək gərəkdir, vətəndaşına.
Barlı-bərəkətli ana yurdunda,
Yaşamaq gərəkdir, vətəndaşına.

Vətən də anadır, ayrılmaq olmaz,
Qürbətdə həsrəti didər insanı.
Çəməni-çiçəyi heç zaman solmaz,
Yurda dəyişmərəm bütün cahanı.

İsti qucağı var, doğma yurdumun
Açar qollarını qucayar bizi.
İsti ocağı var, doğma yurdumun,
Odlar diyarıdır, qoruyar bizi,
Od ələr yad gözə, qoruyar bizi.

***2003.***

## ÇƏKMİSƏN

Qartal yuvasına bənzəyən Vətən,
Başından nə qədər bəla çəkmisən.
Göylərdən günəş, nur ələyən Vətən,
Yaşından nə qədər bəla çəkmisən.

Bol olub, hər zaman sərvətin, varın,
Dağlara gözəllik gətirir qarın,
Nə qədər gözəldir al yaylaqların,
Daşından nə qədər bəla çəkmisən.

Şirin tikəni də yarı bölmüsən,
Əsrlər uzunu dərd də görmüsən,
Odlar diyarısan hər an gülmüsən,
Başından nə qədər bəla çəkmisən.

***12.06.2008***

## VƏTƏN SEVGİSİ

Vətən sevgisi də tanrı payıdır,
Xoşbəxt o kəsdir ki, ona qismətdir.
Saf vicdan, əqidə, ağıl həm zəka,
Tanrı bəxş eyləyən gözəl nemətdir.

Doğma Vətənimdir, gözəldən-gözəl,
Vətən sevgisidir, əzəldən-əzəl.
Dili də gözəldir, özü də gözəl,
Tükənməz varlıqdır, Vətən sevgisi.

Tanrı sevgisidir-bir xəzinədir,
Gəlişi yüz deyil, min qərinədir,

Yurda könül verən bil Zəminədir
Şərəf, ucalıqdır- Vətən sevgisi.

***29.II.2008***

## VƏTƏN OĞLU

Gecə-gündüz keşikdədir
Səngərdədir, Vətən oğlu!
Əlləri də tətikdədir
Ön cəbhədə Vətən oğlu!

Qartal gözlü məmləkətin
Övladıdır Vətən oğlu!
Yer üzünün , göy üzünün
Növrağıdır, Vətən oğlu!

Vətən oğlu, evin deyil,
Elin oğludur,- deyərlər.
Görkəmində hərbi mundir,
Əsgərim- deyib sevərlər.

***29.I. 2008***

## YURDUN HƏR QARIŞI

Dağların qoynunda qazılan səngər,
Vətən övladının keşik yeridir.
Nə soyuq, nə şaxta qorxutmaz onu,
Yurdun hər qarışı beşik yeridir.

Burda babaların ayaq izləri
Burda babaların yadigarı var.
Əmanət qoyublar yurda bizləri
Burda ocaqların odu-qoru var.

***2007***

## SALAMLAYIRLAR

Komandir əmr edir, hazır ol deyir,
Əsgərlər hazırdır əmrə müntəzir.
Silahı alırlar çiyinlərinə,
Onlar gözləyirlər yeni bir əmr.

Bir addım irəli gedir komandir,
Hazırsız- sualı gözündən yağır.
Nizam-intizamlı sırada duran
Əmrə qulaq asan əsgərlər hazır.

Hərbi orkestrin sədalarıyla
Əsgərlər irəli addımlayırlar.
Sülhün keşiyində dayananları
Göydən göyərçinlər salamlayırlar.

***1997***

***Tərtər «N» saylı hərbi hissə.***

## ANAMIZSAN, SƏN EY VƏTƏN!

***(nəğmə)***

Hər düşən axşamın aylı-ulduzlu,
Açılan sabahın bayraq rəngdədir.
Ey Vətən, hər zaman ünvanın-adın,
Səni sevənlərin ürəyindədir.

**Nəqərat:**

Torpağından güc almışıq,
Adın ilə ucalmışıq.

Qəm eyləmə qocalmışıq,
Anamızsan, sən ey Vətən.

Açıq səman, çölün-düzün
Müqəddəssən Vətən, özün!
Günəş kimi qartal gözün
Nur paylayır göydən Vətən!

Aylar-illər, fəsil ötür,
Karvan-karvan nəsil ötür.
Ağrıları- acıları
Köksün üstən özün götür.

***2012***

## SƏNDƏN BAŞQA KİMİM VAR Kİ!

Qohumum, qardaşım, atam, anamsan,
Nənəmsən, babamsan, qoca dünyamsan.
Gözümün nurusan, açıq səmamsan,
Səndən başqa kimim var ki, ay Vətən!

Günündən gün, ayından ay vermisən,
Xoşbəxt anda payından pay vermisən.
Tək deyilsən, yanındayam demisən,
Səndən başqa kimim var ki, ay Vətən!

Həm qanadım, həm qolumsan, həm canım,
Anam Vətən! Anam Azərbaycanım.
Odlar yurdum! Hər dərdimə yananım,
Səndən başqa kimim var ki, ay Vətən!

Xınalıyam, saçlarımı boyadın,
Qollarıma qüvvət verdi, soy adın,
Məndən ötrü səcdəgahdır o adın,
Səndən başqa kimim var ki, ay Vətən!

***2006***

## YAŞA TORPAĞINDA, ÖL TORPAĞINDA

***İstəsən qəbrini tapdamasınlar,***
***Yaşa torpağında, öl torpağında.***

***H.Arif***

Vətən torpağıdır, ana qucağı,
Üşütməz, isidər isti, qucağı.
Cənnətdir hər yanı, hər bir bucağı,
Yaşa torpağında, öl torpağında.

Qürbətdə ölərsən, ağlayan olmaz,
Gözünü yumarsan bağlayan olmaz,
Qəbrinin üstündə ağlayan olmaz,
Yaşa torpağında, öl torpağında.

Qürbətdə şah olmaq xoşbəxtlik deyil,
Vətəndə kasıblıq bədbəxtlik deyil,
Alın yazısıdır - bu bəxtlik deyil,
Yaşa torpağında, öl torpağında.

Odlar yurdu kimi, Vətən də olmaz,
Yaman günümüzdə yetən də olmaz,

Vətən tək könüldə bitən də olmaz.
Yaşa torpağında, öl torpağında.

Məzarın tapdanmaz, ruhun incimæz,
Çəmənlər gül açar, tikanlar bitməz,
Keçdiyin cığırdan izin də itməz.
Yaşa torpağında, öl torpağında

*2009.*

## OĞULLAR OLMASAYDI

Tanklar, toplar tüfənglər,
Sahibsiz qalardılar.
Oğullar olmasaydı…
Yurd yerləri olmazdı,
Sərhədlər qorunmazdı.
Vətən Vətən olmazdı,
Gülü bitən olmazdı,
Oğullar olmasaydı…
Dəryalara qərq olub,
Tez batardı gəmilər,
Silah anbarlarında
Pas atardı mərmilər
Oğullar olmasaydı…
Dünyanın ağırlığı,
Onların çiynindədir,
Ən müqəddəs geyim də,
Onların əynindədir.
Həyat gözəl olmazdı
Oğullar olmasaydı.
Yerlər, göylər, dənizlər,
Sahibsiz qalardılar.
Lalə üzlü bənizlər

Saralıb-solardılar,
Oğullar olmasaydı…
Vətən dara düşəndə,
Analar oğulları
Savaşa yollardılar,
Şanlı Qələbə günü
Kimi alqışlardılar?
Oğullar olmasaydı!

***kursatnların məşqi zamanı***
***AAHM 2000***

## AAHM-NİN KURSANTLARINA

Cəngavər libaslı
Vətən oğlunun
Vətənə sevgisi
ulu varlıqdır.
Sevib hərb sənətin
seçən oğullar
Bu gün kursant olan
sabah zabitdir.

## ENMƏZ TÜRKÜN BAYRAĞI

Oddan-alovdan keçər,
Enməz türkün bayrağı.
Döyüşdə öndə gedər
Enməz türkün bayrağı.

İgidlərin əlində,
Vətən sözü dilində,

Baş əyilər önündə
Enməz türkün bayrağı.

Rəngi qandan yoğrulub,
Göy üzündə qurulub,
Ucalarda tutulub,
Enməz türkün bayrağı.

Bu bayrağın uğrunda
Qurban gedənlər oldu.
O bayraq ər qolunda
Qeyrətdən keçən yoldu.
Enməz türkün bayrağı.

***2001***
***AAHM ilk buraxılışında***

## AZƏRBAYCAN- TÜRKİYƏ

İki dövlət, bir millətin övladı,
Azərbaycanla-Türkiyə qoşadı.
Qardaş kimi bu dünyada yaşadı.
Yaşa var ol, Azərbaycan-Türkiyə!

Əsrlərdən qoşa gəlir səsimiz,
Könüllərdə qoşa vurur qəlbimiz.
Dünya bilir türk əsridir əsrimiz.
Yaşa var ol, Azərbaycan-Türkiyə!

Yer üzünə sülh-barışı gətirən,
Dünyamıza xoş müjdəni yetirən,

Cənnət-diyar, gül- çiçəklər bitirən
Yaşa var ol, Azərbaycan-Türkiyə!

***2000.***

## CƏNGİ ÇALMIŞAM

***Analar, babalar, layla yerinə***
***Qoy Cəngi gurlasın beşik başında***

***Fikrət Qoca***

Mən beşik başında övladlarıma,
Layla çalmamışam, cəngi çalmışam.
Rahatlıq bilməyib, ömür yolunda,
Həyəcan təbili-zəngi çalmışam.

Eşitsin dünyanın bəşər övladı,
Vətənin sevgisi özü layladı.
Cəngavər libaslı mərd oğullarım,
Ana ürəyimi nura boyadı.

Haqqım halal olsun sizə övladım,
Mənim arzularım həyata keçdi.
Vətən sevgisiylə böyüdükcə siz,
Tanrının sevgisi sizləri seçdi.

«Misri»yə, «Cəngi»yə köklənin hər vaxt,
Polad ruhumuzun təməli dərin.
Döyüş meydanından, hərb meydanından,
Zəfər sorağını mənə göndərin.

***2001.***

## ZABİT ANASI

***Oğlum Arzunun 2011-ci ildə, Ayazın 2012-ci ildə zabit olmaqları münasibətilə...***

Sənə şükürlər olsun,
sən ey ulu yaradan,
Yollarıma nur saçıb,
məni göyə ucaltdın.
Alın yazımı yazıb,
məni belə yaratdın.
Fələyin zərbəsinə,
tab gətirib sonrası
Sıravi əsgər idim,
oldum zabit anası.

Çiynindəki ulduzlar
yollarıma nur saçır,
Ürəyimdə arzular çiçək açır,
gül açır,
Çətin günlər arxada,
məndən uzaq-yan qaçır,
Mələklər qanad açır,
gülür sular sonası.
Sıravi əsgər idim,
oldum zabit anası.

Vətənin sevgisinə,
elin məhəbbətinə,
Vurğunam ordumdakı
şanlı hərb sənətinə,

Özün şahidsən Allah,
dözmüşəm çox çətinə,
Möcüzələr yaratdın,
sağaldı qəlb yarası
Sıravi əsgər idim,
oldum zabit anası.

***2011-2012***

## VƏTƏN MƏHƏBBƏTİ

Vətən məhəbbəti
ucadan-uca,
Əlçatmaz zirvədir
sevənlərindir.
Vətən məhəbbəti
qocadan-qoca,
Dünyaya yenidən
gələnlərindir.
Vətən məhəbbəti
ömür boyunca,
Vətənin qədrini
bilənlərindir.

***2012.***

## TƏKİ VƏTƏN YAŞASIN

Düşmən alıb üstümüzü
Dardadır yenə də Vətən.
Axı bir vaxt oğul deyib,
Sənə də, mənə də Vətən.

İgidlərim-ərənlərim,
Haraylayır dağ-daş bizi.

Səngərlərdə qarşılasın
Qoy müqəddəs savaş bizi.
Andımıza düz olaq,
Zəfər adlı söz olaq,
Ölən-itən biz olaq,
Təki Vətən yaşaysın.
Üçrəngli bayrağımız
Dalğalansın ucada.
Biz də aman verməyək
Vətənimizdə yada.
Düşməni yuvasında
Məhv edək hər bir anda
Dönək alova-oda
Təki Vətən yaşasın.
Savaşlarda-döyüşdə
İrəliyə gedək biz.
Vətən uğrunda ölsək
Cənnət olar yerimiz.
Səs verək el-obanın
Harayına, səsinə
Lazım gəlsə ucalaq
Şəhidlik zirvəsinə.

Alqış deyək ordumun
Şanlı qələbəsinə.
Zəfər günü qarışaq
Azadlıq kəlməsinə
Təki Vətən yaşasın!
Təki Vətən yaşasın!

***Təlim Tədris Mərkəzi 2008.***

## HƏRBİN ƏN ÜMDƏ DƏYƏRLƏRİ:

**Məslək**

Məslək dediyimiz amal anlamı,
Böyüyə hörmətdir- Məslək sevgisi.
Vətənin qüdrətli olması üçün,
Sevgi mərhəmətdir, Məslək sevgisi.

**Vəzifə borcu**

Hərbi inancların ən mühümüdür,
Fəxarət, qürurdur-Vəzifə borcu.
Şərəfdir, müqəddəs-ülvi dəyərdir
Vətən keşiyində-Vəzifə borcu.

**Dürüstlük**

Əxlaqi təməlin başlanğıcıdır,
Yaşam fəlsəfəsi- dürüstlük özü.
Hərbin sirlərinin mükəmməlliyi,
Dürüstlük çox sevir, doğru -düz sözü.

**Sədaqət**

Hər kəsin borcudur, hərbi sevməyi,
And içib şərəflə xidmət etməyi.
Yaxşını-yamanı bir-bir seçməyi
Vətənə sədaqət, gözəl amaldır.

**Cəsarət**

Qeyrət məqamında cəsarət olar,
Duyğu və düşüncə birləşsə əgər.
Çağırar qoynuna mərd oğulları
Vətənin köksündə yerləşən səngər.

**Fədakarlıq**

Vətən torpağına öz canımızı
Fəda ediriksə, fədakarlıqdır.

Tanrı dərgahında vətən uğrunda,
Müqəddəs şəhidlik bir ucalıqdır.

## ƏSGƏR QADIN

Tanrı dərgahına sığınmışam ki,
Vətən keşiyində dayana bilim.
Zülmət gecələrdə yatmıram hətta
Günəş şəfəqindən oyana bilim.

«Qızılı» qan ilə Vətən sözünü,
Köksümün üstünə həkk eyləmişəm.
Səsimə səs verən ana Vətəndə,
Vətəni, Vətən tək dərk eyləmişəm.

Ən Ali rütbədir, ana rütbəsi
Bu adın ən uca zirvəsindəyəm.
Oxunan marşların müəllifi tək
Əsgər oğulların nəfəsindəyəm.

Tanrının sevimli bəndəsi kimi,
Saçlarım binadan xınalı olub.
Əsgəri xidmətdə bir əsgər qadın-
Deyərlər-Zəminə Xınalı olub.

## MÜLKİ MÜDAFİƏ QOŞUNLARI

Fəlakət, uçurum baş versə əgər
Hər biri olacaq müsəlləh əsgər.
Gecə də, gündüz də köməyə gedər,
Yayılıb ellərə şöhrəti-şanı

Xilaskarlıq olubdur arzuları,
Mülki Müdafiə Qoşunları.

Səsinə səs verər darda qalanın,
Tufanda qalanın, qarda qalanın,
Mənzilə çatmayıb yolda qalanın
Fövqəladə halda köməyə yetər,
Zülmətli anlarda intizar bitər,
Xilaskarlıq olubdur arzuları
Mülki Müdafiə Qoşunları.

***2011***

## ATA YURDUM

Ata yurdum! İncə dərəm,
Sinəsi səngər, Vətən!
Müqəddəs şəhidləri
Qoynunda gül tək bitən
Torpağı təbiətin
Tanrının möcüzəsi,
Gözlərimə nur verdin
Sən ey günəş şöləsi,
Səndən bəhrələnmişəm
Sənsən varım-dövlətim.
Sən mənim könlümdəki
Əlçatmaz zirvələrim.
Qəlbimdən süzüb gələn
Şerim, nəğmələrimsən.
Sən mənim ata yurdum,
Müqəddəs Vətənimsən.

***26.XII.2002***

## TOMRİSDİR ADIN

Vətən sevgisiylə yaşayan qadın,
Tarixə həkk olub, o şanlı adın.
Qoşunu döyüşə aparmaq üçün
Düşmənə nifrəti yaratmısan sən
Xalqımı əbədi yaşatmısan sən.

Qılıncı qınından çıxaran qadın,
Düşməni məhv edib, göyə ucaldın,
Başını kəsərək mənfur düşmənin
Misri qılıncınla qoşa yarandın
Vətən sevgisidir, Vətəndir andın.

Keçsə də əsrlər, keçsə də illər,
Səninlə öyünür yeni nəsillər,
Sənə doğma olub, bütün fəsillər,
Kişi qeyrətlisən, ey şanlı qadın!
Tarixi qəhrəman-Tomrisdir adın.

*19.XII.2012*

## TORPAĞIN BEŞİYİNDƏDİR

Vətən həsrətindən, yurd həsrətindən,
Nə qədər insanlar dünyadan köçdü.
Yığsa da dünyanın varın-dövlətin,
Vətən torpağından kəfənin biçdi.

Məzarı səngərə dönən insanın,
Ruhu da Vətənin keşiyindədir.
Mənzili dünyanın uca sarayı,
Məzarı torpağın beşiyindədir.

İnsanı yaradan, yaşadan torpaq,
Uğrunda ölməyə hazırdı hər kəs.
Vətən uğurunda gedən döyüşdə,
Düşmənin qəbrini qazırdı hər kəs.

***1993***

## VƏTƏNİN KEŞİYİNDƏ

Boy atıb böyümüşəm
Anamın beşiyində.
Vətən kəlməsin duydum,
Evində- eşiyində.
Bu günsə dayanmışam
Vətənin keşiyində.

Uşaqlıq illərimdən
Vətənə vurulmuşam.
Dağ çayından su içib,
Saflaşıb durulmuşam.
Məğrur-mərd dayanmışam,
Vətənin keşiyində.

Hərb peşəsin sevmişəm,
Şərəf-şöhrət bilmişəm.
Baharın ilk günündə,
Bu günyaya gəlmişəm:
Öncə Vətən demişəm-
Vətənin keşiyində.

Günəşə boylanmışam,
Tanrımdan güc almışam.
Əsgər adı almışam,

Marşlar, mahnı yazmışam,
Uğurlar qazanmışam
Vətənin keşiyində.

***12.12.2012***

## HEÇ UNUTMAZ ANA VƏTƏN

***Mus: Dilqəm Musaoğlu***

Babəkimin, Koroğlumun,
Uzaqgörən gözüdür o.
İsmayılın, Cavanşirin
Bükülməyən dizidir, o.

**Nəq:**
Heç unutmaz ana Vətən,
Rövşən kimi qəhrəmanı.
Bir alovlu nəğmə olub,
Adı gəzər bu dünyanı.

Ey yurdumun igidləri,
Düşmənlərə qan uddurun.
Bu torpağın keşiyində
Siz mərd durun, sayıq durun.

Öz canından artıq sevir,
Ana yurdu, bu torpağı.
Yağılardan qoruyaraq,
Uca tutur o, bayrağı!

***1994***

## MÜHARİBƏ BİTMƏYİB

Hərbi istəməsək də,
Hərbə hazır olmalı.
Hər an ayıq olmalı,
Hər an sayıq olmalı,
Savaş sona yetməyib!
Müharibə bitməyib.

İlan kimi zəhərli,
Mənfur düşmənimiz var.
Anamız Qarabağı,
Qəlbim necə unudar?..
Savaş sona yetməyib!
Müharibə bitməyib!

Vətənə məhəbbəti,
Düşmənlərə nifrəti,
Alışdırın köz kimi,
Bayraq edin söz kimi,
Savaş sona yetməyib!
Müharibə bitməyib!

Müqəddəs şəhidlərin
Ruhu nigaran qalıb.
Başımızın üstünü
Qara buludlar alıb.
Savaş sona yetməyib!
Müharibə bitməyib!

Səngərdə keşik çəkin,
Yumruq kimi birləşin,
Biz oddan yoğrulmuşuq,
Övladıyıq günəşin.
Savaş sona yetməyib!
Müharibə bitməyib!

Qana-qanla irəli,
Torpaqları qaytarın.
Vətənin bayrağını,
Ucalara qaldırın,
Savaş sona yetməyib!
Müharibə bitməyib!

***26.XII.2012***
***H.Əliyev adına AAHM.***

## ALİ BAŞ KOMANDANIM

***(«Ali Baş Komandanım» sənədli pyesindən)***

Səni soraqlayırdı,
İllər boyu gözümüz.
Gəlişinlə təzədən
Güldü bizim üzümüz
Əzəmətin, vüqarın
Fəxrim, iftixarımdır,
Hər mübarək addımın
Əbədi baharımdır,
Andım, şərəfim, şanım
Ali Baş Komandanım.

Durdun düşmən önündə
Yenilməyən dağ kimi,
Barlısan, bəhərlisən,
Anamız torpaq kimi
Ümman kimi güclüsən,
Ərşi titrədər səsin
İsidir qəlbimizi
Hərarətli nəfəsin
Yaşa ürəyim, canım
Ali Baş Komandanım.

Yollarına göz dikən
Ellər səni oxşayır.
Adını əzizləyən
Dillər səni oxşayır
Səni bizə bəxş edib
Bir xoş müjdə Allahım,
Gəlişinlə təzədən
Çiçək açdı sabahım,
Sülh soraqlı ünvanım
Ali Baş Komandanım.

Torpağı naxışlayan
Qədəmlərin var olsun.
Ulu Tanrım həmişə
Sənə arxa, yar olsun.
Müstəqil Vətənimdə
Rəmzim, simvolum mənim
Sərkərdəm, xilaskarım
Azadlıq yolum mənim
Varlığına güvənir

Anam Azərbaycanım
Mənim dünya şöhrətli
Ali Baş Komandanım.

***AANM-nın 2001-ci il***
***buraxılış mərasimində.***

## HEYDƏR ATA

Yenilməz ordumuzun
Baş sərkərdəsi sənsən.
Vətənimin əbədi
Ünvanı, səsi sənsən,
Gəlişinlə gör necə
Nur vermisən həyata
Arzuda, diləkdəsən
Sağ ol, ay Heydər Ata!
Var ol, ay Heydər Ata!

Bütün dünya bilir ki,
Yolun haqqın yoludur.
Sənin əzəmətindən,
Dünyamız da halidir.
Mübarək ismin, adın,
Vətənin simvoludur
Üzümüzü tutmuşuq
Biz bu müqəddəs ada,
Var ol, ellər atası,
Var ol, ay Heydər Ata!

***2001***
***AAHM***

## YAŞADIR VƏTƏN

Oğullar böyüdən, gözəl analar,
Sizin adınızla qoşadır Vətən.
Vətənə oğlullar bəxş edənləri
Əbədi qoynunda yaşadır Vətən.
Cənnət anaların ayağı altda,
Oğul anaları qızılı taxtda.
Yazılıb onlara ən gözəl baxt da,
Ananın adıyla qoşadır Vətən!

***2005***

## CANDAN SEVƏRƏM

Döyüşdən, alovdan, oddan yazsam da,
Hərdən kövrələndə uşaqlaşıram.
Özümdən xəbərsiz ömür də ötür,
Gənclik illərimdən uzaqlaşıram.

Kim bilir yol alan ömür karvanım,
Harda dayanacaq, harda duracaq?...
Vətənə can deyib son nəfəsimdə
Ruhum bax orada səngər quracaq.

Nə vaxtsa dünyaya yenidən dönsəm,
Vətən torpağını qucayıb öpsəm,
Ruhum qidalanar cana gələrəm,
Yenə də Vətəni candan sevərəm.

***2005***

## VƏTƏN, SABAHIN XEYİR!

Oyandım yuxudan ayılan kimi
Söylədim: - ay Vətən, sabahın xeyir!
Vətən keşiyində dayanan kimi,
Söylədim: - ay Vətən, sabahın xeyir!

Nə gözəl nur saçıb günəş ellərə,
Çəmənlər xalıdır, yaşıl çöllərə,
Vurğunam göy gözlü mavi göllərə,
Söylədim: - ay Vətən sabahın xeyir!

Sərhəddin, səngərin, üç rəng bayrağın,
Bayram libaslıdır o, xoş növrağın,
Açılıb üzümə ana qucağın,
Söylədim: - ay Vətən, sabahın xeyir!

***2006.***

## VƏTƏN ÖZÜDÜR

***Məhəbbət vətənlə yaşıddır, yaşıd***
***Məhəbbət dünyanın özüdür, özü.***

***Oqtay Rza.***

Vətən ağrısından
doğulanların,
Bəxtinin günəşi
Vətən özüdür.
Eşqi-məhəbbəti
varı-dövləti,

Könlünün şöləsi
Vətən özüdür.
Həyat yollarında,
ömür yolunda
Büdrəsən dayağın
Vətən özüdür,
Zülmət gecələrin
qaranlığında
İşığın, mayakın
Vətən özüdür.

***2009***

## AZƏRBAYCANI

***Harda olursan ol, qəlbin fəhmi var,***
***Səni torpaq çəkər, səni qan çəkər.***

***B.Vahabzadə***

Dünyaya gələndə Vətən övladı,
Göbəyi əkilər, ata yurdunda.
Yad, qərib ellərdə yaşasa belə,
Ömrün hər anında düşər yadına.

Xəyalı dolaşar eli-obanı,
Gəzsə də dünyanı, gəzsə hər yanı,
Qürbətdə Vətənə söylər tay hanı
Düşünər, xatırlar- Azərbaycanı.

***1987.***

## ODLAR DİYARI

Od yurdunun övladları mərd olar,
Vətən oğlu düşmənlərə dərd olar,
Uca dağ tək, qaya kimi sərt olar,
Alqış sənə, alqış Odlar diyarı.

Kəsərlidir qılınc kimi sözləri,
Qeyrətlidir kişi kimi özləri,
Qartal kimi baxışları, gözləri,
Alqış sənə, alqış Odlar diyarı.

Məlhəm ollam Vətənimin dərdinə,
Alqış dedim Vətənimin mərdinə,
Yadlar bilməz vətənimin dərdi nə?
Alqış sənə, alqış Odlar diyarı.

***2007***

## AĞSAQQALLAR ŞURASI

***Bu nəğmə rəhmətlik Akademik Budaq Budaqovun məsləhəti ilə yazılmışdır.***

Ötsə qərinələr, ötsə də illər,
Tarixdə iz qoyub, ulu nəsillər,
Yaddaşa həkk olub, hər kəlamları
Ağsaqqal nurundan bəhrələnmişik.

Məğrur yerişlidir, qartal gözlüdür,
Mənim diyarımın ağsaqqalları,
Nurani simalı, dağ vüqarlıdır,
Mənim diyarımın ağsaqqalları.

Ağsaqqal ayağı dəyən yerlərdə,
Bərəkət-ruzi var, xeyir-dua var.
Odlar diyarının səlnaməsində,
Ulu öndər kimi böyük düha var.

Ağsaqqal adının ucalığında,
Tanrı sevgisi var, günəş nuru var.
İsti nəfəsində, gur ocağında
Qorqud babamızın odu-qoru var.

***14.IV.2002***

## YOLUNU GÖZLƏYİR ÖVLADLARININ

Açıb qollarını ana Vətənim
Yolunu gözləyir övladlarının
Gözləri yoldadır, qulağı səsdə,
Yolunu gözləyir övladlarının.

Coşub dağ çayları nəğmələr qoşur,
Qayadan süzülən, şəlalə coşur,
Əsən küləklərdən, mehdən soruşur,
Yolunu gözləyir övladlarının.

Çəmənlər gül açıb xalı toxuyur,
Cığırlar çiçəkdən, güldən qoxuyur,
Kəkliklər, turaclar nəğmə oxuyur,
Yolunu gözləyir övladlarının.

Yaşıl meşələrin talalarında,
Sıldırım sal daşlı qayalarında,
Anamız Qarabağ yuxularında,
Yolunu gözləyir övladlarının.

## VƏTƏN OĞULLARI

Çiçək toxumu tək qanlı köynəklər
Səpildi çəmənə al lalə kimi.
Gülün ləçəyindən süzülən jalə,
Yığır damla-damla piyalə kimi.

Dərd qalaq-qalaqdır,dağdan ucadır,
Min illər yol gəlib, çatıb bizlərə
Vətən oğulları, şərəfli yolun
Davamı qalıbdır, yalnız sizlərə.

Qanlı köynəkləri bayraq edin siz,
Düşmənə son dərsi verməlisiniz,
Qulağım səsdədir tez bir zamanda,
Şanlı Qələbəni deməlisiniz.

***1993.***

## MÜAHARİBƏ İSTƏMİRİK

Müharibə istəmirik,
Hərbə hazır olmalıyıq.
Barıt kimi, mərmi kimi
Silahlara dolmalıyıq.

Qoy kor olsun, mənfur düşmən
Qanadını qırmaq gərək,
Şığıyaraq qartal kimi
İldırım tək çaxmaq gərək.

## XOŞ NƏĞMƏLƏRƏ

Mənim doğma yurdum Azərbaycanım,
Gözəllər, igidlər qalası olub.
Ceyranın, cüyürün sərin yaylası,
Durnanın, qartalın yuvası olub.

Dövran da dəyişsə, zaman da belə,
Yurdum gözəlliyi itirməyibdir.
Dünyaya oğlullar gətirən ana,
Bizim igidlər tək gətirməyibdir.

Qaranlıq gecədən nurlu səhərə,
Yol açmaq sizlərə yaraşır ancaq,
Qoy doğma yurdumun hər bir qarışı,
Bürünsün hər zaman xoş nəğmələrə.

***2007***

## ADIM VƏTƏNLƏ QOŞA

Mənim məzarım üstə,
Vətən sözünü yazın.
Zirvəli dağ qoynunda,
Səngər əvəzi qazın.

Ruhum günəş nurundan
Yenidən canlanacaq.
Adım Vətənlə qoşa,
Heykəl tək ucalacaq.

***2000***

## SÖYLƏ VƏTƏN

Ürəyindən keçənləri
Mənə söylə, söylə Vətən!
Köksün üstən keçənləri,
Əylə Vətən, əylə Vətən.

Xan çinarlar bitirmisən,
Nər igidlər yetirmisən,
Qəribləri gətirmisən,
Yaxşılığın eylə, Vətən.

Ocağından od vermisən,
Çörəyindən dad vermisən,
Günümüzü şad vermisən,
Ucal xanla, bəylə Vətən.

Dağlar kimi ucalmısan,
Dünya kimi qocalmısan,
Özüm səndən bac almışam,
Öz qoynunda əylə Vətən.

***2012.***

## VİRANƏ QALIB

Anam Qarabağın gözləri dolub,
Dalıb xəyallara illərdən bəri:
Şıltaq şəlalələr çağlayıb coşub,
Bulağın suyunu içəndən bəri.

Zamanın gedişi tərsə fırlanır,
Kainat oyanıb məəttəl qalıb.
İnsanlar yurdundan köçhaköçdədir,
Dünyanın özü də biganə qalıb.

Yurd- yuva talandı, Xocalı yandı,
Dağlara səs saldı, xalqın harayı,
Anam Qarabağın könül sarayı,
Uçulub taxt-tacı viranə qalıb.

## MÜHAFİZƏÇİLƏR

Günəşlə oyanar, nura boyanar,
Vətən keşiyində məğrur dayanar,
Xalqın güvənc yeri igid oğullar,
Cəngavər, cəsurdur Mühafizəçilər.

Vətən babaların əmanətidir,
Xalqına xidməti dəyanətidir,
Keşikdə hər zaman məğrur-mətindir,
Şərəfli, qürurlu Mühafizəçilər.

Müqəddəs bayrağın, ana Vətənin,
Odlar diyarıdır, varın-dövlətin,
Həyatda ən böyük sonsuz sərvətin,
Qürurdu, namusdu Mühafizəçilər.

***2006.***

## GƏNC LEYTENANTLARA...

Milli Ordumuzun bayram günündə,
Məzunlar albomu hədiyyə etdi!..
Xəyallar apardı məni uzağa,
Bir vaxt bənzərdilər körpə uşağa
İndi başa vurub hərbi məktəbi
Gedirlər Vətəndə, el qorumağa,
Piyada, pilotlar, həm istehkamçı,
İlahi, heç biri görməsin acı,
Vətən keşiyində dayanan hər kəs,
Fəxrim-vüqarımdır, başımın tacı,
Sizin albomunuz, sizin şəkliniz
Mənim mənzilimə nur səpəcəkdir,
Zəminə Xınalı ananız kimi,
Sizdən zəfər günü gözləyəcəkdir.
Sizdən qələbəni gözləyəcəkdir.

***26.VI.2003***

## HƏRBİ AND

Vətən keşiyində dayanan oğul,
Müqəddəs and olub, hərbi andımız
Ana Vətənimiz Azərbaycanın,
Uğrunda içilər hərbi andımız.

Hərbi and müqəddəs olduğu qədər,
Şərəfdir-şöhrətdir, qürur-vicdandır,
Ulu babalardan əmanət qalan,
Ana Vətənimiz Azərbaycandır.

## AZƏRBAYCANIM

Bir ömür haqqını ödəmək üçün,
Vətən keşiyində dayanmışam mən.
Zirvəsi qartallı dağlara bənzər,
Vətən torpağından güc almışam mən.

Ömür şam kimidir, əriyib gedər,
Heç kimin ömürü getməsin hədər,
Azadlıq yolunda çəkmədik nələr,
Deməzəm heç zaman yorulmuşam mən.

Gözəllər gözəli Azərbaycanım!
Sənə qurban olsun mənim öz canım.
Vətən sevgisiylə qaynayır qanım,
Ana Vətənimə vurulmuşam mən.

***2010***

## SƏNDƏN ÖTRÜ BÖLÜNMÜŞƏM, AY VƏTƏN

Səngərdəyəm, keşikdəyəm, dağdayam,
Göllərdəyəm, səməndəyəm, bağdayam,
Yol gedirəm, heç bilmirəm hardayam
Səndən ötrü bölünmüşəm, ay Vətən.

Dağ qoynunda, qayalarda, daşdayam,
Kövrəlmişəm, gözdən axan yaşdayam,
Əvvəldəyəm, axırdayam, başdayam,
Səndən ötrü bölünmüşəm, ay Vətən.

Kimsə bilməz hal-əhvalım necədi?
Bilirsənmi, mənim yaşım neçədi?

Sənsiz ömrüm-günüm zülmət gecədi,
Səndən ötrü bölünmüşəm, ay Vətən.

***11.I.2013***

## İGİD, CƏSUR OĞULLAR

***Azərbaycan Respublikasının «Xatirə kitabı»nı oxuyandan sonra qələmə aldım.***

Müharibə cənginə
Almışdı yer üzünü.
Vətənin oğulları
Atdı oda özünü.
Vətən uğrunda onlar
Qanlarından keçdilər
Zəfər uğrunda onlar
Canlarından keçdilər.
Şərəflə-ləyaqətlə
Hərbi and içdi onlar.
Döyüşə yollandılar
İgid –məğrur oğullar
Andına-amalına
Sadiq qaldılar onlar.
Neçə-neçə şəhəri,
Yeri aldılar onlar.
Faşistin niyyətiydi,
Zəbt etsin Abşeronu.
Düşmənin ordusunu
Ot kimi biçdi onlar.
Oddan-alovdan keçib,
Əzmlə döyüşdülər.

Son tikələrin belə
Tən yarı bölüşdülər.

Onlara qoşulmuşdu
Vətən sevən insanlar
Səngərlərdən-səngərə
İrəli keçdi onlar.
Cəbhədən analara
Məktublar yolladılar.
Neçə ana, bacı da
Qara xəbər aldılar.
Ağır zərbələr alan
Düşmənlər sarsıldılar.
Vətən torpaqlarını
Geriyə qaytardılar.
Min doqquz yüz qırx beşdə
Doqquzu may günündə
Faşizmin üzərində
Qələbəni çaldılar,
Qara buludu qovub,
Günəş kimi saçdılar,
Reyxstaq qülləsinə
Al bayrağı sancdılar.
Şanlı qələbə günü,
Vətənə döndü onlar.
Qazandılar əbədi
Qəhrəman adı onlar
Yaddaşlarda yaşadı
İgid, cəsur oğullar

***14.01.2013***

## GÖZLƏ VƏTƏN

Ayaq açıb yeriyəndə,
Övlad kimi böyüyəndə,
Qəlbin bizlə döyünəndə,
Gözlə bizi, gözlə Vətən.

Canından can calasan da
Ocağında qalasan da
İncimərik danlasan da
Sözlə bizi, sözlə Vətən.

Odlar yurdu Vətənimsən,
Yenildirsən düşməni sən.
Ana kimi qoru bizi
Qartal gözlü, gözlə Vətən.

Qürbət eldə, qərib eldə,
Yaşayırsan hər könüldə,
Həsrət çəkər gül, bülbül də
Özlə bizi, özlə Vətən.

Göy üzündən günəş saçar,
Dağ qoynundan qartal uçar.
Düzlərində çiçək açar,
Vəsf edərik, sözlə Vətən.

***10.I.2013***

## ANA VƏTƏN DEYİRİK

***Ana sözü deyəndə***
***Həm də Vətən deyirik.***

***İlyas Tapdıq***

Anamız tək sevirik,
Adınla güvənirik,
Dilini öyrənirik,
Ana Vətən deyirik.
Boyansa da al qana,
Torpaq da gələr cana,
Anam Azərbaycana
Ana Vətən deyirik.
Ayrılığı çətindir,
Övladları mətindir,
Birlik bu millətindir.
Ana Vətən deyirik.
Ana sözü deyəndə
Həm də Vətən deyirik,
Təbiət al geyəndə
Yenə Vətən deyirik.

***10.1.2013***

## SƏNƏ GÖRƏ

***Vətən bircə sənə görə***
***Mən rütbəyə, vəzifəyə***
***Hörmətimi dəyişmədim…***

***Söhrab Tahir.***

Vətən bircə sənə görə
Mən sıravi əsgər oldum.
Geyib hərbi mundirimi
Uğrunda səfərbər oldum.

Rütbəm də yox, vəzifəm yox,
Yad gözlərə olmuşam ox,
Nəfsim yoxdur, gözümsə tox
Vətən bircə sənə görə.

Ellər çay tək çağladılar,
Güldən çələng bağladılar,
Hörmətimi saxladılar
Vətən bircə sənə görə.

Halal ruziyə çatmışam,
Qürurumu ucaltmışam
Marşlar yazıb-yaratmışam.
Vətən bircə sənə görə.

Al bayrağın zirvələrə,
Ucalıb mavi göylərə,
Güvənirəm igidlərə,
Vətən bircə sənə görə.

Millətimdən hörmət gördüm,
Dövlətimdən ülfət gördüm,
Hərb peşəmdən şöhrət gördüm,
Vətən bircə sənə görə.
Vətən bircə sənə görə.

***14.1.2013***

## MƏNZİL BAŞINA

***Bu çətin yollarda mənzil başına***
***Məni məhəbbətin aparacaqdır.***

***Rəsul Rza***

Polad iradəsi olan insanı
Heç kim nə sındıra, nə əyə bilməz.
Ürəkdə Vətənə sevgisi olan
Nə böhtan, nə yalan söyləyə bilməz.

Vətən harayına yollananlara
Kimsə qınaq edib, söz deyə bilməz.
Vətənə can deyib, qurban gedəni
Yolundan döndərib, əyləyə bilməz.

Bu çətin yollarda mənzil başına
Vətən məhəbbətim aparacaqdır.
Odlar diyarında xalqın gözündə,
Əbədi məşəl tək ucalacaqdır.

***14.01.2013***

## 20 YANVAR GÜNÜNDƏ

Yağış kimi yağırdı
Güllə, atəş, ölüm də.
Gözlərinə yaş gəldi
Qərənfilin, gülün də
20 Yanvar günündə.

İlham Fərizənin də,
Hüzn günü dəfnində,
Şəhidlər ucaldılar
Xalqımın ürəyində
20 Yanvar günündə.

Bayrağa büründülər,
Göylərdən göründülər,
Ölməzliyə döndülər,
Ulu tanrı önündə
20 Yanvar günündə.

Al-qana boyandılar,
Məşəl olub yandılar,
Heykəl tək dayandılar,
Şəhidlik zirvəsində
20 Yanvar günündə

Əsarətdən oyandıq,
Müstəqillik qazandıq,
Şəhidləri biz andıq,
Xatırladıq bu gün də
20 Yanvar günündə.

## ELİMİN İGİDLƏRİNƏ

Vətən xidmətində, keşik çəkənlər,
İgidlər, ərənlər, ey mərd əsgərlər
Nə qədər məğrursuz, mətanətlisiz,
Xalqımın ümidi, güvənc yeri siz!

Eşq olsun sizləri doğan anaya,
Elimə-obama siz bəzəksiniz.
Vətənin ən ağır, çətin günündə
Yaman günlərində siz gərəksiniz.

Hər zaman siz belə vüqarlı olun,
Vicdanlı, dözümlü sel güclü olun,
Sizin bağrınızdan qopan nərəylə,
Elin fəxrisiniz el güclü olun.

## HALAL OLSUN

Vətən, qurbanam adına,
Üz verməmişəm yadına,
Dar ayaqda imdadına
Gələnlərə halal olsun.

Paslanarsa qılınc qında,
Qeyrət hissi olmaz canda,
Vətən oğlu, el yolunda
Ölənlərə halal olsun.

Nə vaxt duymuşam ətrini,
As başım üstən çətrini,
Zəminə deyir qədrini
Bilənlərə halal olsun.

## DÖYÜŞÇÜ NƏRƏSİ

Döyüşçü nərəsi, ana fəryadı
Düşməni susduran, silah olacaq.
Saf amal uğrunda- Vətən uğrunda,
Qələbə naminə çarpışsın hər kəs.

Əqidə, saf niyyət, şərəf, ləyaqət,
Vətən məfhumunu izah eyləyər.
Qəzəbi coşarsa elin- obanın,
Düşməni yer ilə yeksan eyləyər.

Ədalət haqq işi qələbə çalar,
Əgər ki, yumruq tək birləşsə xalqım.
Torpağa bayrağa vətənə sevgi -
Şəhid məzarıdır müəddəs andım.

## ƏSGƏR ADDIMLARI

Durna qatarına, durna səsinə,
Bənzəyir əsgərin mətin addımı.
Elin qüvvəsinə, selin gücünə
Bənzəyir əsgərin mətin addımı.

O uca, o qoca ulu dağların
Uca zirvəsinə, qarlı başına,
Torpağın müqəddəs hər qarışına,
Bənzəyir əsgərin mətin addımı.

Gəlimli- gedimli qoca dünyanın,
İlinə-gününə, hər bir anına.

Tarixin daş adlı bir yaddaşına
Bənzəyir əsgərin mətin addımı.

Daxildə qürura, həm hərbi anda,
Səngərdə dayanıb, öndə duranda.
Qeyrətə, vicdana saf məhəbbətə
Bənzəyir əsgərin mətin addımı.

## ƏSGƏR PAPAĞI

Mən əsgər papağı geyinməliyəm,
Qadınam kişi tək öyünməliyəm.
Hərbin hər sirrini, hərb sənətini,
Ürəklə, vicdanla öyrənməliyəm.

Günahım nədir ki, anam qız doğub,
Adımı Xınalı Zəminə qoyub.
Bilmirəm hardandır, bu eşq, bu həvəs,
Qəlbimə kişilik qeyrəti dolub.

Yorğanım od olub, yastığımsa daş,
Vətən dara düşüb, eşit vətəndaş!
Ey papaq altında yatan oğullar,
Oyanın Vətəni qoruyaq qardaş.

## DÖYÜŞ BAYRAĞI

Döyüş bayrağını qaldıran oğul,
Tanrı qollarına güc verəcəkdir!
Xankəndə bayrağı sancdığın günü,
Analar, bacılar sevinəcəkdir!

Bayrağı öp, oğul! Bayraq müqəddəs,
Vətən müqəddəsdir, torpaq müqəddəs,
Cəngavər libasli hər oğul, hər qız,
Vətən keşiyində dayansın hər kəs!

## ŞƏHİD ŞƏRBƏTİNİ İÇDİ ŞƏHİDLƏR

Hər kəsdə hünər yox, döyüşə getsin,
Savaşa getdilər, igidlər-ərlər.
Vətəni ürəkdən sevdilər deyə.
Şəhid şərbətini içdi şəhidlər.

Elə bil od yağdı mavi göylərdən,
Mərmilər töküldü, torpağa dən-dən.
Qırmızı qan rəngli, tər çiçəklərdən
Torpaqdan kəfən də biçdi şəhidlər.

Gəzib dolaşdılar aranı dağı,
İşığa döndülər bəzən sübh çağı,
Öpüb oxşadılar ana torpağı,
Şirin canlarından keçdi şəhidlər.

## VƏTƏN TORPAĞI

Qartallar oylağı, igidlər yurdu,
Dağlarda marallar boynunu burdu.
Təbiət adına toy-büsat qurdu.
Çeşmə tək durusan, Vətən torpağı.

Qaynar bulaqların anasısan sən,
Çağlayan çayların laylasısan sən.
Ulduzun ayın da aynasısan sən.
Gözümün nurusan, Vətən torpağı.

Neçə döyüşlərdən uğurla çıxdın,
Düşmənin damını-daşını yıxdın.
Qələbə çalanın əlini sıxdın.
Əzəlsən, ulusan, Vətən torpağı.

Sənin hüzuruna gəlməyənlərə,
Dərdini səninilə bölməyənlərə,
Sənin uğurunda ölməyənlərə,
Zindansan, quyusan, Vətən torpağı.

## MƏTİN ADDIMLAR

Ey çiçək ətirli, barıt qoxulu,
Nəfəsi atəşli, sözləri odlu.
Sabahı işıqlı, gündüzü nurlu,
Azəri yurdunun igid, nər oğlu.

Gəl əziz oğulum bayram günündə,
Boynunu qucayım üzündən öpüm.
Fəxr edim ana tək, təmiz adınla,
Cərgədə mərd, məğrur, mətin addımla.

Çələng hör sevdiyin qızın saçına,
Xonçalar bəzənsin sənin adına,
Hazırlıq görülsün, toy nişanına,
Bəd nəzər yad olsun yaraşığına.

## QƏLƏBƏ MARŞINI

Ordumun gücündən qüvvət alaraq
Qələbə marşını yazacağam mən.
Acı rüzgar, qaranlığı qovaraq,
Qələbə marşını yazacağam mən.

Hərbi marşlar ərməğandır orduma,
Azərbaycan odlar yurdu-yurduma.
Söz verirəm şərəf-vicdan andıma,
Qələbə marşını yazacağam mən.

Köksümdə qaynayıb coşan eşqimdən,
Xoş müjdə gətirən ana dilimdən.
Dərin duyğuların seçib içindən,
Qələbə marşını yazacağam mən.

Şəklini çəkəcəm bütöv Vətənin,
Asacam üstündən öz ürəyimin.
Qırıb caynağını mənfur düşmənin,
Qələbə marşını yazacağam mən.

## EY VƏTƏN

***mus: Nadir Əzimov***

Səndən başqa bir diyarı sevmərəm,
Qürbət elə vətən deyə bilmərəm,
Öz dərdimi özgələrlə bölmərəm,
Doğma anam, Azərbaycan, ey Vətən!

Uca dağların, qoca dağların var,
Yaşıl meşə, həm barlı bağların var.
Yaxşı ki, igid, mərd oğulların var,
Dayanıb keşikdə sənin, ey Vətən!

Sinən dağlar gördü, qəmdən uzaq ol,
Tufandan, çiskindən, çəndən uzaq ol.
Dağ suyu, çeşməli, qaynar bulaq ol,
And yerimsən, yurd yerimsən, ey Vətən!

Sənsiz ötüşməsin baharım- qışım,
Torpaq olum, torpağına qarışım,
Ömrümə nur ələr yağan yağışın-
Səcdəgahım, qibləgahım, ey Vətən!

## TÜRK ULDUZLARI

***Türk ulduzları eskadriliyasının Azərbaycan səmalarında uçuşuna ithaf edirəm.***

Uç göylərdə, türk oğlu türk,
Tanrı sənə yar olacaq.
Yar zülməti, dünya xain
Düşmənlərə dar olacaq.

Sülh məramlı göyərçinsən,
Göy üzündə qanad aç sən.
Azəri-türk torpağında
Günəş kimi parla, saç sən.

Qarabağım əldən gedib,
Şəhid ruhu narahatdır.
Düşmənləri lərzəyə sal,
Qoy bilsin ki, türkün yolu,
Nurlu, təmiz, işi haqdır.

***25.08.2001***

## SƏS VERİN

Haqqa, ədalətə, sülhə səs verin,
Geriyə yol yoxdur, irəi gedin.
Əsirlikdə inildəyən torpağı
Düşmən caynağından siz azad edin.

Var- dövlət yığmayın, qızılın-zərin,
Hərisi zəhərli ilanlar olur.
Yalandan, böhtandan uzaq olun siz,
Yaxşılar tarixdə qalanlar olur.

Ot kökü üstündə bitər-deyiblər,
Yamanlar yaxşıdan betər-deyiblər,
Oğullar köksünü sipər ediblər,
Tökülən qan bəsdir, yetər-deyiblər.

## ANA TORPAQ

Ana torpağımız can verib inlər,
Ümid sizlərədir, sizə igidlər.
Torpağı ölümdən xilas eyləyin,
Vətəni işğaldan xilas eyləyin.

Ulu babaların müqəddəs ruhu,
Tanrı dərgahında narahat qalıb.
Şəhid ruhlarının incidiyi an
Çəməndə- çöllərdə çiçəklər yanıb.

Nigaran ruhların ər- oğulların,
Soyuq məzarları səngər olubdur.
Yaşıl çəmənlərin al yamacların,
Laləli yanağı çoxdan solubdur.

# MÜHARİBƏ

MÜHARİBƏ QAN QOXUSU
MÜHARİBƏ FACİƏDİR.
MÜHARİBƏ HƏM QARANLIQ
HƏM DƏ ZÜLMƏT BİR GECƏDİR.

## EY VƏTƏN

***(nəğmə)***
***mus: N.Mirrməmmədli***

Dolanım dağına, düzünə vətənim.
Sən mənim al- əlvan çiçəkli çəmənim.
Ömrümə çiçək səp nur ələ, ey Vətən,
Səndən doymamışam, mən hələ, ey Vətən!

Tükənməz sərvəti, yaşıl meşəsi
Oxunar dillərdə Vətən nəğməsi.
Azəri dilinin şirin kəlməsi,
Ana Vətənimsən, Vətənim mənim.

Qəlbimdə nəğmələr hey aşıb-daşar.
Yurduma toy-düyün necə yaraşar.
Ürəkdə gör neçə arzu yaşadar.
Bu dünya durduqca yaşa, ey Vətən!

**Nəqərat:**

Gecələr çayların oxuyar zümzümə,
Şəlalə çağlayar, bənzəyər ömrümə.
Sevinc bəxş edirsən mənim hər günümə,
Səninlə fəxr edirəm, özüm ey Vətən!

## AZƏRBAYCAN

Ana Vətən! Azərbaycan
Gözün aydın!
Qırdın qara zülmətləri,
Azad günə çıxa bildin,
Ay-ulduzlu bayrağına
Sahib durdun.
Məmməd Əmin babamızın,
Arzusunu sən doğrultdun.
Azərbaycan!
Necə gözəl bir diyarsan,
Sən – şəlalə, axan çaysan,
Mavi dəniz, həm günəşsən,
Yoxdur tayın-bərabərin,
Yer üzündə Azərbaycan!

## MƏNİM ƏSGƏR QARDAŞIM

Sən günəş ol, işıq ol,
Sən ulduz ol, mayak ol,
Analara dayaq ol,
Mənim əsgər qardaşım!

Ürəyində eşqini,
Məhəbbətini qoru,
Sənsən sabahın nuru,
Mənim əsgər qardaşım!

Daş yazır yaddaşına,
Kömək ol qardaşına,

Sadiq ol öz andına,
Mənim əsgər qardaşım.

Arxanca su çiləyir,
Anan uğur diləyir,
Səni yarın gözləyir,
Mənim əsgər qardaşım.

## GƏLSİN

Vətən dara düşüb imdad istəyir
Vətən harayına hay verən gəlsin.
Quruca sözlə yox, yalan vədlə yox,
Öz şirin canından pay verən gəlsin.

Nə dinclik, rahatlıq tapmayaq gərək,
Gecəni gündüzə qatmayaq gərək,
Ocağı nahaqdan çatmayaq gərək,
Düşməni dizindən qatlayan gəlsin.

Hünər meydanında, göyə ucalan,
Düşmən üzərində qələbə çalan,
Savaşda qan tökən, intiqam alan,
Şanlı qələbəni gətirən gəlsin.

***1992***

## AZƏRBAYCAN ƏSGƏRİ

Boyun uca çinardır,
Yolun yağışdır qardır.
Ünvanın Murov dağdır
Azərbaycan əsgəri.

Od içindən keçirsən,
Yurda keşik çəkirsən.
Xalqımın vüqarı sən,
Azərbaycan əsgəri.

Keç səngərdən səngərə
Yenə dəstə-dəstə sən.
Üç rəngli bayrağımı
Qaldır başın üstə sən.

Qələbə amalıyla,
Sazla, sözlə, ilhamla.
İrəliyə addımla
Azərbaycan əsgəri.

## VƏTƏN NƏĞMƏSİ

Uçardım qanadım olsaydı əgər,
Mən qadın olsam da, əsgərəm, əsgər.
Həmişə mən sənin oduna yandım,
Sənsən ilk ünvanım, sənsən ilk andım.

Mən sənin uğrunda candan keçərəm,
Ömürdən keçərəm, qandan keçərəm,
Sən ana, mən övlad, verək baş-başa
Biz gəldi gedərik, təki sən yaşa.

Sənin torpağın da daşın da əziz,
Təkcə baharın yox, qışın da əziz,
Sənsən əzəl gündən şərəfim -şanım
Mənim şah vüqarlı Azərbaycanım!

## ŞƏHİD DAĞI GÖRƏN GÖZÜM

Qarabağım od içində
Ağla, gözüm, ağla dedim.
Ürəyimi köz eyləyib
Dağla-dağla, dağla dedim.

Yox! Ağlamaq gərək deyil,
Tanrım igid mərdi sevir.
Zəfər çalsın, şanlı ordum,
Azad olsun, doğma yurdum.

Qazi oldum, şəhid oldum
Vətən üçün canım verdim.
Zəfər çalar şanlı ordum,
Azad olar, doğma yurdum.

Dərgahında şəhid ruhu,
Daşa dəyər, düşmən oxu,
Zəfərlərlə çələng toxu,
Azad olar, doğma yurdum.

***1994***

## XEYİR-DUA

Halal süd əmmiş oğul,
Haqq da sənə tərəfdir.
Anan namaz üstədir,
Keşik çəkmək gərəkdir.

Allah səni qorusun,
Düşmənin gülləsindən.
Ulu dağlar yenə də
Qoy güc alsın səsindən.

Aç caynağın qartal tək,
Yeri məğrur, yeri mərd.
Torpağına sahib ol.
Geri çəkilsin namərd.

***1993***

## QARABAĞ

Anamız Qarabağ, od tutub yanır,
Topxana meşəsi qana boyanır.
İnsan cəsədləri səpilir dağa,
Mərmilər, raketlər yağır torpağa.

Bilən yox qiyamət günüdür, nədir?
Bu da bir biçimdə müharibədir.
O xain qonşular, nankor "kirvələr"
Gör nəyin eşqində, istəyindədir.

Çapıb- talayıblar evi- eşiyi,
Gülləyə tutulub türkün beşiyi.
Əsir götürüblər qızı- gəlini,
Ana övladından üzüb əlini.

İndi duzsuz olub türkün çörəyi,
Necə kinli imiş namərd ürəyi.
Yağı viran qoyub torpağı -daşı,
Kədər nalə çəkir hər addım başı.

Ey türk oğlu, yatma, qalx dur ayağa!
Göstər qüdrətini xain dığaya.
Azad et yurdunu doğma elini.
Bir zəfər sorağı sıxsın əlini!

***1988***

## XOŞ GÜNLƏRİN SORAĞINDA

Çayın qırağında yorğun bir əsgər,
Dayanıb gör necə qəmli, mükəddər .
Dayanıb səngərdə səhərə qədər,
Sinəsin vətənə edibdir sipər.

Növbəni versə də əsgər dostuna,
Dönüb baş çəkmişdi onun yanına.
Yorğunsan, get dincəl, demişdi dostu,
Mən ki, buradayam, gözlərəm postu.

Bu əsgər oğlanın təmiz qəlbində,
Dolanan fikirlər, qələbə idi.
O, sönmüş ocaqlar, sönmüş çıraqlar,
Köksünü elə bil yeyib didirdi.

Bəlkə dönüb olum, ağ atlı oğlan,
Od yağsın atımın dırnaqlarından.
Bəlkə dönüb olum Babək, Koroğlu
Qoy mənə desinlər Azəri oğlu.

Xidmətə gələrkən mən ki, anamın,
Alqışı üstündə yol alıb gəldim.

Kaş ki, məni sevən qonşu qızının,
Axan göz yaşını heç görməyəydim.

Çay axır sahili şehli-çəmənli,
Quşlardır, oxuyur, xoş bir nəğməli.
Xoş günlər, qələbə, sülh sorağında,
Bir əsgər oturub çay qırağında.

Qanımı tökməyə hazıram deyir,
Düşmənə qəbiri, qazıram deyir,
Qələbə sözünü yazıram deyir.
Xoş ğünlər, qələbə sülh sorağında.
Bir əsgər oturub çay qırağında.

Ayağa duraraq, özü –özünə,
İrəli -... İrəli-… irəli deyir.
Qışqırır... düşmənin bağrı çatlayır,
Qələbə, qələbə, qələbə... - deyir.

***2008***

## DÖYÜŞƏ GEDİRƏM

Mən çiçəklər içində,
Gül-çiçəklər içində.
Vətənin torpağını,
Zərif çiçək görürəm.

Torpaq əziz müqəddəs,
Olduğundan bəlkə də,
Bu torpağın uğrunda,
Mən döyüşə gedirəm.

***1993***

## SÜLH NƏĞMƏLƏRİ

Vətənin dar günü, çətin günündə
Əsgər paltarını geymək şərəfdir.
Qələbə soraqlı marş nidaları,
Mətanət dözümdür, həm də fərəhdir.

Sormayın siz məndən niyə qadınam,
Qadın yox, mən özüm canlı aslanam.
Coşan qəzəbimlə, təmiz eşqimlə
Vətən keşiyində hər an dayannam.

Nigarlar, Həcərlər, haydı, irəli!
Fərəhdən döyünsün hər kişi qəlbi.
Hamımız birlikdə hamı irəli,
Dünyaya biz yayaq sülh nəğmələri.

***2006***

## QARABAĞDADIR

Ürəyində alov vardı, od vardı,
Torpağımız yad əlində dardadır.
Sorağını eşidərdim, Akifim
Vətən keşiyində - Qarabağdadır.

Nə şaxtadan, nə soyuqdan qorxmazdı,
Bircə dəfə xəstələnib yatmazdı.
Eşidərdim artıq Murov dağdadır,
Vətən keşiyində - Qarabağdadır.

Qış necə sərt keçir, sərt keçir Allah!
Sən özün yarımı qoru, ay Allah!

Tufan qopub, çöldə yaman şaxtadı,
O isə keşikdə - Qarabağdadır.

Atasız darıxan uşaqlarım da,
Tez- tez soruşardı, atam hardadı?
Mən isə fəxrlə deyərdim, bala,
Vətən keşiyində - Qarabağdadır.

***1992***

## ŞUŞA

Şuşa qəm içində boğulur Allah!
Düşmən tapdağına dözməyir daha.
Musiqi beşiyi sayılan Şuşa
İndi boyanıbdır qarğışa- aha.

Şuşanın dağları, çölü- çəməni
Oxuyur gecələr ağlar nəğməni,
Ey igid əsgərlər eşidin məni
Bu doğma torpaqdan qovun düşməni.

***2004***

## ŞƏHİDLƏR

Torpaq üstə bitən güldü, çiçəkdi,
Köksü şırım-şırım, ləçək-ləçəkdi.
Hər zaman ürəkdən seviləcəkdi
Sorağı ellərdə gəzən şəhidlər.

Göy üzündə ulduzdular, aydılar,
Kim deyər ki, yaşamaqdan doydular?
Yağıları yaman günə qoydular
Düşmənin başını əzən şəhidlər.

Söz mülkündə incidilər, dürdülər,
Hikmətdilər-açılmayan sirdilər.
Bir müqəddəs ocaqdılar-pirdilər
Saflığın üstündə əsən şəhidlər.

Zirvəyə qalxdılar ünvanlarıyla,
Bir dastan yazdılar ad-sanlarıyla
Vətən sevgisini al qanlarıyla
Sətirdən-sətirə düzən şəhidlər.

## AZADLIQ CARÇISI

Göylərin üzündə göyərçin kimi,
Sülhün, azadlığın carçısı sənsən.
Bəşər tarixinin ilki- əzəli
Yenilməz həqiqət carçısı sənsən.

Hansı bir ölkədə, hansı diyarda,
Azəri oğlu var, ora cənnətdir.
Saf eşqi, əməli, vicdanı kimi
Vücudu həqiqət, ləldir ziynətdir.

## VƏTƏN SEVGİSİ

Geyib zabit libasını,
Hərbi sevdirdin mənə.
Çəkdin yurd ağrısını,
Dərdi sevdirdin mənə.

Savaş üçün barış üçün,
Oldun yollar yolçusu.

Vətəni sevməyin özü,
Məhəbbətin doğrusu.

Mənə əmanət qoydun
İki oğul balanı.
Düzlük amalın idi,
Sevməz idin yalanı.

Vətənin ağrısını
Çəkirdin ürəyində.
Vətənin yanğısını
Daşıdın kürəyində.

Mənə nə gözəl sevgi
Vətən sevgisi verdin.
Bu sevgini özün də
Sinəndə gəzdirirdin.

Yağan yağışdan qardan
Sən qorxmazdın borandan.
Özün isti ocaqdın,
Xəbərin yox tufandan.

## XOCALI

Eşq ilə, sevgi ilə
Dolu olan ürəklərin,
Gülər üzlü gözəllərin,
Aynası idi Xocalı.

Yaşıl çəmən-çiçəklərin,
Ahu gözlü mələklərin,
Nər biləkli igidlərin
Obası idi Xocalı.

Göydən axan buludların,
Leysan yağan yağışların,
Dağ başında qartalların,
Yuvası idi Xocalı.

Anaların laylasıydı,
İgidlərin qalasıydı,
Yaşıl meşə talasıydı,
Talan oldu Xocalı.

Haray çəkib deyirəm ki,
Talan oldu Xocalı,
Tarixlərin yaddaşında
Qalan oldu Xocalı.

## HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALI HƏRBİ MƏKTƏBİ

***(Məktəb marşı)***
***Musiqi:Mahir Əsgərov***

Birləşin azəri-türk övladları,
Düşmənin ürəyi, həm qəlbi yansın.
Bütün yer üzündə sülhün sədası,
Azadlıq, ədalət qoy zəfər çalsın.

Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

Hərbin sirlərini öyrədəcəksən,
Parlayan, sönməyən bir gələcəksən.
Hər zaman dillərdə sən gəzəcəksən,
Elimi- obamı bəzəyəcəksən.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

Vətən harayına neçə oğullar,
İgid, mərd zabitlər yetirdin özün.
Xoş müjdə, qələbə, sülh sorağını,
Zəfər bayrağını gətir sən özün!
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

Müqəddəs şəhidlər ölməz ruhunu,
Tarix yaddaşında yaşadacaqsan.
Üç rəngli bayrağı mavi səmada,
Ən yüksək zirvəyə ucaldacaqsan.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

# AZƏRBAYCAN ALI HƏRBİ DƏNIZÇİLİK MƏKTƏBİ

***(Məktəb marşı)***
***Bəstəkar: Azər Dadaşov***

Ana Vətənim üçün,
Pak vicdanlı oğullar-
Qəhrəmanlar yetirir
Hərbi Dəniz Məktəbi.

Anam Azərbaycanın
Mətin bir əsgəri tək,
Keşiyində dayanıb
Hərbi Dəniz Məktəbi.

Tarixlər yaddaşında
Silinməz izlər qoyur,
Günəşdən ilham alır
Hərbi Dəniz Məktəbi.

Xəzərin sahilində
Yurd salıb, yuva salıb.
Ulduz kimi parlayır
Hərbi Dəniz Məktəbi.

Üç rəngli bayrağımız
Vüqarla dalğalandı.
Saf sularda yol aldı,
Hərbi Dəniz Məktəbi.

## AZƏRBAYCAN ALİ HƏRBİ TƏYYARƏÇİLİK MƏKTƏBİ

***(Məktəb marşı)***
***Musiqi: Yusif Axundzadə***

Çəkilsin göylərdən qara buludlar,
Günəş şəfəq saçsın yollarımıza,
Öyünür xalqımız sənin adınla,
Sirli bir dünyasan, adın gözəldi.
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik məktəbi.

Məramın sülh olsun, səadət olsun,
Düşmən yanar olsun, Tanrım qorusun!
Uzaq keçmişlərdən gəlir sorağı.
Şahinlər yuvası, qeyrət ocağı.
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik məktəbi.

Azəri yurdunun, Türk övladının,
Müqəddəs beşiyi sən olacaqsan.
Tarixin əbədi yaddaşlarında
Hər zaman, hər vaxtı yaşayacaqsan,
Yurdumuun fəxrisən coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik məktəbi.

## ŞƏHİD ŞƏRBƏTİNİ İÇƏNLƏR GƏRƏK

***Musiqi: Mahir Əsgərov***

Vətənin dar günü, yaman günündə,
Vətən harayına gedənlər gərək.
Savaşda ölümə hazır olanlar.
Şəhid şərbətini içənlər gərək.

Silaha sarılıb, döyüşə gedən,
Vətəni qoruyan ərənlər gərək.
Tanrı dərgahında müqəddəs adlı,
Şəhid şərbətini içənlər gərək.

Şəhid anasının, həm övladının
Axan göz yaşını silənlər gərək.
Qanıyla torpağı suvara bilən.
Şəhid şərbətini içənlər gərək.

## TÜRK QANIDIR QANIMIZ

***Musiqi: Gülsüm Abdulla qızı.***

Ey Vətən, ana Vətən.
Keşiyində durmuşuq.
Müstəqil Azərbaycan
Dövlətini qurmuşuq.

Durun millət ayağa,
Gedək qisas almağa,
Könüllü getməliyik
Vətəni qorumağa.

Vətənim odlar yurdu,
Od yurdu odlar yurdu.
Keşiyində dayanıb.
Basılmaz igid ordu.

Öz canımız, qanımız,
Vətənə qurban olsun
Qəzəbimiz coşarsa
Düşmənlər yanar olsun.

Vicdanı bayraq tutub,
İrəliyə gedək biz
Türk qanıdır qanımız
Kor olsun düşmənimiz.

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK MAHNISI

***Musiqi: Həsən Abbasquliyev***

Azərbaycan adını,
Vətən, torpaq andını,
Ucalardan uca tut,
Sən ey Vətən övladı.

Dünyanın hər yerində
Günəş kimi parla sən,
Ucal ən şərəfli, şanlı adla sən.

**Nəqarət:**
Həmrəylik dostluq demək.
Həmrəylik birlik demək.
Xalqımın xoş niyyətin
Bəşərə çatdırmaq gərək.

Azərbaycan xalqına,
Gücünə, qeyrətinə,
Şanına, şöhrətinə
Alqış deyək!

Sən şanlı bir tarixsən,
Sən bir şərəf yolusan,
Bölünməz bir bəşərsən,
Sülhün keşiyindəsən.
Parlayan bir günəşsən.
Zəfər yürüşündəsən,
Azəri xalqının övladısan sən.

## ƏSGƏR QARDAŞLAR

***Musiqi:Nailə Mirməmmədli***

Mətin addımların döyüntüsündən,
Lərzəyə düşübdür düşmən ordusu.
Əsgər qardaşların uca boyundan,
Qorxuya düşübdür düşmən ordusu.

Geriyə yol yoxdur, ancaq irəli!
Açılan sabahlar gözləyir sizi.
Daim sevindirin siz qəlbimizi
Yaşayın, var olun, əsgər qardaşlar.

Ürək döyüntüsü, qəlb çırpıntısı,
Qaranlıq gecənin tez açılması,
Nurlu sabahların işıq saçması,
Əllərinizdədir əsgər qardaşlar.

Analar fəxr edir, bacılar sevir,
Sizin qədrinizi bütün el bilir.
Sevincdən xalqım da, göz yaşın silir,
Yaşayın, var olun əsgər qardaşlar.

## MÜQƏDDƏS VƏTƏN

***mus. Vüqar Camalzadə***

Ey ana torpağım! Ey doğma Vətən!
Mənim and yerim də, yurd yerim də sən!
Vüqarım fəxrimsən, güvənc yerimsən,
Mənim ürəyimdə, həm qəlbimdəsən.

Qafqaz dağlarının döşündə özün,
Azəri yurdutək əbədiləşdin.
Hər daşın, qayanın döşündən axan,
Çağlayan çaylar tək sən nəğmələşdin.

Ey ana torpağım! Müqəddəs Vətən!
Mənim səcdəgahım, qibləgahımsan!
Tarix yaddaşımsan, ruhum, canımsan,
Dünyaya səs salan Azərbaycansan.

## QARABAĞI UNUTMAYIN!

Ana Vətən Azərbaycan!
Torpağına qurban olum.
Tarixlərdən gəlir səsin:
Haraylayır igid nəslin.
Qarabağı unutmayın!
Unutmayın Qarabağı!

Laçın, Şuşa, Kəlbəcərin,
Zəngilanın, Qubadlının,
Fizulinin, Cəbrayılın,
Xankəndinin, Xocalının,
Ağdamın da sinəsini
Dağlar qoydu düşmənlər.
Azərbaycan torpağının,
Vətənimin gözü olan,
Qarabağı unutmayın!
Unutmayın Qarabağı!

Neçə igid nər oğullar
Şəhid oldu ər-oğullar.
Sinənizi gər oğullar,
Göstərin hünər oğullar,
Qarabağı unutmayın!
Unutmayın Qarabağı!

Dosta dost ol, düşmənlərə
Bac verməyin igidlərim.
«Zəfər marşı», «Misri», «Cəngi»,

Sizinlədir igidlərim
Qarabağı unutmayın!
Unutmayın Qarabağı!
*1997*

## UCALARDAN UCADIR

Könlüm qəmin, sevincin
əbədi sarayıdır.
Gözdən axan göz yaşım
qəlbimin harayıdır.
Mənə ilham da verən,
mənə inam da verən,
Damarımda qaynayan
Azəri- türk qanıdır.
İstəmərəm bir günüm,
səssiz-səmirsiz ötsün.
İstərəm ki, hər anım
cox mənalı ötüşsün.
Dilimə gələn sözü
əllərimdən ricam var
Qələm alıb kağıza,
ağ varağa köcürsun.
Saymaqla saya gəlməz
çətin –yaman günlərim.
Ya nağıldır, ya dastan.
gözümlə gördüklərim,
Arzularım yarımçıq,
hanı öyündüklərim,
Xatirimə gəlməyir
nə vaxt sevindiklərim.

Belə bir məsəl də var
qəmlə-kədər qoşadır.
Zəminə Xınalını
dərdin özü yaşadır.
Həyat necə maraqlı,
sanki bir tamaşadır.
Halal insan hər zaman
ucalardan ucadır.

***2000***

## QANLI MÜHARİBƏ

Qapımı elə bir harayla döydü,
Qanlı müharibə, amansız döyüş.
Heç nədən sormadan cavan yarımı,
Aldı müharibə, amansız döyüş.

Yanar ocağımı göyə sovurdu,
Yarımı öldürdü məni qovurdu,
Qul edib əlində məni buyurdu,
Qanlı müharibə, amansız döyüş.

Söndürdü səadət çıraqlarımı,
Görmədi heç ürək ağrılarımı,
Puç etdi ən şirin –arzularımı,
Qanlı müharibə, amansız döyüş.

Polad iradəmi əzdi-əymədi,
Hədəfi mən idim mənə dəymədi,
Bağlı qapıları niyə döymədi?
Qanlı müharibə, amansız döyüş.

Neçə igidlərin qanını içdi,
Ağrısı-acısı, canımdan keçdi,
Neçə ərənlərə kəfən də biçdi
Qanlı müharibə, amansız döyüş.

Ən böyük mükafat mənə dərd oldu.
Zəminə Xınalı saraldı, soldu.
Könlümə dərd ilə qəm ilə doldu.
Qanlı müharibə, amansız döyüş.

***1993***

## MƏN SIRAVİ ƏSGƏRƏM

Azərbaycan qızıyam, Azərbaycan adıyla,
Köksümdə çarpan ürək iftixarla döyünər.
Hərbi Məktəb marşları öncə amalımdadır.
Torpaq, bayraq sevgisi qanımda, canımdadır.
Ömür-həyat yollarım Vətən yollarındadır.
Ruhum, cismim həm səsim coşan harayımdadır.
Zabit, kursant, gizirlər oxuyanda marşımı
Qara bulud şəkilsin Vətənimin başından.
Ulu tanrı eşitsin səsimi-alqışımı
Ərməğan edəcəyəm mən "Qələbə" marşımı.
Dağlardan güc almışam, uca dağa bənzərəm,
Günəş kimi parlaram, nur-çırağa bənzərəm,
Eşq olsun Azərbaycana, öz yurdumu sevərəm.

Torpağımı sevərəm!
Bayrağımı sevərəm!
Vətənimi sevərəm!
Silahlı qüvvələrdə
Mən sıravi əsgərəm.

***2003***

## VƏTƏNİM

Bağları ətirli, gül, bənövşəli
Zirvəsi qartallı, yaşıl meşəli.
Billur bulaqlısan, sərin çeşməli
İlk beşiyim, son mənzilim - Vətənim.

Qibləgahım and yerim, duz- çörəyim,
Yaman gündə güvənc yerim, gərəyim,
Odlar yurdum, hey döyünən ürəyim,
İlk beşiyim, son mənzilim - Vətənim.

Hər qarışı müqəddəs- pir ocaqlı,
Doğma, əziz, isti ana qucaqlı.
Günəş üzlü sülh- səadət soraqlı,
İlk beşiyim, son mənzilim Vətənim.

Səndədir ömrümün həyat yolları,
Səndədir könlümün ilk arzuları.
Xınalı Zəminənin fəxri- vüqarı,
İlk beşiyim, son mənzilim - Vətənim.

## MÜHARİBƏ BAŞLAYARSA…

Ürəyində Vətən eşqi olanlar
Gedəcəklər döyüşə…
Müharibə başlayarsa…

Torpaq, bayraq sevgisiylə
doğulanlar,

Vətən dərdi, həsrətilə
yoğrulanlar,
Dərd içində boğulanlar
Gedəcəklər döyüşə
Müharibə başlayarsa...

Öz yurduna-obasına
məhəbbəti,
Öz əhdinə-ilqarına
sədaqəti,
Ülviyyəti, dəyanəti,
Səxavəti olanlar.
Gedəcəklər döyüşə.
Müharibə başlayarsa...

Şanlı ordum qalib olub,
Bayrağımız ucalacaq.
Düşmənlərdən öc alacaq.
Zəfər marşı oxunacaq.
Müharibə başlayarsa...

***2000***

## VƏTƏN UĞRUNDA

Mənim şerim dünyaya
Döyüşməyə gəlmişdir.
Vətənimin dərdini
Bölüşməyə gəlmişdir.

Səsləyir qisas üçün
Hər oğulu, hər əri.

Səsləyir zəfər üçün
Cəngavər igidləri.

Səngər – Vətən qucağı,
Oğulları var olsun.
Nankor, xain düşmənə
Dünya özü dar olsun.

Torpağın xoş qoxusu,
Anaların nəfəsi.
Dağ çayına bənzəyir,
Əsgərlərin gur səsi.

Qorxmaq gərək deyil ki,
Vətən uğru döyüşdə.
Tanrı dayaq olacaq,
Nur saçacaq günəş də.

Doğma yurd yerlərinə
Artıq dönmək vaxtıdır.
Müqəddəs torpağımız
Bizə şahlıq tacıdır.

İntiqam, qisas deyib
İrəliyə gedin siz.
Yurdumu azad edib
Cənnət-məkan edin siz.

***2000***

## AZƏRBAYCAN–
## TÜRK DÜNYASI!

Odlar yurdu od diyarı,
Qəhrəmandır oğulları.
Əzəmətin məğrur-mətin,
Nə gözəldir dəyanətin,
Tanrı günəş dühası -
Azərbaycan türk dünyası.
Yaşa, yaşa türk dünyası.

Bayrağımız ucalara,
Zirvələrə yol açsın.
Qəlbimizdə arzulara
Şan-şöhrətin nur saçsın.
Əzbər olub xoş sədası
Azərbaycan türk dünyası
Yaşa, yaşa türk dünyası.

Əməli çiçək açsın
Səsi ellərə çatsın
Dağ kimi vüqarlıdır
Dosta etibarlıdır.
Halal-haqdır mayası
Azərbaycan türk dünyası,
Yaşa, yaşa türk dünyası.

## VAR OLUN SİZİ

İsti nəfəsiylə soyuq səngərdə
Dayanan oğullar var olun sizi.
Durna qatarı tək durun cərgədə,
Vətən keşiyində var olun sizi.

Sağlam iradəylə, polad biləklə,
Ən ülvi, ən ali, ulu diləklə,
Millətə, torpağa bağlı ürəklə,
Xalqa sədaqətlə var olun sizi.

Yaxşı ki, siz varsiz! Sizlər varsınız!
Yurduma qeyrətli oğullarsınız,
Düşməni susduran aslanlarsınız,
Bu hünər, bu adla var olun sizi!

Fəth edin göyləri, uca dağları
Gül-çiçəyə dönsün vətən bağları.
Fəxr etsin sizinlə Zəminə Xınalı:
Ürəkdən söyləsin:-Var olun sizi!

## VƏTƏN AĞRISI

Ana ürəyidir bütöv bir Vətən,
Onu parçalamaq, dağıtmaq olmaz.
Sızlayıb, göynəyib, göyərib bitən,
Vətən yarasını sağaltmaq olmaz.

Ana ürəyinin ağrılarından,
Yaranar Vətənə-elə məhəbbət.

Ana ürəyinin fəryadlarından,
Yaranar düşmənə sonsuz bir nifrət.

Ana ürəyidir müqəddəs Vətən.
Ana ürəyinə toxunmaq olmaz.
Qoşa yaranıbsa Ana həm Vətən
Onları heç zaman ayırmaq olmaz.

***2002***

## YURD QARABAĞIM

Sinəsi üstünə şırım çəkilmiş,
Dərdli Qarabağım al-qan içində.
Muğam beşiyidir, sənət dünyası.
Qarabağ taleyi qara biçimdə.

Günəş şəfəqinin parlaq boyası,
Nədəndir rəngini boğubdur sənin.
Qızıldan taxtı yox, qızıl bəxti yox,
Anan da talesiz doğubdur sənin.

Verməərəm düşmənə, verməərəm səni.
Mənim əsir düşən yurd Qarabağım.
Taleyi faciə, fəlakət dolu,
Aslansan, pələngsən, qurd Qarabağım.

Hissim cilovlanmır, qəlbim dağlıdır.
Rahatlıq tapmıram, qanım coşubdur.
Varlığın qəlblərə elə hopubdur
Ellər də adına mahnı qoşubdur.
Mənim qara bəxtli yurd Qarabağım.

## VƏTƏN EŞQİ

Vətən eşqi ürəyimdə canımda,
Qoymaz məni yanım-yanım kül olum.
Suvarılar qara torpaq qanımda,
Çəmənlərdə çiçək olum, gül olum.

Arzularım qalaq-qalaq əlçatmaz,
Tənhalıqda gündən uzun il olum.
Qartal tək zirvədə, qayada süzən,
Dağ başına çökən duman, tül olum.

Dərdli Qarabağın sağalmaz dərdi
Muğamı, tarı da sovqat göndərdi.
Zəhmətlə qaynayan bal arısı tək
Vətən, vətən deyən şirin dil oldum.

## HƏRBİ MUNDİRİM

Ən müqəddəs geyimimdir
Mənim hərbi mundirim.
Ölətəmsə kəfənimdir
Mənim hərbi mundirim.

Tarixləri varaqlayır,
Zəfərlərə soraqlayır,
Tomrisləri haraylayır.
Mənim hərbi mundirim.

Vətən uğru qana-qanla,
Mənfur düşmən yadda saxla,

Qurban gedər şirin canla
Mənim hərbi mundirim.

Məndən ötrü var-dövlətdir,
Cəvahirət, ləl-zinətdir,
Ölərəmsə əmanətdir.
Mənim hərbi mundirim.

***2004***

## VƏTƏN BORCU

Soyuq mənzilimdə alışıb-yanan,
Odlu şeirlərim çağırır məni.
Üşütsə tənhalıq, dərdimə yanan
Nəğmələr-marşlarım çağırır məni.

Qoymaz ki, sönməyə eşqim-ilhamım,
Vətən sevgisidir ilk arzularım.
Coşur şəlalə tək damarda qanım,
Tarixə qovuşur ömür baharım.

Hər ötən günümdən vətəndaş kimi,
Vətənə vicdanla borcumu verdim.
Müqəddəs torpaqlı vətən, daş kimi,
Halal zəhmətimin bəhrəsin gördüm.

Ötəcək aylarım, illərim belə,
Hələ cox borcum var, Vətənə-elə.
Qovuşub ruhum da dağ çayı, selə,
Vətən göylərindən baxacaq yenə.

***2005***

## DÖYÜŞ BAYRAĞININ KEŞİK XİDMƏTİNİ ÇƏKƏNLƏRƏ...

Odlar diyarının oğulu-qızı,
Döyüş bayrağını hər zaman sevin.
Ulu babaların şanlı yolunu
Öyrənin, öyrədin, əzbərdən bilin.
-Döyüş bayrağının rəngi qanımız,
Parçası müqəddəs şəhid dərisi.
Parıltısı zəfərlərin işığı,
Ay-ulduzu hürriyyət, istiqlaldır.
Yazısı qəhrəmanlıq, həm şücaət
Baftası şərəfli bir məsuliyyət.
Bütün bunlar Azəri-türk xalqından
Odlar diyarına bir əmanətdir.
Bu şanlı bayrağı namusla qoru.
Polad iradənlə de:-Vətən uğru
Nəsillər boyunca müqəddəs bayraq,
Keşik xidmətinin ən şərəflisi.
Keşiyin mübarək, uğurlu olsun.
Vicdanla, namusla qoru Vətəni.
Ucaltsın göylərə qürurun səni.
Ucaltsın göylərə uğurun səni.

***26.VI.2006***

## VƏTƏN - ANA

Mənim ürəyimdən Vətən eşqini,
Susdurmaq çətindir bu mümkün deyil.
Mənim vicdanımdan, Vətən eşqini,
Silmək çox çətindir, bu mümkün deyil.

Mənim əqidəmdən, Vətən eşqini,
Ayırmaq çox çətin, bu mümkün deyil.
Vətənim anamdır, Anam Vətəndir.
Bunları ayırmaq çətin, çətindir.
Vətəni, ananı, yurdunu sevən,
Polad iradəli, möhkəm mətindir.

***8.03.2006***

## MƏRKƏZİ HƏRBİ KLİNİK HOSPİTALI

Anam Azərbaycan-doğma yurdumun,
Vətən ovladının keşiyindəsən.
Dərdlərə dərmansan, təbib loğmansan,
Ömür yollarında nurlu mayaksan,
Silahlı Qüvvələr Milli Ordunun
Hünərindən halı, gücündən halı,
Mərkəzi Hərbi Klinik Hospitalı.

Odlar diyarında Azərbaycanda,
Şöhrətin yayılıb eldə-obada .
Torpağa, bayrağa, vətənə sevgi,
Ucal ən şərəfli, ən uca ada.
Silahlı Qüvvələr Milli Ordunun
Hünərindən halı, gücündən halı
Mərkəzi Hərbi Klinik Hospitalı.

## GEY ƏSGƏR PALTARINI

Gey əsgər paltarını,
Silaha sarıl, yarım.
Düşmənin üzərinə
Qartal tək atıl, yarım.

Çiynindəki ulduzlar,
Qoşa-qoşa parlasın.
Düşmən kənardan baxıb.
Ürəyicə partlasın.

Ana –bacı namusu
Qorumağın vaxtıdır.
Səngər səni çağırır.
Keşik çəkmək vaxtıdır.

Yaxşı deyib babalar:
-Oğul düşmən çəpəri.
Səndən gözlərəm, yarım.
Comərdliyi, hünəri.

***1992-ci il***

## ŞƏHİD SORAĞI

Azəri yurdunun mərd oğulları,
Qanıyla suvardı ana torpağı.
Əhmədin, Vəlinin, Muxtar, Siracın
Yayıldı ellərə şəhid sorağı.

İntiqam hissiylə döyündü ürək,
Dedilər hamımız döyüşə gedək.
Vətən keşiyində dayanmaq üçün
Hərbi məktəblərdə oxumaq gərək.

Bu gün örnək olub Azərbaycanın
Qeyrətli, cəngavər, mərd oğulları.
Soyuq səngərlərdə, ön cəbhələrdə,
Milli Ordumuzda hərb uğurları.

Qələbə əzmilə, zəfər marşını,
Xoş müjdə xəbərin yetirəcəklər.
Üç rəngli müqəddəs bayrağımızı,
Polad biləklərdə gətirəcəklər.

**ZABİT BALAMA**

Barmağı tətikdə gözü nişanda,
Qara gözlü balam, gözünə qurban.
Vətənin dərdinə sən qarışanda,
Polad biləyinə, özünə qurban.

Soyuq səngərlərdə, ön cəbhələrdə,
Canını Vətənə sipər eylədin.
Hər an Vətən deyib, Vətən söylədin
Sənin qüruruna sözünə qurban.

Bizim çörəyimiz hərb ocağının,
Alışan odunda, dadını tapıb.

Vətən uğurunda can verdiyindən,
Atanız müqəddəs adını tapıb.

İgidin adını xalq özü verir
Xalqını sevəni xalq özü sevir.
Biz haqq yolundayıq, sonu uğurlu
Sizin adınız var Azəri oğlu.

***2002***

## GÖNDƏRİN

Ruhum döyüşə köklənib,
Misri qılınc verin mənə.
Hoydu mənim dəlilərim,
Qıratı göndərin mənə.

Oyan millət yurd hayqırır,
Düşmən yurdu çalır-çapır,
Cıdır düzü dərddən yanır
Elatı göndərin mənə.

Alışmayın ayrılığa,
Həsrət qaldıq bağça-bağa.
Bağlayıb qara yaylığa
Bayatı göndərin mənə.

Haraylayır şəhid ruhu,
Zaman silkələyib Nuhu.
Hürkək düşüb gözəl ahu
Bozatı göndərin mənə.

***2004***

## BİR NİDA DEDİM…

Göylərin üzündən şimşək çaxanda,
Mənim ürəyimdə vulkan qaynayır.
Uzun gecələrdə rahat yatanda,
Mən elə bilirəm həyat dayanır.

Elə istəyirən düşmən ordusun,
Yerlə yeksan edim, çapım talayım.
Tikanlı məftillər olan yerləri,
Od vurub odlayım, od tək qalayım.

Qəm, möhnət yükündən qurtulmaq üçün,
Bütün dərdlərimə əlvida dedim.
Suala sualla cavab verməyib
Nöqtəsiz, vergülsüz bir nida dedim!

***2003***

## HAQQ YOLUMUZDUR

Ölümün gözünə dik baxmaq özü,
Zahiri, daxili simvolumuzdur.
Mərdlik, mətanətlik, igid, məğrurluq,
Halallıq özü də haqq yolumuzdur.

Azadlıq uğrunda döyüşə getmək,
Torpaqdan qurulmuş səngəri görmək,
İsti nəfəs ilə səngər isitmək -
Azadlıq yolumuz haqq yolumuzdur.

Ey məni dinləyən əziz oxucu!
Mən ömür yolunda yaşayıb-gördüm.
Vətən harayına qovuşmaq borcu, -
Azadlıq yolumuz haqq yolumuzdur.

***2001***

## YUMRUQ TƏK OLUB

Şanlı qələbəni yaşamaq üçün,
Vətən keşiyində dayanacağam.
Xalqımın mübariz, mərd olduğunu,
Şerimlə dünyaya mən yayacağam.

Vətən uğurunda yar itirmişəm,
Dərddən saray qurub, dərd bitirmişəm.
Vətən dara düşüb haray çəkəndə,
Özümü köməyə mən yetirmişəm.

Çiçək qoxusundan ətirli olur
Vətən torpağının o xoş qoxusu.
Bilirəm düşmənlər məkirli olur,
Fikrimə şərikdir xalqın çoxusu.

Bax ona görə də yumruq tək olub,
Vətəni hamımız çox sevməliyik.
Ölmək şərəfdirsə, yaşamaq üçün
Vətən keşiyinə biz getməliyik.

***2004***

## XALQ ÖZÜ SEÇİR

Göylərdən yerlərə leysan yağanda,
Dərddən cadar-cadar torpaq su içir.
Vətən sevgisini yaşadanları,
Yaxşını yamandan xalq özü seçir.

Dərd dəmir deyil ki, tuncdan yoğrulur,
Oğullar anadan igid doğulur.
Vətən uğurunda candan keçənə,
İnsan ürəyində heykəl qoyulur.

Xalqın sevgisini qazanmaq üçün
Vətəni ürəkdən qəlbdən sevməli.
Vətənin dar günü, yaman günündə,
Ürəklə, vicdanla öndə getməli.

***1996***

## ƏN UCA ZİRVƏYƏ

Ürəyimə təpər dizimə taqət,
Səndən istəyirəm ulu yaradan.
Güləşdim dərd ilə yıxmadım, fəqət
İnsafı vermisən de, özün hardan.

Mən güclü qadınam, zərif deyiləm,
Özün güc vermisən zəif deyiləm.
Qanını içərəm mənfur düşmənin
Döyüş meydanında heyif deyiləm.

Qıratı, qılıncı versəniz mənə,
Hoydu dəlilərim getdik deyərəm.
Səpilsə qanımız çölə-çəmənə,
Yenidən torpaqda bitdik deyərəm.

İztirab, əzabdan, dərddən qorxmayın.
Vətən həsrətindən qorxmaq gərəkdir.
Qələbə günündə bayrağımızı,
Ən uca zirvəyə taxmaq gərəkdir.

## DÖYÜŞ TÜRKƏ YARAŞIR

Əlimə silah alıb,
gecəylə yol gedəcəm.
Qarabağa göz dikən
düşmənə sual edəcəm.
Xəlbirini göylərdən
fırladıb tərs atacam
Manqurt, harın qanına
zəhərini qatacam.

Qundağın gözü ilə
təpəsinə vuracam,
Barmağımı tətiyə tutub,
onu bərk-bərk sıxacam.
Onlar döyüşmək bilmir,
qandan yaman qorxurlar,
Bütöv bir ordu gəlir
deyərək qorxudacam.

Gəmidə oturublar,
gəmiçiylə dalaşır.
Qorxaq erməniyə bax,
durub türkə sataşır.
Qalibiyyət bizimdir,
qanım qaynayıb –daşır
Döyüşdə aslan kimi,
döyüş türkə yaraşır.

***2005***

## YOLUMDAN DÖNMƏYƏCƏM

***Heç zaman, heç yerdə, heç cürə heç kəs***
***Vahidlik əzmini məhv edə bilməz.***

***Xəlil Rza Ulutürk***

Uçuruma düşsəm də, fırtınadan keçsəm də,
Düşmənlərin başını bircə-bircə kəssəm də,
Dənizlərdən kükrəyib, fırtına tək əssəm də
Yolumdan dönməyəcəm...

Tarix bizi hər zaman sınaqlardan keçirib,
Vətənimdə qaçqına vətənsizlər deyilib.
Qan içində boğulmuş meyidlər də didilib.
Yolumdan dönməyəcəm...

Yurd-yuvadan didərgin, bu bizlərə yaraşmır.
Millət niyə yurduna arı kimi daraşmır.
Niyə görən ay Allah, əlbəyaxa dalaşmır.
Yolumdan dönməyəcəm...

Yad eldə, yad obada, Vətən dərdi çəkənlər.
Qəriblikdə hər zaman göz yaşını tökənlər,
Minlərlə soydaşımız səsimə səs verməsə,
Yolumdan dönməyəcəm…
Yolumdan dönməyəcəm...

***2003***

## MƏNİM MİLLƏTİM

Mənim məmləkətim, mənim millətim,
Odlar diyarından əmanət qalıb.
Xain ermənidən, mənfur düşməndən,
Əsrlər boyunca xəyanət qalıb.

Qərbi Azərbaycan, Qarabağ eli,
Azəri türkünün ata yurdudur.
Bütöv Azərbaycan torpaqlarını
Hər zaman qoruyan Milli Ordudur.

***2006***

## VƏTƏN

Sənə dəyən güllələr
Gözümə dəysin Vətən!
Sənə gələn ağrılar
Özümə gəlsin Vətən!

**Nəqarət:**
Vətən, Vətən, ey Vətən
Səndən doğma nə var ki?

Sən mənim ilk beşiyim
Sən mənim son mənzilim.

Yaşıl çöldə-çəməndə
Xınalı kəklik gəzsin.
Başı qarlı dağlarda
Qartal qıy vurub süzsün.

*1993*

## SƏRHƏDÇİ NƏĞMƏSİ

Bütov Azərbaycan sərhədlərini
Qorumaq peşəsi çox şərəflidir.
Günəş şəfəgiylə nura boyanan,
Doğma yurdumuzun sərhədləridir.

**Nəqərat:**
Vətən sərhəddinin keşiyi bizim
Müqəddəs andımız, amalımızdır.
Odlar diyarında Vətən torpağı,
Səcdəgah, qibləgah vüqarımızdır.

Qoruyaq Vətənin sərhədlərini
Ürəyimiz kimi, canımız kimi.
Kükrəyək dəniz tək, çağlayaq çaytək,
Damarda qaynayan qanımız kimi.

## HƏRBİ LİSEY

*Naxçıvanski hərbi liseyinə*

Ulu Öndər yaradıbdı
Naxçıvanski liseyini.
Hərb yoluna nər oğullar
Bağlayıbdır taleyini.

Hərb ocağı Vətənimə
Mətin oğullar yetirər.
Övladıyla öyünənlər
Öndərə rəhmət diləyər.

Milyon-milyon insanların
Xoş rifahı olub lisey.
Xalqımızın gələcəyi
Al sabahı olub lisey.

## ANAM AZƏRBAYCANDIR

Vətən uğrunda ölmək
Həm şərəfdir, həm şandır.
Dünyaya örnək olan -
Anam Azərbabaycandır!

Qara-qızıl yataqlı,
Cənnət- məkan torpaqlı,
Haqq, ədalət soraqlı-
Anam Azərbaycandır!

Qobustanda qayası,
Qubasında alması.
Anaların laylası-
Anam Azərbaycandır!

Muğamı, şikəstəsi-
Bülbülün, Xanın səsi
Qarabağ xəzinəsi -
Anam Azərbaycandır!

Xəzər billur ləpəli,
Araz həsrət nəğməli,
Gəzməli, həm görməli -
Anam Azərbaycandır!

Əsrlərin yaddaşı.
Tarixlərin sirdaşı.
Bulaqların göz yaşı-
Anam Azərbaycandır!

Dəli Kürün anası.
Sal daşların xınası.
Göy-gölün də aynası-
Anam Azərbaycandır!

Qazax, Şəmkir, Tovuzda
Aşıqlar çalar sazda.
Deyir Qusar, Xaçmaz da-
Anam Azərayandır!

Aranı var, dağı var,
Düşməni var, yağı var,

Sinəsində dağı var-
Anam Azərbaycandır!

Qafqaz sıra dağları
İgid mərd oğulları.
Könlümün arzuları-
Anam Azərbaycandır!

Min bir dərdin dərmanı,
Duz dağı, Batabatı,
Gözəl edən həyatı-
Anam Azərbaycandır!

Meyvə, üzüm bağları,
Qarpız, qovun tağları.
Könlü qırov-şaxtalı-
Anam Azərbayandır!

Göyçayında narı var,
Şirvanında xalı var.
Min nəğməli kaman, tar-
Anam Azərbaycandır!

20 yanvar qəm ili,
Yas tutub qərənfili,
Könlü qəmli-nisgilli-
Anam Azərbaycandır!

Bakı paytaxt şəhəri,
Nur paylayır səhəri,
Abad kəndi-şəhəri
Anam Azərbaycandır.

Şəhidlər xiyabanı
Səcdəgah -qibləgahdır.
Odlar yurdu məkanı-
Anam Azərbaycandır!

## "TARİXİMİZİN SƏHİFƏSİNDƏN"

***Rəsam Kamil Ramazanovun «Tariximizdən səhifələr» tablosuna baxarkən***

Vücudumda dağ vüqarı,
Qollarımda selin gücü.
Polad kimi iradəm var,
Əyilmərəm, qırılmaram.
Damarımda axan qanım dağ çayıdır.
Sinəm dərya- dəniz kimi,
Coşub daşar, hey kükrəyər.
Ürəyimi kədər- qəm yox,
Tanrının eşqi bürüyər.
Deməyin ki, o qadındır,
Çətinlikdən büdrəyər.
Obam Qazax mahalıdır,
Aslanbəyli kəndindənəm.
İncə dərəm, o Göy Türbəm,
Avey dağı Göyəzənim,
Rəvac verib ki, öyünəm.
Ata yurdu, öz obamı
Saf bir məhəbbətlə sevəm.
Torpaq, bayraq sevgisiylə,
Aşır- daşır dolu sinəm.
Azərbaycan ordusunun

Bir sıravi əsgər qızı,
Mən Xınalı Zəminəyəm.
Polad sinəm səngər olub
Min bir dərdə.
Ali Hərbi Məktəblərin
"Məktəb marşı oxunduqca"



Zabitlərin, kursantların
Gizirlərin, əsgərlərin dillərində,
Həm təbəssüm hörmət gördüm
İnsanların üzlərində.
Zaman məni çox imtahan eyləmişdi
Ötən gənclik illərində.
Göz yaşlarım yurd salmışdı
Ürəyimdə, gözlərimdə.
Bu sərt, çətin imtahandan keçmək üçün
Tanrı özü kömək etdi.
Dar günümdə özü yetdi.
Tutub mənim əllərimdən

Zirvələrə, göy üzünə
tərəf getdi.
Tanrım özü yollar açdı,
Qovdu qara buludları,
Çiçək açdı ürəyimdə
Əsgər qadın arzuları.
Sevindirdi ürəyimi halal zəhmət
Təmiz eşqin arzuları.
Seyr edirəm rəssam çəkən tabloları;
“Tariximizin səhifəsindən” silsiləli
Çəkilmişdi:- Azərbaycan xanımları:
-Öndə durub- Tomris əldə qılınc,
Sara Xatun, Taclı Bəyim,
Nigar, Həcər, bu Zuleyxa,
bu Leyladır.
bu Salatın Əsgərova,
bu Zəminə Xınalıdır
Əlindəki Azərbaycan bayrağıdır.
Bu tablonu seyr edənlər:
-Gülzar xanım,
Tariyel müəllim
Oğlum Arzu- Ayaz,
Söhrab, Rəhman, həm də Mahir,
Heykəltaraş Eldar bəy də,
Fotoqraf Seyfəddin də,
Yaşar, Rəfiqə Göyçəli
“Ayparadan” Nurəli də,
Minəxanım Təkləli də,
Söylədilər:

-Azərbaycan xanımları
Cəngavərlər nəslindəndir.
Şahin kimi qıy vurarlar, yorulmazlar,
İlk eşqini, ilqarını unutmazlar.
Halallığa haram tikələr qatmazlar.
Yad millətin oğul deyib güvəndiyi
yad kişilər,
Millətimin qadınının
qeyrətinə heç çatmazlar.
Alqış olsun söylədilər:
- Azəri- türk qızlarına.
Alqış olsun Vətənimin
oğuluna-qızlarına.
Alqış olsun xalqımızın
Ramazanov Kamil adlı rəssamına.
Alqış olsun:
Ömrü uzun, gözü nurlu,
qollarında gücü olsun.
Əsərləri, tabloları yer üzündə
Göy üzündə nurlu olsun.
Tariximizin yaddaşında
həkk olunsun.
Bu dünyadan köçmüş olan
atasına-anasına rəhmət olsun.
“Tariximizdən səhifələr” tablo isə
bu günlərdən gələcəyə
gələnlərə örnək olsun.

***2004***

## DOYMADIM SƏNDƏN, VƏTƏN!

*Qazax mahalı Aslanbəyli kəndinin ilk hərbi*
*təyyarəçisi kapitan Yaşar Mail oğlu*
*Əhmədovun əziz xatirəsinə..*

Ömrün bahar çağında
Göylər mənə dar oldu.
Ürəyimdə yarımçıq
Qalan arzular oldu.
Doymadı gözüm səndən-
Doymadım səndən, Vətən!

Qəfil gəldi duman-çən,
Yollarıma çıxdın sən,
Məni uca göylərdən
Fələk, niyə yıxdın sən?
Doymadı gözüm səndən-
Doymadım səndən, Vətən!

Çiynimdəki ulduzlar,
Göy üzündən parladı.
Mənim hərbi təyyarəm
Buludları yarardı,
Doymadı gözüm səndən-
Doymadım səndən, Vətən!

Son nəfəsdə söylədim-
Vətən, sənin özündən,
Solmayan gül üzündən,
Gecəndən-gündüzündən
Doymadı gözüm səndən-
Doymadım səndən, Vətən!

***11.02.2013***

## ÖMRÜMÜN DAVAMI

Dünyaya gələndə Novruz bayramı,
Baharın ilk günü güldü üzümə.
Anam layla çaldı, anam can dedi
Vətən nəğmə qoşdu, çaylar zümzümə.

O vaxtlar saf qəlbli bir körpə idim
“Ana Vətən” – dedim mən dil açanda
Böyüdüm nəğmətək dillərə düşdüm
İsindi eşqimlə ürək də, can da.

Enişli-yoxuşlu həyat yolunda
Vətən torpağından güc aldım, hər an,
Dərdin kürəyini yerə vuraraq
Vətən keşiyində ucaldım hər an

Seçdiyim peşəmdə, ömür yolumda
Bilirdim, sərt soyuq quşlar olacaq,
Bilirəm bilirəm, bilirəm ki, mən,
Ömrümün davamı marşlar olacaq.

***2013***

## MÜSƏLLƏH ƏSGƏRƏM

***Bilsin ana torpaq, eşitsin Vətən,***
***Müsəlləh əsgərəm, mən də bu gündən.***
***S.Vurğun***

Torpağın bağrına dəyən güllələr,
Sinəmə sancılır, qəlbimə dəyir.
Dar gündə Vətənin övladlarından,
Ellər kömək umur, imdad diləyir.

"Müsəlləh əsgərəm mən də" ay ustad,
Qoy ölən biz olaq, yaşasın Vətən.
Nə vaxt torpağına ayaq bassa yad,
Hazıram bir anda candan keçəm mən.

***1993***

## ULDUZLLAR

Gecələr göylərdə
yanan ulduzlar,
İnsanın ömrünün
nişanəsidir.
Zülmətin bağrını
ox kimi dələn
Müqəddəs ruhların
möcüzəsidir.
Bəlkə ona görə,
ay kövrək olur,
Bəlkə ona görə,
buludlar dolur.?
Bəlkə ona görə
çiçəklər solur.?
Vətənə can verən
şəhidlər olur
Müqəddəs and yeri
şəhidlər olur.

***2013***

# POEMALAR

## TƏNHA TÜRK MƏZARI

Şamaxı ətrafı, yol kənarında,
Bir türk əsgərinin məzarı vardır.
Bu yoldan ötənlər-keçənlər deyir,
Bu məzar tək- tənha, qərib məzardır.
Hələ uşaq idim, Nigar nənəm də
Belə söyləyərdi, belə deyərdi:
-O uzaq elləri çox yaxın bilib,
Azəri yurdunun yaman günündə,
Canıyla-qanıyla yardıma gəlib.
Gəlişi kor edib xain düşməni,
Girib gözlərinə-ox kimi dəlib.
Ərzurum, Qars keçib Murova gəlib,
Dumana-çiskinə, qırova gəlib.
Şəhidlik müqəddəs-uca zirvədir.
Canından keçməyə girova gəlib.

Silahı-sursatı çiyinlərində,
Torpaq məhəbbəti əməllərində,
Səsinə səs verdi o millətin də
Özünü tapmışdı, Vətən dərdində.

Bolşevik-erməni daşnaklarıyla,
Qana-qan deyirdi, qanlı döyüşdə.
Vətən uğurunda-İrəli dedi,
Bayrağı qaldırıb öndə gedirdi.

Haykırdı: Azəri Türklərlə birdir.
Bizim torpaqlara göz dikən kimdir?
Dəhşətli, amansız qanlı döyüşdə
Düşmənin başını ot kimi biçdi.
Azəri torpağı azad olunca,
Qisas almağına qəlbdən and içdi.
Torpağa göz dikən xain düşmənlər
Göyçəyə, İrəvan xanlıqlarına,
Qazax mahalının yaylaqlarına,
Dilican dərəsinə tamah salmışdı.
1918-də...
Gəncədən düz Şamaxıya çatmışdı,
Araba, at ilə, topla-tüfənglə
Təpədən dırnağa silahlanmışdı.

Quba qəzasında minlərlə insan,
Evləri-eşiyi olmuşdu talan.
Yaman günümüzdə köməyə çatan,
Dini bir, dili bir türklər olmuşdu.

Lənkəran-Göyçaydan sadə insanlar,
Qoşuldu orduya neçə oğullar.
Tanrı dərgahında qoca nənələr,
Meyvə bağlarından pay göndərdilər.

Yaxşı yol! Uğurlar! Qələbə çalın!
Siz marşlar oxuyun! Siz Cəngi çalın!
Doğma yurd yerləri geri qaytarın.
Üstünə gün doğsun Azərbaycanın.

Döyüşdə türk oğlu aslan-şir olar.
Müqəddəs and yeri tanrı-pir olar.
Yadında saxlasın xain düşmənlər,
Azəri-türkərlə daim bir olar.

Gör bu nə tamahdır, bu nə nəfisdir,
Xain ermənilər, xain iblisdir.
Qədim yurd yerləri Azərbaycanın
Qərbi Azərbaycan, həm də Tiflisdir.

Göyçay-Şamaxıdan Bakıya qədər,
Topla, tüfəng ilə, silah –sursatla,
Yürüş fikrindəykən xain düşmənlər,
Kəsdi qarşısını cəngavər türklər.

Tayqulaq Andranik nəvələrinə
Dayanın! Dinləyin-eşidin dedi ;
-Biz Nuru Paşanın, Ənvər Paşanın
İgid əsgəriyik bilirsiz? - dedi.

Qınından çıxarıb Misri qılıncı,
Koroğlu nərəsi çəkdi türk oğlu.
Qisas qiyamətə qalmaz deyərək,
Döyüşə başladı bütöv bir ordu.

Yayıldı hər yana barıt qoxusu,
Qafqaz dağlarının ətəklərində,
Döyüş meydanında türk əsgərinin
Əzəmət göründü biləklərində.

Qorxuya düşərək düşmən ordusu,
Geriyə çəkilib, hey qaçırdılar
Hayana gəlmişdi? Hara gedirdi?
Yolların azaraq hey çaşırdılar.

Ölənlər öldülər, qalanlar qaldı,
Şanlı türk əsgəri bir zəfər çaldı.
Od vurub qalanan, çapıb talanan,
Torpağı əsgərlər geri qaytardı.

Köksündən aldığı ağır yaradan,
Torpağa türkün də qanı töküldü.
Tanrı dərgahında ulu yaradan,
Türkə dayaq oldu, düşmənlər öldü.

Qanıyla suvardı qara torpağı,
O son nəfəsində öpdü bayrağı.
Yayıldı ellərə türkün sorağı,
Şəhid türk əsgəri, o türk məzarı.

Qafqaz dağlarının başı üstündən,
Dumanlar-çiskinlər belə silindi.
Kimin-kim olduğu yaxşı bilindi.
Bu məzar tək deyil, bütöv elindi.

Bu yoldan ötənlər, hər səhər-axşam,
Qardaş məzarını ziyarət edir.
Müqəddəs məzarın sal daşlarından,
Öpüb-oxşaması kifayət edir.

Bu tənha məzarda yatan türk oğlu!
O şəhid olubdur, ölməyibdir ki!
Nur saçır, işıq tək göylər üzündən,
Parlayan günəşdir, sönməyibdir ki!

Bu tənha məzarda yatan türk oğlu,
Əsrin yaddaşıdır, tarix qalası.
Vətəni-torpağı sevən kəslərin,
Köksündə qurubdur mərdlik qalası.

Bu tənha məzarda yatan türk oğlu,
Örnəkdir, ibrətdir soykökü, dili,
Azəri-türk qanı daşıyanların
Dilində əzbərdir, türkün hər eli.

Bu məzar tək deyil, əsrin yaddaşı,
Silkələr, oyadar hər vətəndaşı.
Qayadan yoğrulub hər bitən daşı,
Tənha türk məzarı, həm Vətən daşı.

Bu şəhid məzarı, bu türk məzarı,
Günəş tək parlayar, çıraq tək yanar.
Azadlıq uğrunda tökülən qanın
Səcdəgah yeridir hər bir insanın.

## OĞLUM ARZUYA MƏKTUB

Salam əziz oğulum,
Sabahın xeyir olsun.
Gündüzlərin uğurlu,
Axşamın xeyir olsun.

Ürəyimin arzusu,
Mənim Arzu balamsan.
Hamı səni çox sevir
Ürəklərdə qalansan.

Hələ cavansan oğlum,
Arzuların öndədir.
Allah səni qorusun,
Qismətin xoş gündədir.

Hərb sənəti seçmisən,
Yolun uğurlu olsun.
Sənin ömür yolunda,
Taleyin nurlu olsun.

Bayraq, torpaq sevgisi,
Ruhunda, canındadır.
Azərbaycan sevgisi,
Qeyrətli qanındadır.

Sən mənim ilk nübarım,
Sən mənim baharımsan.
Ürəkdə arzularım,
Tanrıdan xoş payımsan.

Şükür olsun tanrıya,
Səni mənə pay verib.
Tənha qalmayım deyə,
Ayazı da tay verib.

Deyirlər ki, mələklər,
Qoşa qanadlı olur.
Oğul anaları da
Ürəkli-adlı olur.

Hələ uşaq idin sən,
Atan köçdü dünyadan.
Nə tez sınağa çəkdi
Ulu tanrı yaradan.

12 yaşında ikən
Qayğılara qarışdın.
Çətin yaman günlərə,
Uşaq ikən alışdın.

Böyük oğul atanı,
Əvəz edər deyiblər.
Səni görən-bilənlər
Müdrik bala deyiblər.

Ağıl yaşda deyil ki,
Başda olur deyiblər.
Şaxta-soyuq, tufan-qar,
Qışda olur deyiblər.

Sən ki, ömür yolunda
Min bir əzab çəkmisən.
Dərs vaxtı məktəbə də
Bəlkə lap ac getmisən.

Sənin ağlın – kamalın,
Hamını valeh etdi.
Bizim yaman günümüz
Elə o, gündən bitdi.

Gecə-gündüz çalışdın,
Şagirdlərlə yarışdın.
Əla qiymət alanda
Taleyinlə barışdın.

Səkkizinci sinifdən.
Məktəblə vidalaşdın.
Hərbiçi olmaq üçün
Qərib elə alışdın.

Sən gedəndə elə bil
Mənzilimiz boşaldı.
Sənin kiçik qardaşın
Ayaz yanımda qaldı.

Yamanca darıxırdım
Elə sən gedən gündən.
Hər saatda, hər anda,
Nigaran idim səndən

2001-ci ildə
İlk məktubu alanda,
Şəkil də göndərmişdin.
Anan boyuna qurban
Bax bu mənəm demişdin.

Kursant libasında sən
Uca boylu olmuşdun.
Sənlə oxuyanlardan
Ön cərgədə durmuşdun.

Oxuyub məktubunu
Şəkilindən öpmüşdüm.
Oğlum böyüyüb deyə,
Bəlkə yuxu görmüşdüm.

Tanrım sənə cox şükür,
Sənə minnətdaram mən.
Əlimdən nə gəlir ki,
Uğur arzularam mən.

Sənə sükürlər olsun
Sən ey ulu yaradan.
Bizə dayaq olan da
Sənsən bizi ucaldan.

Dərgahına sığınıb
Halallığa qovuşduq.
Tanrının işığında
Yaman gündən sovuşduq.

Mənim oğullarımı
Qanadında saxla sən.
Möcüzələr yaradan,
Ucalt uca bəxtlə sən.

Uzaq qərib ellərdə
Tanrı qorusun səni.
Bəd nəzər, pis gözlərdən
Allah qorusun səni.

Mənim fəxrim, vüqarım,
Ürəyim canım oğul.
Sən əhdim, sən ilqarım,
Damarda qanım oğul.

Mənə hədiyyə aldın
Qələm, kağız, dəftəri.
Bircə ay qonaq qaldın,
Seçdin uzaq səfəri.

Sən müqəddəs Vətəni
Candan əziz sevirsən.
Ürəyində, qəlbində
Bir gözəl də sevirsən.

Sənin ilk sevginə də,
Sənin ürəyinə də,
İlk eşqin, diləyinə də
Anan qurban ay oğul.

Sev, ürəyin sevgiylə,
Məhəbbətlə hey dolsun.
Ucal vicdan, qəlb ilə
Tanrı özü qorusun.

Səni sevən gözəl də,
Daha zəng etmir bizə.
Öz-özümlə danışdım
Səsim də yetmir sizə.

Nə olar bir zəng eylə,
Yamanca darıxmışam.
Gözlərim hey dolanda
Ürəyimi sıxmışam.

Neçə il bundan əvvəl
Yolladığın məktubu.
Açıb oxuyuram ki,
Bəlkə səsini duyam.
Təklik məni təntidib,
İstəyirəm məktubu
Bir az bərkdən oxuyam…

Sənə qurban ay oğul,
Heç olmasa zəng elə.
Uşaq vaxtı dəcəldin
Yenə məni dəng elə.

İllər quş qanadında
Uçub getdi sürətlə.

Sizi belə böyütdüm -
Vətənə məhəbbətlə.

Atan vətən uğrunda
Canını fəda etdi.
Çox sevdiyi Vətəni
Bizə əmanət etdi.

Torpaq, bayraq sevgisi
Sənin andın-amalın.
Mənim var-dövlətimdir
Sənin ağlın kamalın.

Qisməti tanrı yazıb.
Qismətdən qaçmaq olmaz.
Həyat-ömür sirrini
Heç kimə açmaq olmaz.

Oxu leytenant ol ki,
Çiynində ulduz görüm.
Xoşbəxt gününü görsəm,
Bil ki, uzanar ömrüm.

Ayaz sənə əmanət,
Böyük qardaşı sənsən.
Azəri-türk xalqının
Zabit qardaşı sənsən.
Sənə məktub yazırdım,
Baxdım ki, seir oldu .
Tutduğum arzuları
Mələklər deyir -oldu.

Bizim ömür yolumuz
Soyuq səngərdən keçdi.
Nümunəvi ailə tək
Xalqım da bizi seçdi.

İllər gəlib keçəcək.
Qərinələr ötəcək.
Sənə, mənə, Ayaza,
Mayor olmuş atana
Xalqım əhsən deyəcək.

Bizim də qismətimiz
Halalıqdan yoğruldu.
Həyatda qazancımız
Halal zəhmət, uğurdu.

Ulu tanrıya şükür,
Arzularım çin oldu.
Arzu-Ayaz balam da
Xalqa layiq oğuldu.

Tanrı səni qorusun.
Qürbətdə uzaqdasan.
Məktubumu oxuyub,
Mənə cavab yazarsan.

## OĞLUM AYAZA

*C.Naxçıvanski adına hərbi liseydə*
*təhsil aldığı 2005-ci ildə*

Gözlə gələcəyəm deyirsən mənə,
Gözlərim yollarda qalıb, ay oğul.
Qərib gecələrdə tənhalıq özü,
Başımın üstünü alıb, ay oğul.

Evin son beşiyi şirin olursa,
Şəkərdən-şərbətdən şirinsən oğlum.
Arzu ilk nübarım, başımın tacı,
Təsəlli sözləri dərdim əlacı.
Xidmətdə irəli, dərsdə irəli,
Oxşa qardaşına, oxşa ay oğul.

Tanrıdan savayı kimimiz var ki,
Tanrının qoynuna sığınmışıq biz.
Torpağa, bayrağa olan sevgiylə,
Vətən keşiyində dayanmışıq biz.

Əsrlər ötəcək, illər keçəcək,
Bizi yaşadacaq tarixin özü,
Açıb varaq-varaq öz səhifəsini,
Bizdən danışacaq arxivin özü.

Vətən keşiyində müqəddəs borcun,
Xoşbəxt edəcəkdir səni həyatda.
Yeni yaranacaq elmi əsərlər,
Axtarıb tapacaq kölgəni hətta.

Elmin işığından nur al ay oğul,
Odlar diyarına gərəklisən sən.
Zirehli mundirdə pilot kimi sən,
Azəri yurduna gərəklisən sən.

Arxayın demirəm, özünə güvən,
Doğru ol, düzgün ol, sözünə güvən,
Qartal baxışlısan gözünə güvən,
Özünə, sözünə qurbanam oğul.

Hərbin sirlərini öyrənmək üçün,
Savadlı-bilikli olmalısan sən.
Fəth edib göyləri, açıq səmanı,
Tarix yaddaşında qalmalısan sən.

Şərəfli yol olub hərb sənətimiz,
Vətən sevgisidir, zər-ziynətimiz,
Hər kəsə örnəkdir saf niyyətimiz,
Hər zaman beləcə olun, ay oğul.

Adın Ayaz olsa da,
Özün soyuq olmadın.
Hərb sənətin seçəndə,
Heç yolundan qalmadın.

Amalın Vətən eşqi,
Vətən andın-amalın.
Müdriklərə bənzəyir,
Sənin ağlın-kamalın.

Nə yaxşı ki, vaxtında,
Elmin yolunu seçdin.
Uşaqlıq illərindən,
Eniş-yoxuşlar keçdin.

Kimsə səni anlamaz,
Mən anlaram, ay oğul,
Sözümə baxmayanda
Səni danlaram oğul.

Atan Vətən yolunda,
Canını qurban verdi.
Ana Vətən uğrunda,
Hər an öndə gedirdi.

Vətən sevənlər yalnız,
Hərb sənətin seçərlər.
Bayraq, millət sevənlər,
Vətən andı içərlər.

Andın şərəfli anddır,
Andına sadiq ol sən.
Vətənin xidmətində,
Vətənə layiq ol sən.

## BİR GECƏ LAYLA ÇALIRDI

Bir gecə layla çalırdı
Körpə şirin balasına.
Şirin yuxu diləyirdi
Ana ciyər parasına.

Körpənin nazı ilə
Ana hey oynayırdı.
Yorulmaq nədir, görən?
Ana heç bilməyirdi.

Xoş həniri, qığıltısı
Ananın ilk sevinciydi.
Var-dövlətdən qiymətliydi,
Körpəsi ona inciydi.

O, beşikdə uyuyurdu,
Ana layla oxuyurdu.
Şirin bal tək balasına
Xoşca günlər diləyirdi.

Ana beşik başında
Elə bil keşik çəkir.
Yorulub, yata bilmir
Gözləri yolmu çəkir?

Birdən körpə oyanıb,
Su istərkən anadan.
Mərmi yağışlarından
Ev böləndü ortadan.

Qəfil çaxan ildırım
Çaxdı elə vaxtda ki,
Ana aralanmışdı
Körpəsindən bir addım.

Toz-dumana büründü,
İsti-təmiz otaqlar.
Hardadır niyə gəlmir?
Axı, qonum-qonşular.

Qəfil yağan mərmilər
Qonşu evi-eşiyi,
Dədə baba yurdunu,
Kül tək göyə sovurmuş.

Qaçan kim, yıxılan kim,
Hay çəkib, qışqıran kim,
Fələk yaman qarğayıb,
Ölüsün axtaran kim.

Hay düşüb köçür ellər
Köç düşüb, köçür ellər.
Evdən çölə-bayıra
Tökülübdür, cehizlər.

Əli tutan tutmayan
Yerdə qalıb, qaçmayan.

Kafir güllələrinə
Tuş gəlibdir, ay aman!

Qaynar su qazanında
Körpələr, yanıb –bişib.
Neçə-neçə insanlar
Ölüb ya itkin düşüb.

Az qala dəli olub
Ana özünü itirib.
Balasını götürüb
İstədi layla çalsın,
İstədi nəsə etsin,
Körpəsini şən görsün.
Lakin nəfəs gəlmirdi,
Körpə daha gülmürdü.
Demə qəfil güllələr,
Körpəni öldürmüşdü.

Ağı deyir ağlayır,
Ana kömək istəyir.
Ana imdad diləyir
Fələk onu görməyir.

Ana üçün bu dağdı
Başına daşmı yağdı?
Layla çaldığı yerdə
Fələk balasın aldı.

Sənə dəyən güllələr
Kaş ki, mənə dəyəydi.

Səni aparan əcəl
Kaş məni aparaydı.

Yaş əvəzi gözündən
Leysan yağış yağırdı.
Anadan ötrü bu dərd,
Ağır daşdan ağırdı.

Ana əli qoynunda
Elə hey ağlayırdı.
Bu dərdi öz boynunda
Tək özü daşıyırdı.

Nə söz, nə də təsəlli
Gəlməyirdi karına.
Dəyən bu qəfil zərbə
Kaş gələydi varına.

Heç bir ana görməsin,
Dünyada övlad dağı.
Dillərinə gəlməsin,
Nə bayatı, nə ağı.

Durun, millət ayağa
Gedək qisas almağa.
Üçrəngli bayrağımızı
Xankəndində sancmağa.

İntiqam qisas deyib
İrəliyə gedək biz.
Yurdlara sahib olaq.
Məhv olsun düşmənimiz.

# PYESLƏR

# ALİ BAŞ KOMANDANIM

(2 pərdəli 6 şəkilli sənədli pyes)

**I hissə**

**İŞTİRAK EDƏNLƏR:**

**1. Ali Baş Komandan**
**2. Müdafiə Naziri**
**3. Məktəb rəisi**
**4. Zabitlər**
**5. Kursantlar**
**6.Məzun leytenantlar; (piyada, təyyarəçi, dənizçi)**
**7. Abdulla Qurbani**
**8. Orkestr rəisi**
**9. Abituriyentlər**
**10. Döyüşçü qız**
**11. Ağsaqqal kişi**
**12. Şəhid qadını**
**13. Aparıcı**
**14 .Valideynlər, qonaqlar**

## I PƏRDƏ

I şəkil

**Aparıcı:** ***1993-cü il, Azərbaycan xalqının ən çətin günləri. Orduda özbaşınalıq halları, pərakəndəlik... Heydər Əliyevin hakimiyyətə gəlməsini təkidlə tələb edən xalqın istəyilə H.Əliyev hakimiyyətə gəlmişdir. Onun qarşısında ən böyük məqsəd ordu quruculuğu, millətin taleyi, düşmənə qarşı sərt müqavimət göstərə biləcək hərbi qüvvəni yetişdirən Ali Hərbi məktəbləri yaratmaqdır:***

***İsti yay günü. Ali hərbi məktəbin buraxılış məntəqəsinin önündə «Qəbul Komissiyasına» sənəd verənlər toplaşıb.***

**Gənc oğlan:** ***(Qəbul komissiyasına yaxınlaşaraq)*** **–** Salam. Xahiş edirəm mənim sənədlərimə baxasınız. Görüm ki, sənədlərim qaydasındadırmı?

**Sənədi qəbul edən zabit: -** ***(Sənədə baxır)*.** Sənədlərinin əksəriyyəti qaydasında olsa da, valideynlərinin notariusdan təsdiq olunmuş ərizələri də olmalıdır.

**Gənc oğlan: -** Mənim validyenlərim yoxdur. Qarabağ uğrunda gedən döyüşlərdə həlak olublar.

**Zabit: -** Deməli sən şəhid ailəsisən.

**Gənc oğlan: -** Bəli.

**Zabit: -** Onda valideynlərinin «Ölüm haqqında şəhadətnamə»lərini və şəhid ailəsi olmağınız barədə arayış da gətirmək çox vacibdir.

**Gənc oğlan: -** Müəlliməmə deyərəm mənə köməklik göstərər.

**Zabit: -** Hansı müəlliməni deyirsən?

**Gənc oğlan: -** Yaşadığım və təhsil aldığım internat məktəbin direktoru Zöhrə müəlliməni deyirəm.

**Zabit: -** Zöhrə müəlliməni mən də tanıyıram. Çox yaxşı insan olmaqla bərabər, gözəl də pedaqoqdur.

**Gənc oğlan: -** Elə Zöhrə müəllimənin özü mənim bu məktəbdə təhsil almağımı tövsiyyə etdi. Həmişə bizə danışardı ki, Heydər Əliyev kimsəsiz uşaqlara hər zaman dayaq olub. Hərbi məktəblərdə təhsil alanların əksəriyyəti də sadə adamların övladlarıdır. Əsl kişilik məktəbi olan hərbi məktəbdə təhsil almaq da mənim ən böyük arzumdur.

**Zabit: -** Hərbi məktəbdə təhsil alarkən yaxşı oxumaq və nizam-intizamlı olmaq ən vacib şərtdir.

**Gənc oğlan: -** Allah qoysa qəbul olandan sonra bu vacib şərtlərə əməl edəcəyimə və Heydər Əliyev ideyalarına sadiq qalacağıma söz verirəm.

***(Sənədlərini əlinə götürür)***

***Elə bu anda ağbirçək bir qadın üzünü zabitə tutaraq:***

**Ağbirçək qadın: -** Salam, ay oğul. Hərbi məktəbə qəbul üçün nəvəmin sənədlərini gətirmişəm. ***(Əli ilə nəvəsini göstərərək qovluğu zabitə tərəf uzadır)*** Ay oğul, başına dönüm, imtahanlar nə vaxt başlayacaq?

**Zabit: -** Ay nənə, hələ qoy bir baxım görüm nəvənin sənədlərini düzmü toplayıbsan?

**Ağbirçək qadın: -** Bala, başına dönüm, hamısı qaydasındadır.

**Zabit: -** ***(Sənədləri gözdən keçirə-keçirə)*** Sənədlər qaydasında olmağına qaydasındadır. Ancaq mənə çox maraqlıdır, bu yaşda qadın belə dəqiq sənədlər toplamağı haradan bilir?

**Ağbirçək qadın:** - Bala, başına dönüm, bax bu nəvəmin babası da, atası da hərbiçi olubdur. Atası şəhid olub. Ona görə mən də nəvəmə məsləhət gördüm ki, atasının peşəsini davam etdirsin. Bəlkə mən də bir az təsəlli taparam ki, oğlumun balası da hərbiçi oldu. Allah-təala Heydər Əliyevi dünya durduqca var eləsin. Vaxtilə hərbi məktəblərdə təhsil almaq üçün azərbaycanlılar çox əziyyət çəkirdilər. Rusiyanın şəhərlərinə gedirdilər. İndi öz vətənimizdə, öz dilimizdə təhsil alırlar.

***(Zabit sənədləri qəbul edir, qadın təşəkkür edib gedir)***.

***Təyyarəçilik məktəbinə sənəd verən***

**Gənc oğlan: -** Mən sənədlərimi təyyarəçilik məktəbi üçün hazırlamışam.

**Zabit: -** ***(Sənədlərə baxaraq)*** **–** Təyyarəçi olmaq istəyirsiniz?

**Gənc oğlan: -** Bəli.

**Zabit: -** Bu peşəni sevirsinizmi?

**Gənc oğlan: -** Azərbaycanın ilk təyyarəçisi Qayıbovun nəslindənəm. Mənim əmim də təyyarəçidir.

Biz hər zaman məktəbdə müəllimlərimizlə birlikdə Qayıbovun xatirəsinə ucaldılmış «Təyyarə abidəsini» ziyarət edirik. Onun haqqında oxuduğum kitablar, onun tərcümeyi-halı, onun peşəsi məndə təyyarəçi olmaq arzusunu yaradıb.

**Zabit: -** ***(Oğlana sual verir)*** **–** Azərbaycanda təyyarəçilik məktəbi neçənci ildə yaranıb?

**Gənc oğlan: -** 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə yaranıb.

**Zabit: -** Sənədləriniz qaydasındadır. Hərbi həkim komissiyasından sonra imtahanlara buraxılacaqsınız.

***(Zabit Sənədləri oğlandan alıb digər sənədlərin üstünə qoyur. Oğlan gedir)***

***Dənizçilik məktəbinə sənəd verən***

**Gənc oğlan: -** Dənizçilik məktəbinə qəbul olmaq üçün sənədlərimi vermək istəyirəm.

**Zabit: -** Buyurun.

***(Gənc oğlan sənədləri ona tərəf uzadır)***

**Zabit: - *(sənədləri varaqlayaraq)* –** Siz üzgüçülüklə məşğul olmusunuz?

**Gənc oğlan: -** Bəli, yarışlarda da iştirak etmişəm. Fəxri fərmanlar da sənədlərimin arasındadır.

**Zabit: - *(Sənədlərə baxır)* –** Əhsən sənə, həmişə də birinci yerin qalibi olmusan. Sənədlərin qaydasındadır. Hərbi həkim komissiyasından çıxandan sonra imtahana buraxılış vərəqəsini də gəlib götürərsən.

***(Zabit ayağa qalxaraq bütün sənəd verənləri maraqlandıran suallara cavab verir).***

**Ağsaqqal kişi: -** Oğul, burada neçə il təhsil alırlar?

**Zabit: -** Dörd il. Ondan sonra Təlim-Tədris Mərkəzində bir il təhsillərini davam etdirəcəklər. Sonda isə hərbi hissələrdə zabit kimi xidmət edəcəklər.

**Ağsaqqal kişi: -** Allah hökumətimizə kömək olsun. Heydər Əliyev kimi Ali Baş Komandanı olan orduda nə gözəl qayda-qanun var. İndiki gənclər xoşbəxtdirlər ki, dövlət başçısı onlara belə gözəl şərait yaradıb.

**PƏRDƏ**

**II ŞƏKİL**

***Andiçmə mərasimi. Meydançaya gənc kursantlar daxil olurlar. Zabitlər və valideynlər tribunada əyləşiblər. Mərasim başlayır.***

***Qərargah rəisinin məruzəsindən sonra məktəb rəisi çıxış edir:***

- Salam. Gənc kursantlar! Bu gün sizin həyatınızda ən yaddaqalan gün – andiçmə mərasimidir. Bu münasibətlə sizi və sizin valideynlərinizi ürəkdən təbrik edirəm. Bu şərəfli yolda biz Heydər Əliyev ideyalarının davamçıları kimi heç bir çətinlikdən qorxmadan müstəqil dövlətimizin işıqlı gələcəyi naminə Vətən torpaqlarının müqəddəsliyini duyaraq vətənə canla, başla, vicdanla xidmət etməli, Ali Baş Komandanımıza layiqli xidmətimizlə dayaq olmalıyıq. Vətən borcu, vətən sevgisi hər kəsin çiyinləri üzərində və gözlərinin nurunda olmalıdır. Bu gün silahlı qüvvələrin tərkibində xidmət edən oğullarımız vətənpərvər gənclərdir. Xalqını, millətini sevən vətən oğullarıdır. Bu təntənəli gün münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

**Zabit: - *(gur səslə)*:** **-** Diqqət mərkəzə. Farağat!

- Silah çiyinə!
- Salamlama vəziyyəti al!

Kursantlar hərbi andı qəbul edirlər.

**Hərbi andı qəbul edən kursant: -** Mən Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olarkən vətənim Azərbaycana və onun xalqına sadiq olacağıma and içirəm. Təntənəli surətdə and içirəm. Azərbaycan Respublikasının mənafe-

yini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımı, canımı əsirgəməyəcəyəm. Səmimi, cəsur, intizamlı olacaq, hərbi sirri verməyəcək, komandirlərin, rəislərin əmrlərinə sözsüz tabe olacağam. Hərb işini vicdanla öyrənəcək, əcdadlarmızın hərbi ənənələrini şərəflə davam və inkişaf etdirəcək, hər an əldə silah vətənin müdafiəsinə qalxmağa hazır olacağam.

Andımı pozsam, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazıram.

***Hərbi orkestr musiqisi çalınır.***

***Şəhidlərin ruhu yad edilir. Dövlət himni oxunur. Sonra isə məktəb marşı oxunur.***

**Komandir əmr edir: -** Məktəb marşını oxumağa başla!

***(Zabit, kursant şəxsi heyəti oxumağa başlayır)***

Birləşin Azəri-türk övladları,
Düşmənin ürəyi, həm qəlbi yansın.
Bütün yer üzündə sülhün sədası,
Azadlıq, ədalət qoy zəfər çalsın.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

Hərbin sirlərini öyrədəcəksən,
Parlayan, sönməyən bir gələcəksən.
Hər zaman dillərdə sən gəzəcəksən,

Elimi-obamı bəzəyəcəksən,
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

Vətən harayına neçə oğullar,
İgid, mərd zabitlər yetirdin özün
Xoş müjdə, qələbə, sülh sorağını,
Zəfər bayrağını gətir sən özün!
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

Müqəddəs şəhidlər ölməz ruhunu,
Tarix yaddaşında yaşadacaqsan.
Üç rəngli bayrağı mavi səmada
Ən yüksək zirvəyə ucaldacaqsan,
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına hərbi məktəbi.

**Valideyn – Ana: -** Əziz vətən oğulları! Mən bu gün özümü çox xoşbəxt sanıram. Ona görə ki, mənim övladım da sizin aranızdadır. Bu müqəddəs gündə sizi təbrik edirəm. Allahdan arzu edirəm ki, gələcəkdə şərəfli zabit adına layiq olasınız. Bütün analar adından sizi ürəkdən alqışlayıram.

**Valideyn – Ata: -** Əziz kursant balalarım! Sizi şərəfli peşə seçməyiniz münasibətilə, kursant adına layiq olmağınız münasibətilə təbrik edirəm. Mənim özüm Qarabağ müharibəsi veteranıyam. Vətən torpaqlarının azadlığı uğrunda

hamımız bir bayraq altında birləşməliyik. Bizim birliyimz, vətənsevərliyimiz mənfur düşmənləri məhv edəcək. O gün isə uzaqda deyil. Sizə şərəfli zabit adına layiq olmağınızı və şanlı qələbə müjdəsini, zəfər sorağını xalqımıza yetirməyinizi ulu Tanrıdan diləyirəm. Yolunuz açıq olsun! Tanrı sizi qorusun.

**Kursant: -** Salam hörmətli zabitlər və silahdaşlarım. Bu təntənəli gün, andiçmə mərasimi münasibətilə komandirlərə, valideynlərə öz kursant yoldaşlarım adından hamımıza və hamınıza gözünüz aydın olsun deyirəm. Mənim atam vətən torpaqlanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Atamın şərəfli yolunu davam etdirmək mənim ən müqəddəs arzum olub. Bu gün mən arzuma çatmışam. Mən bununla qürur duyuram. Söz verirəm ki, təhsil aldığım hərbi məktəbdə birincilər sırasında olacağam. Vətən üçün şərəfli zabit olacağıma, komandirlərimin əmrinə həmişə tabe olacağıma bir daha söz verirəm. Ali Baş Komandanımızın qurub-yaratdığı hərbi məktəbin kursantı adına layiq görülməyimlə fəxr edirəm.

***(Təntənəli keçid)***

III ŞƏKİL

***Ali Hərbi məktəbin həyəti.***

***Tez-tez hərbi məktəblərə gələn zabit, kursant şəxsi heyətilə yaxından maraqlanan H.Əliyevin gəlişindən qürurlanan zabit və kursantlar bir yerə toplaşıblar.***

**I Kursant:**

Səni soraqlayırdı,
İllər boyu gözümüz.
Gəlişinlə təzədən,
Güldü bizim üzümüz.
Əzəmətin, vüqarın
Fəxrim, iftixarımdır,
Hər mübarək addımın
Əbədi baharımdır.
Andım, şərəfim, şanım,
Ali Baş Komandanım.

**II Kursant:**

Durdun düşmən önündə,
Yenilməyən dağ kimi.
Barlısan, bəhərlisən,
Anamız torpaq kimi.
Ümman kimi güclüsən,
Ərşi titrədən səsin.
İsidir qəlbimizi,
Hərarətli nəfəsin.
Yaşa ürəyim, canım,
Ali Baş Komandanım.

**III Kursant:**

Yollarına göz dikən,
Ellər səni oxşayır.
Adını əzizləyən,
Dillər səni oxşayır.
Səni bizə bəxş edib,
Bir xoş müjdə Allahım,

Gəlişinlə təzədən.
Çiçək açdı sabahım.
Sülh soraqlı ünvanım,
Ali Baş Komandanım.

**IV Kursant:**

Torpağı naxışlayan,
Qədəmlərin var olsun.
Ulu Tanrım həmişə,
Sənə arxa, yar olsun.
Müstəqil Vətənimdə,
Rəmzim, simvolum mənim.
Sərkərdəm, xilaskarım,
Azadlıq yolum mənim.
Varlığına güvənir,
Anam Azərbaycanım.
Mənim dünya şöhrətli,
Ali Baş Komandanım.

**Aparıcı:** ***H.Əliyev əzəmətinin işığına sığınanlardan biri də şəhid ailələri oldu. Səhnənin bir tərəfində şəhid ailələri toplaşıb. Məşəqqətli günlərdən canını qurtaran insanlar bir ağızdan:***

Şölə saçan bir ocaqdır,
Sevgisi saçaq-saçaqdır,
Arxa, dayaq olacaqdır,
Hər ərənə, mərdə Heydər,
Dahi, müdrik, Ulu Öndər.

**Şəhid qadını:**

Ah-nalə çıxanda göyə,
Qayıtdı – burdayam deyə.
Son qoydu qəmə-qüssəyə,
Məlhəmdir hər dərdə Heydər,
Dahi, müdrik, Ulu Öndər.

**Ağsaqqal kişi:**

Tükənməyən həvəsi var,
Dilində haqq kəlməsi var,
Hər könüldə müjdəsi var,
Qayıdıbdır yurda Heydər,
Dahi, müdrik, Ulu Öndər.

**Hərbi geyimli zabit:**

Hoydu, düzlən mənim ordum,
Deyin düşmən bağrı yardım,
Dilə gələr ana yurdum,
Göydə Allah, yerdə Heydər,
Dahi, müdrik, Ulu Öndər!

**Heydər Əliyev:** - Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib, indi bəlkə də, bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm:

***(İnsanlar onu dövrəyə alaraq:)***

- Var ol, ay Heydər Ata.**- *(2-3 dəfə)***

**Bir qadın (irəli gələrək):**

Yadlara baş əyməyən,
Şah vüqarlı dağımsan,
Mənim bahar nəfəsli,
Varlığım, torpağımsan.
Dünyamızı dolaşan,
Üçrəngli bayrağımsan.
Hamı heyran qalıbdı,
Yurdumdakı büsata,
Alqış əzəmətinə.
Sağ ol, ay Heydər Ata!
Var ol, ay Heydər Ata!

**Zabit:**

Yenilməz ordumuzun,
Baş sərkərdəsi sənsən.
Vətənimin əbədi,
Ünvanı, səsi sənsən.
Gəlişinlə gör necə,
Nur vermisən həyata.
Arzuda, diləkdəsən.
Sağ ol, ay Heydər Ata!
Var ol, ay Heydər ata!

**Kursant:**

Bir uzaq səfərdəsən,
Yolun haqqın yoludur.
Sənin əzəmətindən,
Dünyamız da halidir.
Mübarək ismin, adın,
Vətənin simvoludur.

Üzümüzü tutmuşuq,
Biz bu müqəddəs ada,
Var ol, ellər atası,
Var ol, ay Heydər Ata!

**Heydər Əliyev:**

- Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Hər bir dövlətin qüdrətini ordu və xalqın vəhdəti, birliyi təşkil edir. Ordunun yaradılması torpaqlarımızın müdafiəsinin və Azərbaycanın ərazi bütövlüyünün əsas şərtlərindən biridir. Bütün bunlarda mən sizlərə güvənirəm, sizlərə arxalanıram.

***(Hamı onu alqışlayır)***

**Pərdə.**

## II P Ə R D Ə

### I ŞƏKİL

***2001-ci il Ali Hərbi Məktəbin ilk büraxılış mərasimi. Ali Baş Komandan H.Əliyev və Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hüseyn Kıvrıkoğlu və digər qonaqlar mərasimdə iştirak edirlər.***

**Müdafiə naziri:** Möhtərəm Prezident! Cənab Ali Baş Komandan! Hərbi tədris müəssisələrinin şəxsi heyəti buraxılış mərasimi münasibətilə düzülmüşdür.

Diqqət mərkəzə – ***(gur səslə əmr edilir).***

**Məktəb rəisi:**

Cənab Ali Baş Komandan! AAHM- şəxsi heyəti Sizin gəlişiniz münasibətilə düzülmüşdür.

**Ali Baş Komandan:** Salam gənc zabitlər!

**Şəxsi heyət:** Salam! Cənab Ali Baş Komandan.

Diqqət məkrəzə ***(gur səslə:)***

Silah çiyinə ***komandası verilir – gur səslə)***

Azad ***(Komandası)***

**Müdafiə naziri – general-polkovnik Səfər Əbiyev: –** Möhtərəm prezident! Cənab Ali Baş Komandan!

Hörmətli generallar və zabitlər! Məzunlar və kursantlar! Əziz valideynlər, müharibə vete-

ranları, qonaqlar, xanımlar və cənablar!

Sizi Azərbaycan Ali Hərbi Məktəbinin müasir standartlara uyğun yeni proqramla hazırlanmış məzunların ilk buraxılışı ilə bağlı təntənəli mərasimdə salamlayır, hamınıza can sağlığı, xoşbəxtlik arzulayıram.

Bu gün Azərbaycan xalqının, dövlətinin və Silahlı Qüvvələrinin həyatında əlamətdar və tarixi bir hadisə baş verir. AAHM-nin yeni proqramla ilk buraxılışı onunla əlamətdardır ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı möhtərəm Heydər Əliyev bu mərasimdə iştirak edir. Biz minnətdarlıq hissi ilə qeyd edirik ki, bu məktəbin formalaşmasında, müasir səviyyəyə çatmasında cənab H.Əliyevin böyük xidməti və zəhməti vardır. İyunun 20-də Azərbaycan Ali Hərbi Məktəbləri adları haqqında Prezidentimiz tərəfindən fərmanın imzalanması da onun hərbi məktəblərə olan qayğılarının və diqqətinin ifadəsidir.

Biz inanırıq ki, Ali Baş Komandanımızın bu mərasimdə iştirakı hərbi xidmətə yeni vəsiqə alan gənc zabitlərimizin xatirindən heç vaxt silinməyəcəkdir.

Silahlı Qüvvələrimizin şəxsi heyəti mənfur düşmənlər tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməyə, Ali Baş Komandanımızın qərarını hər an yerinə yetirməyə hazırdır.

Möhtərəm preziden! Ali Baş Komandan!

Hörmətli qonaqlar! Bu bayram günündə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və torpaqlarımızın işğaldan azad olunması naminə işinizdə uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:**

Azərbaycan dövlətinin dəvətilə Azərbaycana gəlmiş, Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı hörmətli cənab general, Hüseyn Kıvrıkoğlu, hörmətli generallar və zabitlər, dostlar, müəllim-professor heyəti, AAHM-nin ilk məzunları və bütün kursantlar!

Bu gün Azərbaycanın ordu quruculuğunda yeni bir tarixi mərhələ başlayır. Azərbaycanda AAHM-nin inkişaf edərək və təkmilləşərək nəhayət özünün ilk məzunlarını buraxır. Azərbaycanın müstəqilliyi, dövlətçiliyi naminə görülən ən vacib işlərdən biri də ordu quruculuğudur. Ordu quruculuğu asan iş deyil. Azərbaycan müstəqil dövlət kimi öz hakimiyyət orqanlarını yaradıb və dövlətimizin möhkəmləndirilməsini təmin edibdir. Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir zabit vətənpərvər olmalı, Vətənini sevməli, yüksək mənəviyyatlı olmalıdır.

***(üzünü gənc leytenantlara tutaraq:)***

Siz də Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə xidmət edərək, müstəqil Azər-

baycan torpağının keşiyində duraraq, xalqımızı sevərək, vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur və qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız.

Mən fəxr edirəm ki, C.Naxçıvanski adına liseyin məzunları bu gün Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin,

Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunlarıdır.

Yaşasın qəhrəman Azərbaycan əsgəri! Yaşasın qəhrəman Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu!

**Gənc leytenant:*(piyada məzun)***

Adını əzizləyir,
Hər yerdə elim, obam,
Qeyrət simvolumuzsan.
Mənim yenilməz babam,
Dünyamızı dolaşan.
Şərəfimsən, şanımsan,
Sorağı dildə gəzən,
Azadlıq dastanımsan,
Tükənməz bəhrəm, barım,
Öndərim, xilaskarım.

**II leytenant: *(Dənizçi məzun)***

Səni bizə bəxş edən,
Ana yurdum var olsun,
Mislin, bərabərin yox,

Tanrım sənə yar olsun.
Əzəmətin yenilməz,
Vüqarlısan dağ kimi.
Gör necə də doğmasan,
Anamız torpaq kimi,
Gücüm, taqətim, varım,
Öndərim, xilaskarım.

**Heydər Əliyev:**- Xəzər canlı bir orqanizmdir. Burada həyat sakitdir. Xəzər əsrlər boyu yaşamış və yaşayacaqdır. Xəzəri sevən insan kimi mən onun yaşamasını, onun təmiz olmasını və onun təbiətinin qorunub saxlanmasını istəyirəm. Mən Xəzəri sevirəm.

***Dənizçilik məktəbinin marşı səslənir:***

Ana Vətənim üçün,
Pak vicdanlı oğullar.
Qəhrəmanlar yetirir,
Hərbi Dəniz Məktəbi.

Anam Azərbaycanın,
Mətin bir əsgəri tək,
Keşiyində dayanıb,
Hərbi Dəniz məktəbi.

Tarixlər yaddaşında,
Silinməz izlər qoyur.
Günəşdən ilham alır,
Hərbi Dəniz məktəbi.

Xəzərin sahilində,
Yurd salıb, yuva salıb,
Ulduz kimi parlayır,
Hərbi Dəniz məktəbi.

**Təhsildə fərqlənən məzun yaş kötüyünə ulduz vurur.**

**Heydər Əliyev:** - Ordu peşəkar zabitlər, komandirlər tərəfindən idarə olunmalıdır.

**III leytenant:** ***(Təyyarəçi məzun)***

Düşməni diz çökdürən,
Yenilməz qüdrətin var.
Yolumuza nur saçan,
Ülvi məhəbbətin var.
Bizə arxa, dayaqdı,
Bircə kəlmə sözün də.
Xalqımın varlığını,
Tanıtdın yer üzündə.
Sən ey andım, amalım,
Ey əbədi baharım.
Tarixin möcüzəsi,
Öndərim, xilaskarım!

**Aparıcı:** ***Məzunlar içindən I, II, III yeri tutan leytenantlara diplomların Ali Baş Komandan tərəfindən təqdim olunması üçün hüzurlarınıza qəbulu xahiş olunur.***

**Gənc leytenant:** ***(piyada)***- Cənab Ali Baş Komandan! Leytenant Məmmədov diplom almaq üçün gəlmişdir.

**H.Əliyev:** - ***(Diplomu təqdim edir)-***Təbrik edirəm, xidmətində uğurlar arzulayıram.

**Gənc leytenant:** ***(gur səslə)*** Sağ ol! Azərbaycan Respublikasına xidmət edirəm.

**Gənc leytenant –** ***(dənizçi)*****:** Cənab Ali Baş Komandan! Leytenant Babayev diplom almaq üçün gəlmişdir.

**Heydər Əliyev:** - ***(Diplomu təqdim edir)-*** Təbrik edirəm, xidmətində uğurlar arzulayıram.

**Gənc leytenant** ***(dənizçi)*****:** Sağ ol! Azərbaycan Respublikasına xidmət edirəm.

**Gənc leytenant** ***(təyyarəçi)*****:** - Cənab Ali Baş Komandan! Leytenant Səfərov diplom almaq üçün gəlmişdir.

**Heydər Əliyev -** ***(diplomu təqdim edir)*****:** Təbrik edirəm. Xidmətində uğurlar arzulayıram.

**Gənc leytenant** ***(təyyarəçi)*****:** - Sağ ol! Azərbaycan Respublikasına xidmət edirəm.

**Heydər Əliyev:** - Biz bu qısa müddətdə azərbaycanlılardan, Azərbaycan gənclərindən ibarət təyyarəçiləri, hərbi təyyarələri, döyüş təyyarələrini idarə edə bilən, yaxud hava qüvvələrilə ölkəmizin müdafiəsini təmin edə bilən mütəxəssislər hazırlaya bilmişiksə, bu böyük nailiyyətdir.

***Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin Məktəb marşı səslənir.***

Çəkilsin göylərdən qara buludlar,
Günəş şəfəq saçsın yollarımıza
Öyünür xalqımız sənin adınla,
Sirli bir dünyasan, adın gözəldi.
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik məktəbi.

Məramın sülh olsun, səadət olsun,
Düşmən yanar olsun, Tanrım qorusun!
Uzaq keçmişlərdən gəlir sorağı,
Şahinlər yuvası, qeyrət ocağı,
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik məktəbi.

Azəri yurdunun türk övladının,
Müqəddəs beşiyi sən olacaqsan.
Tarixin əbədi yaddaşlarında,
Hər zaman, hər vaxtı yaşayacaqsan.
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik məktəbi.

**Aparıcı:** Ali Hərbi Məktəbin məzunlarının hamısı azərbaycanlılardır. Bunlar H.Əliyevin zəhməti, uzaqgörənliyi, müdrikliyi sayəsində həyata keçirildi, Vətən oğullarını ruhlandıran, cəsarətli hərbiçilər yetişdirən məktəblər – Heydər Əliyevin qurub-yaratdığı hərbi məktəblərdir.

**I şəkil davam edir.**

***Qonaqlar əyləşiblər.***

***Hərbi məktəbi başa vurub, şərəfli zabit adına yiyələnən leytenantlar oxuduqları müddət ərzində yüksəkliklərdə saxladıqları şanlı döyüş bayrağını özlərindən sonra gələn son kurs kursantlarına təhvil verərkən.***

**Leytenant:** - Kursantım! Babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağının müqəddəs keşik növbəsi sənindir.

- Rəngi əcdadlarımızın qanının rəngidir.
- Parçası şəhid dərisidir.
- Parıltısı zəfərlərin işığıdır.
- Ay-ulduzu hürriyyət və istiqlaldır.
- Yazısı qəhrəmanlıq və şücaətdir.
- Ağacı milli iradədir.
- Baftası şərəf və məsuliyyətdir.
- Bütün bunlar Azərbaycan xalqından sənə əmanətdir. Bu böyük əmanəti sənə təhvil verirəm. Dəmir biləyinlə onu bərk saxla. Qanının son damlasına qədər daim yüksəkliklərdə tut. Onu səndən sonra sağ qalanın əlinə təhvil verməyənə qədər son nəfəsini verməyəcəksən.

Bu şanlı bayraq nəsillər boyunca əbədi olacaq, göylərdə daim vüqarla dalğalanacaqdır. Müqəddəs bayrağı qorumaq, keşik xidmətlərinin ən şərəflisi, ən alisi, ən müqəddəsidir.

Bu şanlı bayrağı təhvil aldığım kimi vicdan-

la, namusla qoruduğumu göstərmək üçün onu öpür və təhvil verirəm. Keşiyin mübarək və uğurlu olsun. ***(bayrağı öpür və təhvil verir)***.

**Bayrağı qəbul edən kursant:**

- Leytenantım!

Namusuma and içirəm ki, bu müqəddəs keşikdə bir an da olsun gözümü ondan ayırmayacağam.

Babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağını canımdan əziz bilib onu daim yüksəkliklərdə tutacağam.

- Rənginin əvəzi qanım olsun.
- Parçasının əvəzi dərim olsun.
- Parıltısının əvəzi canım olsun.
- Ay-ulduzuna varlığım fəda olsun.
- Yazısını varlığımdan tər-təmiz saxlayacağam.
- Ağacını milli inamımla bərk tutacağam.
- Baftası inam dolu qanımda namus, dözümlü çiyinlərimdə ən şərəfli məsuliyyət olaraq qalacaqdır.
- Bu bayrağı məndən sonra sağ qalana təhvil vermədən ölmək mənə haram olsun.
- Keşiyini bir ibadət kimi tutacağam.
- İçdiyim bu anda sadiq qalacağımı sübut etmək və ehtiramımı göstərmək üçün bayrağımı öpür və təhvil alıram. ***(Bayrağı öpür, təhvil alır və addımlayır).***

**Abdulla Qurbani: -** ***(«Türk Ulduzları» eskadrilyası Ali Hərbi Məktəbin buraxılış mərasimi münasibətilə hərbi məktəbin üzərindən uçarkən tribunadan):***

**-**Şanlı Türk Ordusunun «Türk ulduzları» eskadriliyası möhtəşəm uçuşları ilə Ali Hərbi Məktəbin ilk buraxılışı münasibətilə səmalarımızda Azərbaycan-Türkiyə qardaşlığını öz uçuşları ilə bir daha göstərəcəklər. Heydər Əliyevin dahi kəlamı ilə desək: - «Biz bir millət, iki dövlətik». Hər zaman bizim kədərimizə, sevincimizə şərik olan qardaş Türkiyə – bizim bu günkü sevincimizə də şərikdir. Bu Türkiyə – Azərbaycan qardaşlığının – dostluğunun əbədiliyindən xəbər verir. ***(Səmaya qalxan şahinləri – hamı ayağa durub alqışlayır – əl çalır. Hamı əyləşdiyi yerdən meydançaya toplaşıb səma şahinlərini seyr edir. Heydər Əliyevi adamlar dövrəyə alırlar.)***

**Heydər Əliyev: -** Bu gün bu mərasimi daha da gözəlləşdirən «Türk Ulduzları» eskadriliyasının Bakının səmasında qəhrəmancasına uçuşları oldu. Mən «Türk Ulduzları»nın Azərbaycana gəlməsi münasibətilə bütün xalqımızın adından, dövlətimizin adından minnətdarlığımı bildirirəm. Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətindən əlavə ən yüksək keyfiyyəti vətənə, millətə, torpağa daim sədaqət hissi ilə yanaşması və xidmət etməsidir. Bu, hər bir ölkənin

əsgərinin borcudur.

***Hamı əl çalır, H.Əliyevi alqışlayırlar.***

**-** Dünyada, dünya ölkələrində bu sahədə böyük nümunələr də var. Bu nümunələrdən biri də bizim üçün çox yaxın, əziz olanı türk əsgərlərinin, Türkiyə Silahlı Qüvvələrinin, Türkiyə Cümhuriyyəti yaranandan sonra türk ordusunun daim inkişaf etdirilməsidir. Siz də Azərbaycan xalqına xidmət edərək, müstəqil Azərbaycan torpağının keşiyində duraraq vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətiinliklərə hazır olmalısınız.

***Hamı ayağa duraraq əl çalır. «Türk Ulduzları» eskadriliyası səmada uçuşlarını bitirəndən sonra Heydər Əliyev əlini Abdulla Qurbaninin çiyninə qoyaraq:***

**-** Abdulla oğlum, sənin bugünkü çıxışın çox xoşuma gəldi. Aydın nitqin, gur səsin çox gözəldir. Sənin də Vətən uğrunda fədakarlıqların az deyil. Yazdığın cild-cild kitabların, özü bir tarixdir. Mən hər zaman yaradıcı insanların əməyini qiymətləndirirəm, o cümlədən də sənin.

**Abdulla Qurbani: -** Çox sağ olun,Ali Baş Komandanım! Biz Sizdən, Sizin əməllərinizdən ruhlanırıq.

**Heydər Əliyev: -** Mən səni uzun illərdən bəri tanıyıram. Sən hələ Naxçıvanda yaşayarkən yaratdığın muzeylərdən, keçirdiyin mə-

dəni-kütləvi tədbirlərdən də xəbərim var. Sənin gördüyün bu işlər özü vətənpərvərliyin ən bariz nümunələrindəndir. Sənin tez-tez hərbi hissələrdə əsgərlər qarşısında maraqlı çıxışlarını da bəyənirəm.

**Abdulla Qurbani: -** Mən peşəmi çox sevirəm. İstəyirəm ki, gənclərimizdə vətənpərvərlik ruhu daha yüksək olsun. Cənab Ali Baş Komandan, gənclər hər zaman Sizin həyat yolunuzdan bəhs edən kitabları məndən tələb edirlər. Mən də öz növbəmdə həmin kitablardan onlara çatdırmağı özümə borc bilirəm. Sizin həyatınız bizə bir örnəkdir: - tariximizə, milli-mənəvi dəyərlərimizə, dilimizə, bayrağımıza, himnimizə, gerbimizə olan sevginiz bizim üçün bir məktəbdir.

Cənab Ali Baş Komandan! Sizin yaratdığınız hərbi məktəblər olmasaydı, bu günkü ordumuz da olmazdı.

**Heydər Əliyev: -** Əlbəttə, əgər bu hərbi məktəblər olmasaydı, bizim ordumuzdakı o zabitlərin çoxu yəqin olmayacaqdı. Çünki bu zabitlərimizin çoxu həmin məktəblərin yetirməsidir. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir, onlar xidmət edirlər. Bu işləri biz vaxtında görmüşük.

**Abdulla Qurbani: -** Cənab Ali Baş Komandan, biz sizinlə fəxr edirik. Azərbaycanda milli hərbi kadrların yetişdirilməsi təşəbbüsünüzü xalqımız ürəkdən alqışlayır.

**Heydər Əliyev: -** Azərbaycan tarixən qəhrəmanlar yurdudur. Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir. Azərbaycan xalqı dərin mənəviyyata malik xalqdır, qəhrəman xalqdır.

**Abdulla Qurbani: -** Cənab Ali Baş Komandan! Siz yaradıcı insanları bu qədər dəyərləndirdiyiniz üçün sizə onların adından da təşəkkür edirəm.

**Heydər Əliyev: -** Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri istedada malik olan nadir adamlardır. Biz öz hərəkətlərimizlə, öz münasibətlərimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq. Bu gün bu mərasimdə yaxından iştirak edən MN-nin nümunəvi hərbi orkestrinin xidmətini də dəyərləndirirəm – ***(orkestr rəisi Yusif Axundzadəni göstərir)***. Uzun illərdir ki, hərbi orkestrə rəhbərlik edir, artıq polkovnik rütbəsinə qədər yüksəlib. Onu «Xalq artisti» adına, Prezident təqaüdünə layiq görmüşəm. Bu, ona layiqdir.

**Yusif Axundzadə: -** ***(H.Əliyevə yaxınla***şa***raq)***: Salam! Cənab Ali Baş Komandan! Mən də Sizə mənim əməyimi dəyərləndirdiyinizə görə təşəkkürümü bildirirəm…

**Ağsaqqal kişi: -** Cənab Ali Baş Komandan. Mən özümü xoşbəxt sanıram ki, bu təntənəli

mərasimdə Sizinlə görüşmək mənə nəsib oldu. Mənim oğlum Həsən də Sizin qurub-yaratdığınız Ali Hərbi Məktəbin məzunu olub. İndi o, ön cəbhədə zabit rütbəsində xidmət edir. Kiçik oğlum Ayaz da bu il məzun olur. Hər iki övladımın hərbçi peşəsinə yiyələndiyi üçün Sizə minnətdaram. Və elə hesab edirəm ki, Vətənimiz Azərbaycanda mənim kimi valideynlər çoxdur, bax elə o valideynlərin adından da deyə bilərəm ki, Sizin kimi Ali Baş Komandanla xalqımız fəxr edir.

**Gənc ana** ***(əlində bir dəstə çiçəklə irəli gəlir və):***

**-** Cənab Ali Baş Komandan! İcazə verin bu tər çiçəkləri Sizə bağışlayım. Bu gün ilk buraxılış mərasimindəməzunolanlardanbiridəmənimoğlumdur. Sevincimin həddi-hüdudu yoxdur. Sevinirəm ki, mənim oğlum da hərbi peşəyə yiyələndi. Bu mənim ən böyük arzum olub. Elə ona görə də Sizə minnətdaram – ***(deyərək gül d***əstəsini H.Əliyevə uzadır və onu öpür).

**Heydər Əliyev:**

- Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir! Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır. Bütöv və böyük Azərbaycan uğrunda azərbaycançılıq ideyaları yüksək səviyyəyə çatdırılmalıdır. Odlar diyarı – Azərbaycanımıza sevgi, Vətənə şərəfli

xidmət hər birimizin borcudur.

**Jurnalist: - Qənirə Paşayeva:**

- Cənab Ali Baş Komandan! Bu təntənəli gün münasibətilə Sizi təbrik edirəm və bu gün bir jurnalist kimi müşahidələrimdə gördüm ki, Siz gənc leytenantlarla qürur duyursunuz.

**Heydər Əliyev: -** Mənim həyatda ən böyük arzum o olub ki, Azərbaycan övladları öz doğma dillərində hərbi təhsil alsın. Ona görə də bu hərbi məktəblərin yaradılması üçün mən bir çox maneələrlə rastlaşdım. Ancaq bütün maneələri dəf etdim. İlk öncə 1971-cü ildə Bakıda C.Naxçıvanski adına hərbi liseyi yaratdım. Bu mənim üçün ən uğurlu işlərimdən biri oldu. Hal-hazırda C.Naxçıvanski adına hərbi liseyin məzunları bu gün Ali Hərbi məktəblərin məzunu olaraq, leytenant adına layiq görülürlər. Bununla bütövlükdə Azərbaycan xalqı fəxr etməlidir. Ordu xalqımızın tərkib hissəsidir.

**Jurnalist: Qənirə Paşayeva: -** Cənab Ali Baş Komandan, Sizin orduya olan qayğınızdan bəhrələnən hər bir Azərbaycan vətəndaşı hərbiçi olmaq arzusundadır.

**Heydər Əliyev: -** Hər bir peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir. Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir.

**Jurnalist:- Qənirə Paşayeva: -** Cənab Ali

Baş Komandan, ordunun möhkəmləndirilməsi yolunda Sizə uğurlar diləyirəm.

**Heydər Əliyev: -** Mən bu gün bütün vətəndaşlara bildirmək istəyirəm ki, ordunun möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün dövlət tərəfindən, Azərbaycan Prezidenti tərəfindən lazımi qayğı və diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir. Bir prezident kimi, Ali Baş Komandan kimi mən bunu özümün əsas vəzifəm hesab edirəm. Eyni zamanda bütün hakimiyyət orqanlarını orduya qayğı göstərməyə dəvət edirəm. Bir daha qeyd edirəm, ordu dövlətin, xalqın, millətin qayğısı ilə əhatə olunmalıdır. Qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.

**Jurnalist: Qənirə Paşayeva: -** Cənab Ali Baş Komandan, Sizin hər zaman çıxışlarınızda orduya olan doğma münasibətiniz, istəyiniz ön plandadır.

**Heydər Əliyev: -** Ordu bizim doğma ordumuzdur. Ordu xalqmızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır. Ona görə də heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik. Və hər bir azərbaycanlı gənc orduda xidmət etməkdən şərəf hissi duymalı, fəxr etməlidir ki, ona müstəqil dövlətimizi və torpaqlarımızın toxunulmazlığı-

nı qorumaq kimi ən şərəfli vəzifə etibar olunub. Bizim artıq vətənpərvər əsgərlərimiz, zabitlərimiz, gənclərimiz var.

**Döyüşçü qız: Məleykə Səma: -** Cənab Ali Baş Komandan, mən çox şadam ki, Sizinlə belə bir təntənəli mərasimdə görüşdüm.

**Heydər Əliyev: -** Məleykə, mən səni ön cəbhədə xidmət etdiyin dövrdən tanıyıram. Sənin fədakarlığın, döyüşkənliyin hər bir azərbaycanlı qızına örnək olmalıdır. Üç qardaşını Vətən yolunda şəhid verən cəngavər bir qızın əməyini, xidmətini layiqincə «Azərbaycan bayrağı» ordeni ilə təltif etməyim yəqin ki, sənin ürəyincə oldu.

**Məleykə: -** Bəli cənab Ali Baş Komandanım! Mənim əməyimi qiymətləndirməyinizdən mən çox ruhlandım. Əvvəllər mən gizir kimi xidmət edirdim. Artıq ali təhsil də aldım, ondan sonra da zabit rütbəsi daşıyıram. Gördüyünüz kimi mən artıq kapitanam.

**Heydər Əliyev: -** Fədakarlığın öz yerində, sağlamlığına da fikir ver.

**Məleykə: -** ***(Bir addım qabağa gəlib Heydər Əliyevi öpərək:)*** Mən həyatda 3 qardaşımı, atamı vatxsız itirsəm də, Siz mənə atalıq qayğısı göstərdiyinizə görə çox sağ olun.

***(Fotoqraf yaxınlaşıb, onların şəklini çəkir. Heydər Əliyev gənc leytenantlarla da xatirə şəkli çəkdirir).***

**Məktəb rəisi: -** Cənab Ali Baş Komandan! Hərbi tədris müəssisələrinin şəxsi heyətinin buraxılış mərasimi başa çatdı.

**(Mərasim başa çatır)**

## II ŞƏKİL

**Aparıcı:** ***12 dekabr 2003-cü il. Azərbaycan xalqının matəmli günü. Dünya şöhrətli Heydər Əliyevin ölüm xəbəri bütün Azərbaycan xalqını sarsıtmışdır.***

**Hərbçi qadın-**
Yad qərib ellərə gedəndən bəri,
Yolunu gözləyir el, Heydər baba.
Dünyaya yayılan qara xəbəri,
Danışa bilməyir dil, Heydər baba.
**Zabit -**
Yaradan bəxş edib, belə insanı,
Cahanı fəth edib, şöhrəti-şanı.
Xalqına bağlıdır həyatı, canı,
Dahisən tarixdə qal, Heydər baba.
**Kursant -**
Hünərinlə qurdun bu gənc dövləti,
Dünyaya çatdırdın haqq-ədaləti,
Nəsillər heç zaman unutmaz səni,
Azadlığa açdın yol, Heydər baba.

**Əsgər -**

Sənə necə qıydı amansız ölüm,
Ölümü deməyə gəlməyir dilim.
Dedim yalan olar öyrənim, bilim,
Gördüm ki, ağlayır el, Heydər Baba.

**Aparıcı:-** ***Barışa bilmədiyimiz amansız ölüm, xalqımızın güvənc yeri olan Heydər Əliyevi aramızdan apardı. Əbədiyaşar Ulu Öndərimizin adı ürəklərimizə əbədi həkk olundu.***

**III - ŞƏKİL**

***Səhnə dəyişir. Arxada H.Əliyev adına Ali Hərbi məktəbin binası görünür.***

**Aparıcı:-**

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşməsi haqqında Azərbaycan Respublikası Prezidentinin**

**F Ə R M A N I**

Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2004-cü il.

**APARICI: -**

Azəri yurdunun gələcəyinin,
Qurub-yaradanı Heydər Əliyev.
Şanlı məktəblərin, hərb ocağının
Parlayan günəşi Heydər Əliyev.
Əbədi məşəl tək yanan ocağın,
Azəri yurdunu nura bələyər.
Tanrı dərgahında adın müqəddəs,
Məzarın önündə hər kəs baş əyər.

***- Vətənin müdafiəsində dayanan qəhrəman Vətən oğulları – Ali Baş Komandanımızın adının ucalığı sizləri şanlı qələbəyə səsləyir. Zəfərlər sizin olsun. Yolunuz açıq olsun.***

***Ordumuzun əbədi Ali Baş Komandanı Heydər Əliyevə eşq olsun!***

***Əbədiyaşar, Ali Baş Komandanımız! Müstəqil Azərbaycan Ordusunun əsgərləri Sizinlə fəxr edir!***

**S O N**

# TƏKİ VƏTƏN YAŞASIN

**(1 pərdəli 4 şəkilli mənzum pyes)**

**İştirak edənlər:**

**Əhməd –** Ananın oğlu ( 20-23 yaş )
**Ana –** Əhmədin anası ( 45-50 yaş)
**Aysel –** Əhmədin sevgilisi ( 18-20 yaş )
**Müəllif**
**Aparıcı**
**Sənəm –** Ayselin anası
**Fatma –** qonşu qadın
**Mələk –** Əhmədin xalası
**Hürü –** Ayselin dayısı qızı
**Xıdır kişi –** ağsaqqal
**Saday –** Sənəmin qardaşı
**Qaratelin anası**
**Ağsaqqallar, qadınlar, kənd müəllimləri, şagirdlər.**
**Azər –** komandir, baş leytenant ( 25-27 yaş)
**Məmməd**
**Hərbi həkim**
**Əsgərlər, qadınlar.**

## I PƏRDƏ

## I ŞƏKİL

*ANA:*
-Əhməd! Əziz oğlum, yuxudan oyan.
Sənə qurban olum, eyvanda dayan.
Eh! belə qızlar görsün
Dərdindən ölsün.
**ƏHMƏD:*-(yarı yuxulu gözlərini ovaraq)***
Ana, sən qızlara ölüm diləmə,
Onlar inciyərlər belə eləmə!
*ANA:*
-Sənə qurban olum, özüm ay oğul,
Xətrinə dəydimi sözüm, ay oğul?
**ƏHMƏD:**
-Yox mənim xətrimə dəymədi inan,
Qızların ürəyi tez olur sınan.
*ANA:*
-Mən sənin başına dönüm, ay oğul
Özün dur ayağa yuxudan oyan.
**ƏHMƏD:**
-Sağ ol ki, sən məni oyatdın ana,
Bu gün gedəcəyəm bulaq başına.
*ANA:*
-Oğul, bulaq nədir, orda nə işin,
Soyuq su içərsən, ağrıyar dişin.
**ƏHMƏD: *(ayağa durur, əl-üzünü yuyur, çay süfrəsinin arxasında əyləşir və anasının əlini əlinə alaraq:)***

-Nə dişim, nə başım ağrımır ana,
Oğlun oxşayırmı heç ağrıyana.

***ANA: (zarafatla)***
Can balam, olmaya sən qız sevirsən?
Söhbət eləyərkən, yaman gülürsən…
**ƏHMƏD:** ***(ayağa duraraq, yarıciddi halda)***
-Sən məni yamanca sual edirsən,
Mənim sevdiyimi hardan bilirsən?

***ANA: (Oğlunun xətrinə dəyməsin deyə onu qucaqlayaraq)***

-Sənə də qurban olum, sənin sevən ürəyinə də, belə sənin sevdiyin qıza da qurban olum, ay bala.

**ƏHMƏD:**
-Ana, sən bulağa getmədin nədən?
Ciyərim od tutub, yanır gecədən.
***ANA:***
-Bilmirəm nə olub, sənə ay oğul,
Çıx bir az həyətə, fikrin dağılsın.
**ƏHMƏD:**
-Məni başa düşən, anam sağ olsun
Hər zaman gözümdə uca dağ olsun.

(Əhməd anasının əllərindən öpərək xoş əhval-ruhiyyə ilə evdən gedir.)

## II ŞƏKİL

***( Bulaq başına gedən yol )***

***(Yolda Əhmədin qarşısına dəstə-dəstə qızlar çıxır. Onların arasında Ayseli görmədiyindən, saçlarını əllərilə darayaraq, öz-özünə zümzümə edir.)***

**ƏHMƏD:**

-Saçıma sığaldı, dağın yelləri,
Məndən ayrı düşüb, yarın əlləri,
Yığıla dünyanın ən gözəlləri,
Gözlərim yenə də səni axtarır.

***Birdən Əhməd gözüylə gördüyü mənzərəyə sanki inanmadı. Sevdiyi qız səhəngi çiyninə aşırıb, əlində bir dəstə çiçək tək-tənha gedirdi.***

**ƏHMƏD:**

-Ey, ey, ay qəşəng qız,
Dönüb mən tərəfə baxarmısınız.

***APARICI:***

-Pəhləvan cüssəli oğlanı görcək
Həyəcan keçirdi, bu gözəl-göyçək.
Töküldü əlindən yığdığı çiçək
Dayandı arada xallı bir böcək.

**ƏHMƏD:**

-Xoşbəxtlik rəmzidir bil ki, bu böcək
Gəl inan sözümə, demirəm yalan
El sözü belədir, yadımda qalan.

***(Əhməd qıza bir az da yaxınlaşaraq, əllərindən tutur.)***

**ƏHMƏD:**
-Utanma, yaxın gəl, dinlə diqqətlə,
Böcəyə bir sözü deyək sürətlə.
Sevgimiz uğurlu olacaqsa uç,
Uğurlu olmasa, olacaqdır puç.

***(Əhmədin ovcunun içində yanan Ayselin əlləri əsir, titrəyir.)***

***AYSEL:***
-Adınız nədir ki?
**ƏHMƏD:**
-Babamın adını veriblər mənə,
O da vurğun imiş, çölə-çəmənə.
Sevmək gözəl adət, gözəl ənənə,
Xoşbəxt taleliyəm rast gəldim sənə.

Adı Əhməd olub, mənim babamın
Babası sayıldım, mən də obamın.
Mən ilk övladıyam ata-anamın,
Yəqin qismətiyəm sən tək sonanın.
***AYSEL:***
-İlk dəfə sən məni harda görmüsən?
Bu gün necə oldu, bura gəlmisən?
**ƏHMƏD:**
-O gün sən bulağa enəndə axşam,
Adını soruşdum qonşu qızlardan.
Təbəssüm yağırdı dodaqlarından,
Xoşum da gəlmişdi, bu saçlarından.

***(Əhməd əlini Ayselin hörüklərinə çəkir və onun gözlərinin içinə baxır).***

***APARICI:***
-Ayselin çiçək tək vücudu əsdi,
Gedirəm deyərək, yaman tələsdi.

***Aysel yanaqları qızarmış halda evlərinə tərəf qaçır. Əhməd dayanıb, Aysel gözdən itincə onun arxasınca baxır.)***

**III ŞƏKİL**

***Ayselgilin həyəti.***
***Aysel evlərinə yetişən zaman anası***
***SƏNƏM (həyəcanla):***
-Qızım, bu nə haldı?
Xəbərin varmıdır, hava qaraldı?

***(Aysel lal kimi dayanıb, başını aşağı salladığından )***

**SƏNƏM:**
-Sözümə cavab ver, sən məni anla
Çöl-çəmən doludur ilan-çayanla.
***AYSEL:***
-Yox, ana nə ilan, nə çayan vurub,
Danlama sən allah, düşsə də qürub.

***Utana-utana AYSEL:***
-Xəbərim yox imiş, ana, ay ana,
Məni Əhməd adlı bir oğlan görüb.
***SƏNƏM:***
-Nə dedin, təkrar et, başa düşmədim
Nə Əhməd, nə oğlan, nə danışırsan?
Bulaqdan dönəndən say;qlayırsan.
***AYSEL:***
-Yox ay ana, vallah sayıqlamıram,
Əhməd elə sözlər deyirdi ki, mən onları birinci dəfədir ki, eşidirəm.
***SƏNƏM:***
-Ay qızım, ay bala, el bizə gülər
Eh, nələr gələcək, başıma nələr.
Sən bulaq başında nə üçün oğlanla danışırsan, görən-bilən nə deyər, adımızı biabır eləyərsən, ay bala. Mən sizi böyütmək üçün nə əziyyətlər çəkməmişəm, təmiz adnan, sannan yaşamısam indiyəcən. Axı sən mənim qızımsan.
***(Ana qızını beləcə danlayarkən)***
***AYSEL:***
-Eh…mən heç nə bilmirəm
***(deyib, utana-utana qaçır).***

İşıq sönür,
***Səhnə dəyişir.***
**IV ŞƏKİL**

***Bulaq başı. Aysellə Əhmədin görüşündən xeyli vaxt keçib. Ayselin anası səhər tezdən***

***bulaq başına su gətirməyə gedəndə, qadınlar onu dövrəyə alırlar. Ayseli sevən oğlandan söhbət salırlar. Fatma adlı bir qadın ona yaxınlaşaraq.***

***FATMA:***
-Gözün aydın olsun, ay Sənəm bacı,
Ayselin həyatda görməsin acı.
***SƏNƏM:***
-Ay Fatma, Aysel ki, burada yoxdur.
***FATMA:***
-Nə olsun onu ki, sevənlər çoxdur.
***SƏNƏM:***
-Sənin də qızın var, ağıllı danış
Bir az da sən ciddi olmağa çalış.
***FATMA:***
-Ay Sənəm, nə qədər ciddi olsam da
Bu sirri mən sənə söyləməliyəm.
***SƏNƏM:***
-Söylə, bu nə sirdir, ay Fatma bacı
Yaman narahatam, dinləməliyəm.
***FATMA:***
-Bizim qonşumuzda yaşayan oğlan,
Bilirsən Ayseli sevirmiş çoxdan.
***SƏNƏM:***
-Sən nə danışırsan, başına dönüm.
***FATMA:***
-Belə başına da dönüm, qadan da alım
Sənə nə sözüm var, nə də sualım.

***SƏNƏM: (başını bulayaraq)***

-Sözü deyən də sən
Sual verən də.

***FATMA:***

-Sənə aydın olar, elçi gələndə.

***SƏNƏM:***

-Fatma, başına dönüm, elçi nədir, nə danışırsan?

***FATMA:***

-Az, Sənəm, sən dədəyin goru mənim sözümü qəribliyə salma. Elçi nə olduğunu bilmirsən bəyəm?

***SƏNƏM:***

-Ay Fatma bacı, sən allah, bir az asta danış, eşidən-bilən olar.

***FATMA:***

-Qoy eşitsinlər də burda gizləməli nə var ki?

***SƏNƏM:***

-Anam-bacım, el nə haydadı, sən nə hayda.

***FATMA:***

-Az, mənim elnən nə işim var, mənə bu sözü deyiblərsə, mən də sənə çatdırmalıyam da.

***SƏNƏM:***

-Elin-obanın dərdi başından aşıb-daşır. Bəs bu elin dərdi bizimki deyilmi, anam-bacım. Bu ərəfədə mənim evimə elçi gəlsə, el məni qınayar.

***FATMA:***

-Az, el niyə qınayır?

***SƏNƏM:***

-Başımızın üstünü qara bulud alıb, camaat davaya gedir. Özün şahidsən ki, hər gün kəndə ölənlərin, yaralananların xəbəri gəlir. Mənim də evimə elçi gəlsin deyirsən?!

***FATMA:***

-Anam-bacım, xeyirlə-şər əkizdir deməyibmi babalarımız.

***SƏNƏM:***

-Belə babalarımızın goruna qurban olum. Gərək elə bu iş mənim başıma gələ?

***FATMA:***

-Azz, bəri bax, azz… Nə iş, nə danışırsan? Camaatın qızlarının gözləri yollarda qalıb, xəyallarında elçi gözləyirlər. Sənin də qızının bəxtinə halal süd əmmiş, əsilli-əcabətli oğlan çıxıb da.

***SƏNƏM:***

-Eh, ay Fatma, oğlanı tanımasam da, onların ailəsini yaxşı tanıyıram. Yazıq onun anası elə cavan vaxtından yoldaşını itirdi, bir üzü qız, bir üzü gəlin kipriklərilə od götürüb, balalarını qanadının altında böyüdüb. O da mənim kimi kasıbçılıqla yetimlərini böyütdü. Allah indən belə axırlarını xeyir eləsin.

***FATMA:***

-Xeyirli adamdı ki, allah onların quşunu sizə qondurub.

***SƏNƏM:***

-Fatma, deyəsən sən lap gerçəkləşdirdin.

***FATMA:***

-Az, ikidən-birdən mən gerçək olmayan sözmü danışmışam?

***SƏNƏM:***

-Fatma, sən balalarının canı, mənə dedin, daha heç kim bilməsin.

***FATMA:***

-Ay Sənəm, dədəmin goru haqqı, bu sözü kəndimizdə səndən başqa hamı bilirdi. Sənə də mən dedim. Get fikirləş.

(***Elə bu vaxt Əhmədin xalası bulağa gəlir.)***

**ƏHMƏDİN XALASI MƏLƏK:** ***(gülə-gülə)***

-Görəsən Fatmaynan Sənəm baş-başa verib, nə danışırlar?!

***FATMA:***

-Ay Mələk bacı, dədəmin goru haqqı, vaxtında gəlmisən. Mən elə bayaqdan bəri, sənin bacın oğlu Əhmədin söydasından danışıram.

***MƏLƏK:***

-Əhmədin yaraşığına qurban olum. Əhməd kimi oğulmu var. Allah-tala o gözəllikdə oğulu bircə mənim bacıma pay verib.

***MƏLƏK – (Fatmaya göz vuraraq):***

-Əhməd gözəl oğlandı deyə, gözəl bir qız da sevdiyini bilirsən də.

***FATMA:***

-Ay Mələk bacı, allah-tala da məni bu kəndə

nəsib edib ki, söydalıların söydasını öz ünvanına çatdırım.

***MƏLƏK:***

-Deyəsən, elə ünvanı tapmısan deyə, Sənəmlə bayaqdan gap edirsən.

***FATMA:***

-Gap eləməyinə eləmişəm, bu veranın qızı, dünyanın dərdindən oyana bilmir. Səhərdən mənim başımı xarab edib. Müharibə belə, camaat belə.

***MƏLƏK: (gülə-gülə)***

-Ay Fatma, bəs sən Sənəmə deməyibsənmi, bu axşam Əhmədin qohumları, arvadlı-kişili yığışıb, Sənəmgilə elçi gəlirlər.

***SƏNƏM:***

-Azz, sən allah zarafatınızı yığışdırın. Mənim evimdə kişi xeylağımı var, Kişilər nəyə gəlirlər?

***FATMA:***

-Azz, kişiyə nə gəlif, sən də bığıburma qardaşını çağır. Sən tərəfdən də qardaşın, qaynın olsalar bəsdi.

***MƏLƏK:***

-Anam-bacım, mən biləni bu axşam oğlan evi sizə mütləq gələcəklər.

***FATMA:***

-Allah ölənlərinə rəhmət eləsin, a Mələk, dədəmin goru haqqı, sən bu gün bulağa gəlməsəydin, mən bir aya Sənəmi başa sala bilməyəcəkdim ha.

***MƏLƏK:***

-Bundan artıq izaha ehtiyac yoxdu ha. Axşam elçilərnən özüm də gələcəm. Görüm bu gün bulağın suyundan Sənəm ikirəngli çayı necə hazırlayacaq. ***(gülə-gülə)*** Ölürəm elçiliyə getməkdən ötrü.

***FATMA:***

-A, Sənəm, deyəsən elçiliyə də kəndin ağsaqqalı Xıdır kişi, Məhəd kişi, Nəsib kişi ilə gələcəklər.

***MƏLƏK:***

-Az onda nə durmuşuq, qoy Sənəm evinəcə getsin. Vaxtında qardaşına-qaynına xəbər yollasın.

***FATMA:***

-İkirəngli çay dediniz, ötən günlərim yadıma düşdü. Dədəmin goru haqqı mənə elçi gələndə, mənim cijim ikirəngli çayı özü hazırlaya bilmədiyindən, özüm daldeydə hazırlamışdım. Cijim də qonaqlara çayı paylayanda hamı afərin demişdi.

***MƏLƏK:***

-Neylək, Sənəm, özü hazırlaya bilmirsə, Aysel bala da Fatma xalası kimi ikirəngli çayları özü hazırlayar.

***(Beləcə söhbət eləyə-eləyə qadınlar bir-birindən aralanırlar.)***

## V ŞƏKİL

***(Ayselgilin evi və həyətləri )***

***(Bulaq başından dönəndən sonra Sənəm xala eşitdiklərindən narahat halda evi-eşiyi sahmana salır, həyəti süpürüb, sulayır. Sənəm həyətin ortasında dayanıb qonşuluqda yaşayan qardaşı qızını səsləyir.)***

***SƏNƏM:***

-Hürü, ay Hürü.

***HÜRÜ:***

-Eşidirəm, ay bibi.

***SƏNƏM:***

-Bibin sənə qurban, atana denən, axşam bizə gəlsin.

***HÜRÜ: (hörüklərini çəkə-çəkə)***

-Bibi, xeyirdimi? Nə olub ki?

***SƏNƏM:***

-Bala, eləcə denən ki, axşam mütləq gəlsin, bekara işim var.

***HÜRÜ:***

-Yaxşı bibi, deyərəm ***(deyərək evlərinə tərəf qaçır).***

***(Artıq şər qarışır. Sənəm xala samovarı qaynatmaq üçün əlinə taxta parçaları götürüb samovarın başlığını çıxarmaq istəyəndə, qapı döyülür, çöldən səs gəlir.)***

***SƏS:***

-Ay ev yiyəsi, ay ev yiyəsi. Qonaq istəmirsiz? Qonaq gəlmişik.

***SƏNƏM:***

-Qonaq allah qonağıdır. ***(deyərək qonaqları qarşılayanda, onların arasında Əhmədin xalası Mələyi görür. Sənəmin özünü itirdiyini görən***

***MƏLƏK:***

-Fatma xaladan ki, söz göndərmişdik. İndi də cavabçün sizə gəlmişik – (***deyə Sənəmin qulağına pıçıldayır.)***

***Elçilər söhbət eləyə-eləyə evə gəlirlər, salamlaşdıqdan sonra allı-güllü döşəkçələrin üstündə bardaş qurub otururlar.***

***Ağsaqqal kişi ordan-burdan söhbət açandan sonra, gəlişlərinin məqsədinə keçir.***

***AĞSAQQAL XIDIR KİŞİ:***

-A qızım, ay Sənəm, mən kəndin ağsaqqalı kimi bu ailənin adından sizin qapıya elçi gəlməyimlə bir xeyirxah iş gördüyümü düşünürəm. Allaha şükür olsun ki, çətinliklə də olsa balalarınızı böyütmüsünüz. Allah-talanın yazısına pozu da ola bilməz. Alın yazısından allahdan başqa heç kimin xəbəri yoxdu. Bala, atalar deyib ki, bir qız, bir oğlanındır. Bir də deyərlər ki, könül sevən göyçək olar. Bu uşaqlar da bir-bi-

rini sevirlər. Biz də bilirik ki, indi elmizin-obamızın ağır çağlarıdır. Allah qoysa bu dava-dalaş da səngiyər, nişan qoyarıq, toylarını eləyərik. Elimizdə-günümüzdə də şənlik olar.

***SƏNƏMİN QARDAŞI SADAY:***

-Ay Xıdır kişi, sən olan yerdə, bizim danışmağa ixtiyarımız olmasa da, qızın anası görək nə deyir.

***SƏNƏM: (qardaşına tərəf baxaraq)***

-Başına dönüm, ay qardaş.  Xıdır kişi olan yerdə mən heç nə deyə bilmərəm.

***XIDIR KİŞİ:***

-Ay Sənəm, ay qızım, el arasında bir məsəl var ki, anasına bax, qızını al. Bala sənin üzündən yağan abır-həya elə sənin öz böyüklüyündü. Üzün ağ olsun a, bala sən ki, indi də ağzında yaşmaq tutursan, o, bizi yaradan Allah haqqı, harda söz düşəndə, hamı sənin mərifətindən, qanacağından danışır. Allah xeyirlərini versin. Bala ikirəngli çayınızı gətirin görək.

***Süfrəyə şirin çay gətirilir. Hamı bir ağızdan:***

-Allah xeyir versin.
Xoşbəxt olsunlar.

***XIDIR KİŞİ:***

-Bir oğlan, bir qıza qismət
Nişanda gətirək, qızıl zər-ziynət.

***MƏLƏK XALA:***

-Amin Allah, o günü də görək.

***Elçi gələn qadın və kişilər çay içə-içə söhbət edirlər.***

***APARICI:***

-İçib şirin çayı, getdi elçilər,
Aysel ürəyindən keçirdi nələr,
Bilməzdi Əhmədi bu qədər sevər.

***Sənəm xala elçiləri həyətdəki darvazaya qədər yola salmaq üçün onlarla birlikdə çıxır. Elçilər gedəndən sonra Aysel həyətə düşür. Anasını həyətdə görmür. Bu vaxt qonşu həyətdən səs-küy, ağlaşma səsi gəlir.***

***APARICI:***

-Boylandı həyətdə Aysel hər yana,
Çağırdı, hardasan ana, ay ana
Birdən lal sükutdan qorxuya düşdü.
Sən demə qonşuda bir qız ölmüşdü
Özü də döyüşdə şəhid olmuşdu.
Qeyrətli, cəngavər, şir ürəkli qız
Gör neçə vaxt idi, davada imiş.

***Kənd əhli yavaş-yavaş, Qaratelgilin həyətinə toplaşırlar. Qaratelgilinhəyəti Ayselgilin həyətinə bitişikdir. Əsgər dostları, qonşular cənazənin ətrafında dayanıblar.***

**QARATELİN ANASI:**
-Gözə gəldin, ay bala
Gözünə qurban olum.
Əsgər libaslı balam
Sözünə qurban olum.

Mənim Qaratel balam.
Telinə qurban olum.
Yığışıb el gəlibdi
Elinə qurban olum.
**QARATELİN HƏMYAŞIDI QADIN:**
-Qaratel uşaqlıqdan
Yurd-yuvanı sevirdi.
Ən çətin işlərdə də
Hər an öndə gedirdi.
**AĞSAQQAL KƏND MÜƏLLİMİ:**
-Qərbin qapısında doğulan, bu qız
Bütöv Azərbaycan uğrunda ölmüş.
Köksü sipər idi Vətən yolunda
Güllə ürəyini yarıya bölmüş.
**QARATELİN İLK SİNİF MÜƏLLİMİ:**
-Qaratel Vətəni candan sevirdi
Ona kəfən oldu Vətən bayrağı.
**QARATELİN ƏSGƏR DOSTU:**
-Qanıyla suvardı, ana torpağı
Ellər yas saxladı, söylədi ağı.
**ƏHMƏD:** ***ovcunda saxladığı torpağı köksünə sıxaraq:***
-Mən da and içirəm qisas almağa
Ərənlər yollansın zəfər çalmağa.

**QARATELİN QONŞUSU OĞLAN:**
-Ölüm ağuşuna atılan bacım
Müqəddəs ad kimi yaşayacaqsan.
**QONŞU OĞLANIN BİRİ:**
-Sən uca dağ kimi, qoca dağ kimi
Üçrəngli bayraq tək ucalacaqsan.
**ƏSGƏR YOLDAŞI:**
-Qaranlıq zülmətin bağrını yarıb
Ulduz tək daima parlayacaqsan.
Sən bir igid kimi, qəhrəman kimi
Daim ürəklərdə yaşayacaqsan.

**ƏHMƏD:** ***Qaratelin dəfn mərasimində şeir oxuyur:***
-Yanar məşəllərin parlaq alovu,
Şəhid qəbirinə nur səpəcəkdir.
Qaratel dillərdə dastana dönüb
Parlayan günəş tək sönməyəcəkdir.

**ƏHMƏD:** ***Qaratelin portretini başının üstünə qaldıraraq:***
-Mənim igid bacım, qəhrəman bacım
Sənin qisasını alacağam mən.
Düşmənin bağrını ox kimi dəlib
Bayrağı zirvəyə taxacağam mən.
**APARICI:**
-Nə nişan olmadı, nə toy olmadı,
Əhməd ilk eşqindən heç də doymadı.
Vətən uğrunda döyüşə getdi
Vətənin dar günü köməyə yetdi.

**PƏRDƏ**

## II PƏRDƏ

### I-Şəkil

***Müəllif:*** *(səhnənin qabağında dayanıb)*

Düşmən alıb üstümüzü
Dardadır yenə də Vətən.
Axı bir vaxt oğul deyib
Sizə də, mənə də Vətən.
İgidlərim -ərənlərim
Haraylayır dağ-daş bizi
Səngərlərdə qarşılasın
Qoy müqəddəs savaş bizi.
Andımızda düz olaq,
Zəfər adlı söz olaq,
Ölən-itən biz olaq, -
Təki Vətən yaşasın.

Üçrəngli bayrağımız
Dalğalansın Şuşada.
Bir də aman verməyək
Xankəndində biz yada.
Düşmənin yuvasında
Dönək alova-oda .
Təki Vətən yaşasın.

Lazım gəlsə ucalaq
Şəhidlik zirvəsinə.
Səs verək el-obanın

Harayına, səsinə,
Zəfər günü qarışaq
Azadlıq kəlməsinə-
Təki Vətən yaşasın.

(*Səhnədən gedir*)

**Əhməd**:(*səhnəyə tərəf gələ-gələ*)

Sənə əzəl gündən ana demişəm,
İstəsən sevgimi sına demişəm.
Əgər dönük çıxsam, qına demişəm
Gəlirəm yolumu gözlə, ay Vətən.

***(Ana ona yaxınlaşır)***

**Əhməd:**
Gedirəm xeyir-dua ver
Vətən qalıb darda, ana.
Düşmən gəlir üstümüzə,
Mən gərəyəm yurda, ana.

**Ana**: (*oğlunu bağrına basır)*

Sağ ol mənim igidim.
Tanrım yar olsun sənə.
Get, layiqli oğul ol
Bu yurda, bu Vətənə.

Çinar boylu aslanım.
Tanrım yar olsun sənə.

Düşmənlərdən qisas al.
Yurdum bəxtiyar olsun.
Bir öyüdüm var sənə
**Əhməd:**
-Söylə, eşidirəm mən.
Mənim andım, amalım.
Bir anadır, bir Vətən.
**Ana:**
Aman vermə düşmənə
Qana qan de elə hey.
Qoy yadlara nifrətin
Orda gəlsin dilə hey.
Razı olsan döyüşə
Yollanardım özüm də.
**Əhməd:**
Yox sən getmə, taqətim
Tükənməzdir dizimdə.
Qayıdaram, zəfərlə
Yolumu gözlə, ana.
Gəl özünü ovundur
Bir şirin sözlə, ana.
**Ana:**
İgid balam, ər balam
Aslan balam, nər balam.
Gözlərimin işığı.
Ay mənim əsgər balam.

***(Aysel asta addımlarla sezilmədən səhnəyə gəlir)***

**Aysel**:
Ver sinəni qabağa.
Heç zaman çevirmə sən
Kürəyini düşmənə.
Qoy xoş sorağın gəlsin,
Cəbhədən hər vaxt mənə.
**Aysel**:**(*həyəcanla*)**
Sağ get salamat qayıt.
Ay Əhməd uğur olsun.
Səni sevən kəslərin
Qoyma gözləri dolsun.
Düşmənlərin başına,
Hər addımda od ələ.
Qoy düşməsin yurdumuz
Bundan sonra yad ələ.
**Əhməd:(*onu həsrətlə süzür)***
And içirəm Vətənin
Çörəyinə, duzuna.
Söz verirəm anama
Sənə- bir el qızına.
Düşməndan alacağam
Bu yurdun qisasını
Dəyişəcək el-oba
Öz matəm libasını.
**Ana:(*kövrəlir)***
İgid oğlum, get Tanrım,
Qüvvət versin qoluna.
Zəfərlə dön, gül-çiçək
Səpələyək yoluna.

**Aysel**:***(nigarançılıqla)***
Özündən müğayət ol.
Yersiz ölümdən qorun.
Qayıt, hünərlə qayıt
Qoy təzədən sinəndə
Dil açsın arzuların.
**Əhməd:(*anasına):***
Nigaran qalma, ana,
Nigaran qalma, gözəl.
Daha vaxtdır ürəyim
Deyir ki, yola düzəl.
Gedirəm əziz ana
Hələlik sağlıqla qal.
**Əhməd:(*qıza tərəf çevrilərək)***
Məhəbbət əmanəti.
Əhdinə vəfalı ol,
Sədaqətinlə ucal.

***(Əhməd gedir. Anası və qız onun arxasınca su səpir)***

**Ana:**
**-**Get oğlum, qoy yolların
Su kimi aydın olsun.
***(qıza işarəylə)***
Nə bu sevgin saralsın.
Nə də güllərin solsun.
**Aysel** :**(*kənara çəkilərək yavaş səslə)***

Get, igidim, yolunu
İntizarla gözlərəm.
Adını axşam-səhər
Qəlbimdə əzizlərəm.
Get zəfərlə geri dön.
Qoy sığınım adına.
Tanrım çatsın, ay Əhməd
Həmişə imdadına.

**Ana**:(***qıza yaxınlaşıb saçına sığal çəkir)***

Qızım, indi bildim ki,
Oğlum sevirmiş səni.
Sağ ol, öz gəlişinlə
Çox sevindirdin məni.
Allah qoysa Əhmədim
Geriyə dönər bir gün.
Başlayar elimizdə
Yenə şadlıq, toy-düyün.
Toy edərəm oğluma
Xoşbəxt olarsan sən də.
Sizin xoş gününüzdə
Bayram edər Vətən də.

**Aysel**:(***utana-utana***)

Tanrı diləklərinə
Çatdırsın səni ana.
Arzuların çin olsun
Çataq diləyimizə
Görək o günü, ana.

**Pərdə**

## II-Şəkil

***Cəbhə xətti. Səngər, düşmənlə üz-üzə dayanan Azərbaycan əsgərləri.Arabir uzaqdan güllə səsləri eşidilir. Səngərlərdə*** **əsgərlər görünür.**

**Komandir (Azər)-** ***baş leytenent libasında (əsgərlərin*** **əhatəsində)**
Dostlar, sayıq olun, Vətən dardadır
Sanmayın qələbə uzaqlardadır.
Düşmən ulasa da quduz it kimi,
Gərək biz onları əzək bit kimi.
Verməyin savaşda yadlara aman,
Qorxmayın döyüşə atılan zaman.
Vətən əzəl gündən güvənir bizə,
Allah özü çatsınköməyimizə.
**I-Əsgər-Məmməd:**
**-**Nədənsə düşmənlər görünmür gözə.
**II-Əsgər-Əhməd**:
-Gəlin yaxşı baxaq yan-yörəmizə.
**Komandir-Azər:**
Sizi aldatmasın bu dilsiz sükút
Çevrilər bir anda leysana bulud.
Gərək sayıqlığı verməyək əldən,
Düşmənlər əl çəkməz fitnədən, feldən.
**Məmməd:**
Alın yazımızdır bu döyüş bizim
**Əhməd:**
Düşmən qarşısında titrəməz dizim.

**Azər:**
Güvənir el-oba qeyrətimizə,
Vətən oğul deyir hər birimizə.

***(Aramsız güllə səsləri eşidilir)***

**Azər:**
Haydı, igidlərim başlandı savaş.
**Məmməd:**
-Bizə səngər olsun hər qaya, hər daş.
**Əhməd:**
Döyüşdə ya şəhid, ya qazi olaq,
Ölən igidlərin qisasın alaq.
**Məmməd:**
Perik düşən ellər geriyə dönsün,
Hər qəlbdə bir zəfər nəğməsi dinsin.
**Azər:** Bircə gülləmiz də çıxmasın boşa,
Tez olun, gedirik artıq savaşa.

***(Döyüş getdikcə qızışır)***

**Əhməd:*(İrəli soxulan erməni əsgərini vurub* yerə sərir)**
Dayan kafir oğlu, hara gəlirsən
Di gəbər it kimi, al payını sən.

**Məmməd: (*Erməni əsgərini avtomatın qundağı ilə itələyir)***

Tez ol bu tərəfə keç, harsın oğlu.
**(*Hər iki əsgər erməni əsirini qabağına qatıb qərargaha aparırlar)***

**Əhməd:**
De görüm burada nə sülənirsən?
Çox qanlar tökmüsən bilirsən ki, sən...
**Erməni əsgəri- *(Yalvarıb onun dizlərini qucaqlayır)***
Başına pırlanım, öldürmə məni
Buraxın, tərk edim sizin Vətəni.
Bilirəm sizindir bu dağ, bu dərə
Qayıdıb gəlmərəm bir də bu yerə...

**Məmməd:**
Tülküdə dilə bax...
**Əhməd:**
Ay alçaq sənin.
Yoxmu doğma elin, doğma Vətənin?
**Məmməd:**
Burda nə ölümün var axı sənin?
Sənə qənim olsun məshəbin, dinin.
**Erməni əsgəri: *(Onlara yalvarır)***
Başınıza dönüm, rəhm edin mənə.
**Əhməd:**
Ay alçaq, dil tökmə yalandan yenə.
**Erməni əsgəri:**
Qələt eləmişəm, gəlmərəm bir də,
Qoyun sizin olsun, səma da, yer də.
Əzəldən sizindir Göyçə, Zəngəzur.

**Məmməd:- (*Hiddətlə ona yanaşıb, qolundan yapışaraq ayağa qaldırır)***
Gəl bizə dil tökmə, kafir oğlu dur!
Sənsən el-obanı odlara yaxan.
**Əhməd:(*Onun yaxasından yapışır*)**
-Dur görüm əlimə keçmişdir çuxan.
Sus görüm, səninçün uşağam nəyəm.
**Məmməd:**
Səni elə özüm gəbərdəcəyəm.
**Erməni əsgəri:**
Sizə yalvarıram, hələ cavanam
Yolumu gözləyir Gorusda anam.
**Əhməd:**
Dayan harsın oğlu, mənə qulaq as.
De nəyə gərəkdir, bu ələm, bu yas?
Niyə torpağımı odlara yaxdın?
Heç məhəl qoydunmu göz yaşlarıma?
Qanlı divan tutdun soydaşlarıma.
**Məmməd:**
De, kimlər buraya göndərdi səni?
**Erməni əsgəri:**
Ara, aldatdılar quldurlar məni.
Bizə dedilər ki, anlayın, qanın
Tarixi qədimdir Ermənistanın.
Dedilər bizimdir Laçın, Qarabağ.
Kəlbəcər, Qubadlı, Zəngilan, Qazax.
**Əhməd:**
Demək gəlməmisən öz xoşunla sən.
**Məmməd:**

Bilirəm qorxudan belə deyirsən.
**Erməni əsgəri:**
Massab haqqı mənim gühahım yoxdu,
Sizin taraflarda dostlarım çoxdu.
**Əhməd:**
Sus, dilə gətirmə sən dost sözünü,
Əclaf göstər görüm əsl üzünü.
**Məmməd:**
Bizi öldürməyə hazırsan hər an,
Gözün doymadımı tökülən qandan?
**Əhməd:**
Azdın Xankəndində öz yolunu sən.
Qoydun ağlar günə Xocalını sən.
**Erməni əsgəri:**
Yalvarıram sizə buraxın gedim,
Sizin Qarabağı tamam tərk edim.
Əlbəttə sizindir Ağdərə, Şuşa
Mən bir də girmərəm sizlə savaşa.
**Məmməd**:
Əclaf bağışlamaq olarmı səni?
Beyninə çaxaram indi gülləni.

**(Erməni əsgəri yerə çöküb, yenə də onun dizlərini qucaqlayır)**

**Erməni Əsgəri:**
Yalvarıram sənə əl saxla bir az,
Bil ki, yaxşılığın əvəzsiz qalmaz.
Alın Göyçəni də, Zəngəzuru da,
Meğrini, Sisyanı, Dəstəfuru da,

Qarşılayım sizi açıq ürəklə,
Çıxım qarşınıza duzla, çörəklə.
Bacım Haykanuş da peşkəşdir Sizə.
Hərdən qonaq gəlin Gorusda bizə.
**Məmməd:**
Namussuz, bişərəf.
**Əhməd:**
Satqın, yaramaz !

***(barmağını avtomatın tətiyinə yaxınlaşdırır)***

**Azər:**(İti addımlarla onlara tərəf gəlir)
Onu öldürməyin, dayanın bir az!
(*qürur hissi ilə):*
Dostlar, bu döyüşdə zəfər çaldıq biz,
Bu gün iki kəndi geri aldıq biz.
Bir az da uzağa qovduq düşməni
Onu öldürməyin, eşidin məni.
**Məmməd:**
Komandir qana-qan, ölümə-ölüm.
Bunu öldürməsəm alışar dilim.
**Azər:**
O, indi əsirdir, əsgər ki, deyil,
Bəlkə gərək oldu bizə, bunu bil.
Onu öldürməklə qurtarmaz dava,
Nələr söyləyəcək, görək bu dığa.
Düşmənin sirri də gərəkdir bizə.
Aparın, əmrimdir bu mənim Sizə!
İndi o, əsirdir bizim Vətəndə,
Alar cəzasını vaxtı yetəndə!

**(Əsgərlər əsir ermənini qabaqlarına qatıb aparırlar)**

**Məmməd:**
Yeri harsın oğlu, dayanma, yeri!
Qorxaq dovşan kimi boylanma geri.
**Erməni əsgəri:**
Deyəsən canıma düşüb vəlvələ.
**Əhməd:**
Get, qorxma əcəlin çatmayıb hələ

**Erməni əsgəri-(*Ayaq saxlayıb onlara xitabən*)**
Tərifə layiqdir mərhəmətiniz
Düşmənlə bu sayaq davranmırıq biz.
**Əhməd:**
Gözümün içinə düz əməlli bax,
Biz sizin tayınız deyilik, alçaq .
Sizsiniz başkəsən, sizsiniz cəllad
Milli simvolunuz bu şərəfsiz ad!
Yoxdur qeyrətiniz, yoxdur arınız
Dosta xəyanətdir etibarınız!
**Məmməd: -** (*Onu qabağa itələyərək)*
-Get görüm, lənətə gələsən səni
Tez ol, hövsələdən çıxarma məni.

***Hər iki əsgər erməni əsiri ilə birlikdə səhnədən uzaqlaşır.* İşıq sönür.**

**Pərdə**

## III- ŞƏKIL

**Aparıcı:**
- Girib yuxusuna ciyərparası,
Elə hey ah çəkib sızlayır ana.
Nəsə ürəyinə damıb deyəsən
Elə bil bəd xəbər gözləyir ana.

Bu gecə nə yaman uzandı belə,
Açılmayır sabah, sökülməyir dan.
Bəlkə xəbər tutub ana qəlbiylə
Əhmədin qan sızan yaralarından.

Necə ovundurum onları axı,
Ana intizarda, oğul can üstə
Əsgərlər xərəklə dönür geriyə,
Baxışlar nigaran, qulaqlar səsdə.

Həyatdan ayrılmaq istəməsə də,
Üstünü alıbdır ölüm kölgəsi
Başının üstündə durub dostları,
Güclə eşidilir Əhmədin səsi.

**(İşıq dəyişir.Səhnədə yaralı Əhməd.İki əsgər dostu onun *başı üstündədir)***

**I əsgər- Məmməd**:
-Əhməd, əziz dostum, yanındayıq biz,
Dillən şan- şan oldu bağrımız axı.
Qardaş, yolumuzu gözləyir ellər,
Qalx, birgə dolaşaq aranı, dağı.

**II əsgər:**
Bizim sinəmizə dağ çəkmə qardaş
Yaşamaq olarmı həyatda sənsiz.

**(Əhmədin yaralarını sarıyan həkimə üzünü tutaraq)**

Həkim, ağrın alım, yaşat sən onu,
Sənə dönə-dönə yalvarırıq biz.
**Həkim**:
Əlimdən nə gəlsə əsirgəmərəm,
Yara çox ağırdır, nə deyim daha?
Onun sağ qalmağı bir möcüzədir,
Təkcə ümid qalıb böyük Allaha.
**I əsgər**:
Ay Allah, Əhmədə özün kömək ol.
Gəl möcüzə göstər burda bircə yol.
**II əsgər**:
Əhməd, ağrın alım, gözlərini aç.
Sənə diləyirik tanrıdan əlac.
**I əsgər:**
Kömək et ona, ulu Yaradan.
Onun baxışında qoy sökülsün dan.
**Həkim**:
Bir az sakit olun, səbr edin görək
Yaşadır Əhmədi hələ ki, ürək.
**II əsgər**:
Əhməd aç gözünü, burdayıq, qardaş.
Ölümün əlindən qurtaraydın kaş.

**Əhməd: (*qırıq- qırıq kəlmələrlə)***
Dostlar... çox razıyam...bilin ki, ...sizdən
Ürək istəməsə...yaş gəlməz...gözdən...
**I əsgər:**
Danış, sözlər yatsın dilinə sənin,
Xoş bir xəbər çatsın elinə sənin.
**II əsgər**:
Həkim ümid varmı?
**Həkim:**
Nə deyim sizə?
Tanrı özü çatsın köməyimizə...

**Əhməd- *(Yenidən gözünü açıb qırıq- qırıq kəlmələrlə danışır*)**

Dostlar, son sözümü dinləyin mənim
Bilin... yaşamağa... gümanım...yoxdur.
Gedirəm...möhlətim..amanım yoxdur.
Ölüm qoymadı ki, borcumdan çıxam,
Məndən inciməyin, bağışla...Vətən
Əlvida... ay ana, əlvida dostlar
Salamat qal, Aysel...ta...ge-di- rəm...mən....

***( Sonuncu dəfə dərindən nəfəs alıb gözlərini yumur*)**

**Məmməd:**
**-** Ölmə, ölmə Əhməd, əziz qardaşım....
Zülmətə dönməsin baharım, qışım.

**I-Əsgər**
Çökür gözlərimə, Allah, qaranlıq...
Əhməd, dinlə bizi barı bir anlıq.
**II-Əsgər:**
Sənin qisasını alacağıq biz.
Düşmən qarşımızda diz çökəcək, diz...

**(*Həkim meyitin üzərinə örtük çəkir)***

**Həkim:**
Bir az dincini al, burda igidim
Təzə bir səfərə çıxan şəhidim....
**I-Əsgər:**(*Dostunun üzərinə əyilərkən onun sinəsi üstündəki kağız parçasını görür, onu götürüb köksünə sıxır və oxuyur*)
Budur, bizim üçün yazıb bu şeiri,
Oxuyum eşidin əziz qardaşlar.
El, Vətən yolunda şəhid oldumsa,
Anamı sizlərə tapşırıram, mən.
Azəri yurdunun uğrunda ölüb
Vətən torpağına qarışıram, mən.

**(*Pərdə enir)***

**IV- şəkil**

Əhmədgilin evlərinin birində yas mərasimi. Ortada Azərbaycan Bayrağına bükülmüş şəhid tabutu. Əsgərlər, qadınlar

**Ana:(*Tabutun üzərinə əyilərək*)**
Ürəyim şan- şan oldu
Kəfənim al qan oldu.
Taleyim viran oldu,
Lay- lay, igidim, lay- lay
Lay-lay, şəhidim, lay-lay.
Sızlayan elim ağlar,
Çiçəyim, gülüm ağlar.
Ağzımda dilim ağlar
Lay- lay, igidim, lay- lay
Lay- lay, şəhidim, lay- lay.
Yerdə qalmaz qan dedin,
Hər kəlməmə can dedin.
Vətəndən əziz nə var,
Vətənə qurban dedin
Lay- lay, igidim, lay- lay,
Lay- lay, şəhidim, lay- lay.
**Aysel: (Əhmədin tabutunu qucaqlayır)**
Görüşünə gəlmişəm,
Qalx ayağa, Əhmədim.
Özün de, necə dözüm
Mən belə müsibətə,
Belə dağa, Əhmədim?
Belə gedişmi olar?
Belə gəlişmi olar?
Gözlərini aç görüm,
Belə görüşmü olar?

**Ana: (*Ayseli bağrına basır)***
Belə görüşmü olar,
Belə gəlişmi olar?
Səni yanasan, fələk
Heç belə işmi olar?
**Aysel:**
Qalx igidim, ərənim
Boyuna qurban olum.
Payızına, qışına,
Yayına qurban olum.
Baharı çox sevirdin,
Belə baharmı olar?
Heç sevən ürəkdə də
Bu boyda qarmı olar?
Üşüyürəm, qalx məni
İsindir nəfəsinlə.
Arzularım gül açsın
Qoy sənin həvəsinlə.
Çevrilim torpağına,
Dönüm məzar daşına.
Ülvi məhəbbətimlə
Qarışım göz yaşına.
Harda olsam həsrətin
Axtarıb tapar məni.
Sənsiz dözə bilmərəm,
Özünlə apar məni.
**I əsgər:(*Anaya və Aysələ xitabən)***
Ay ana, bilirəm dərdin ağırdır,
Ay bacı, gedənlər geriyə dönməz.

Bilirəm müqəddəs yoldu, cığırdı
Şəhidlər heç zaman zirvədən enməz.

**II əsgər:**

**-** Əhməd qurban getdi Vətən yolunda
Hər yetən bacarmaz şəhid olmağı.
Bilirəm daşımaq çətindir, çətin
Belə müsibəti, bu boyda dağı.

**Ana:**

**-**Bilirəm, ay oğul, bilirəm bunu
Görünməz bu dərdin heç zaman sonu.
İnsan sevmək üçün dünyaya gəlir,
Təsəllim budur ki, şəhidlər ölmür.
Təki siz sağ olun, elim var olsun,
Təki Vətənimiz bəxtiyar olsun.
Tanrim çox görməsin bu yurdu bizə
Vətən arxalansın hünərinizə...

**I əsgər:**

-Qanlı döyüşlərə atılan zaman
Qana- qan, demişik, ölümə- ölüm.
Heç zaman düşmənə vermərik aman,
Bilsin ana Vətən, eşitsin elim.

**II əsgər**:

-Yenə and içirik, and içirik biz,
Yerdə qalmayacaq bu qan, bu qada.
Qoymarıq düşmənin nəfəsi dəyə,
Azərbaycan adlı müqəddəs ada.

**Aysel:**

**-**Mən də and içirəm,
Neçə ki, sağam-

Əhmədin eşqini
Yaşadacağam.
**Hamı bir yerdə:-**
Biz də and içirik
Bu ülviyyətə,
Düşmən qoy düşməsin
Özgə niyyətə.
**I- Əsgər:**
- Ey Vətən sən bizə inan, arxalan
Təzədən keçərik alovdan, oddan.
Düşmənə heç vədə verməzik aman,
Belə bir müsibət çıxarmı yaddan.
**II- Əsgər:**
-Tanrı mərhəməti işıqdı, közdü,
Allahım qoyma ki, xar olsun Vətən.
Şəhidlik zirvəsi and yerimizdir,
Oğullar ölsə də, var olsun Vətən.
**III-Əsgər**:
-Eşidin, qardaşlar, eşidim məni,
Bu gün haqq yolunda o, şəhid oldu
Haqqın dərgahina qovuşdu ruhu.
**IV –Əsgər:**
Ana torpağını o, çox sevirdi.
Döyüşə əzmlə ruhla gedirdi.
Hamıdan əvvəldə öndə gedirdi.
**V-Əsgər:**
Yazdığı misralar gör nələr deyir
Ölsə də bu şəhid son nəfəsində.
Ananı, Vətəni, yarını sevir.

**Ana- (*Sonuncu dəfə Əhmədin cənazəsini bağrına basır)***

Son mənzilə gedirsən,
Üzün ağ olsun, oğul
Elin, oban, dostların
Görüm sağ olsun, oğul.

Dağlarda çən yaşasın,
Saçlarda dən yaşasın.
Ölən, itən biz olaq, -
Təki Vətən yaşasın.
**Hamı bir yerdə:**
Təki Vətən yaşasın,
Təki Vətən yaşasın...

**(*Mərasimə toplaşanlar Əhmədin cənazəsini çiyinlərinə alıb qəbristana yollanırlar).* İşiq sönüb yanır.**

**Pərdə.**

**SON**

# VƏTƏN TORPAĞI

**(2 pərdəli-13 şəkilli pyes)**

## İŞTİRAK EDƏNLƏR

**Rəhim**
**Cavad kişi -** *Rəhimin atası*
**Durna ana -** *Rəhimin anası*
**Məhəmməd kişi -** *Qonşu, müharibə veteranı*
**Fatma nənə -** *Məhəmməd kişinin yoldaşı*
**Sərvinaz, Şahnaz,**
**Mirvari,Bənövşə -** *Rəhimin bacıları*
**Rəhman, İsmayıl –** *Rəhimin qardaşları*
**Gülbahar –** *Rəhimin dayısının yoldaşı*
**Rəşid –** *Rəhimin dayısı*
**Polkovnik Həsənov** *komandir*
**Dostlar, əsgərlər,**
**musiqiçilər.**
**Sərdar kişi, Gülarə,**
**Narıbəyim, Zahir –** *kənd adamları*
**Solmaz, Zərifə,**
**Sona bibi -** *yaxın qohumlar*

## I PƏRDƏ

I şəkil

***Yaşıllıqlar qoynunda yerləşən barlı-bərəkətli Azərbaycan kəndi. Səhnə iki yerə bölünüb. Böyük bir ağacın kölgəsində ailə üzvləri çay süfrəsində şirin-şirin söhbət edirlər. Səhnənin ikinci hissəsində qonşu həyətidir. Birdən ana ayağa duraraq:***

**DURNA ANA:**
**-** Rəhim, ay bala, haradasan?
**RƏHİM:**
**-** Ana, qonşudayam. Məhəmməd babagildə.
**DURNA ANA:**
**-** A bala, səhərdən onlardasan, evə gəlmək istəmirsənmi?
**QONŞU FATMA NƏNƏ: -** ***(həyətlərindən səsi gəlir)***
Rəhimi heç biz qoyarıqmı sizə getməyə? Məhəmməd babası, müharibə yollarından ona danışır, o da dinləyir. Mən də plov bişirirəm. İndi süfrə açacam, siz də gəlin. Yaxşı çay da dəmləmişəm.
**DURNA ANA:**
**-** Ay Fatma bacı, bu uşaq da Məhəmməd babasının davamçısı olacaq deyəsən. Evə gələn kimi danışır ki, babamın kostyumunun üstündəki medallara baxmaqdan doymuram. Dava-dava

oyununu da Məhəmməd babasını dinləyəndən sonra yaman həvəslə oynayır. Allah axırını xeyir eləsin. Mən müharibə illərini gördüyümdən, dava deyəndə yer-göy başıma fırlanır.

**MƏHƏMMƏD KİŞİ:**

- O vaxtın davası davaydı da, a bala. Yaxşı vuruşana, yaxşı da qiymət verərdilər. Qiymət deyəndə də, medalı deyirəm də.

**DURNA ANA:**

- Ay Məhəmməd dayı, vallah o bayram günü veteranların rasında sənin yaxandakı medalları görəndə, mən həmişə fəxr etmişəm ki, Məhəmməd kişi bizim ən yaxın qohumumuz və ən yaxşı qonşumuzdur.

**MƏHƏMMƏD KİŞİ:**

- Yaxşı deyirlər ki, uşaq ən yaxşı tərbiyəni evdən-ailədən alır. Bu qədər qohum-qonşunun arasındakı uşaqlardan Rəhim də öz tərbiyəsi və hərbiyə olan həvəsi ilə çox seçilir. Allah qoysa, Rəhimin hərbçi olacağına ümidim çoxdur. İnşaallah olacaq da.

***Məhəmməd kişi, Rəhim, Fatma nənə***
***Yavaş-yavaş həyətə yaxınlaşırlar***

**CAVAD KİŞİ:**

- Vallah siz səhərdən söhbət edirsiniz. Mən də bu qızılgüllərin ətrini qoxlayıram.

Əli ilə güldanı yaxına çəkərək gülləri ciyəri dolusu qoxlayır

**FATMA NƏNƏ:**

- Sizin bağçanın çiçəkləri bizim bağçanın çiçəklərindən ətirlidir.

**DURNA ANA:**

- Az, daha deynən bizim bağçanın çiçəklərinin ətri, sizin çiçəklərin qoxusuna hopub da.

***Qonşular gülüşürlər***

**CAVAD KİŞİ:**

- Məhəmməd baba, eşitmisən də, Rəhim Rusiyaya oxumağa getmək istəyir.

**MƏHƏMMƏD KİŞİ:**

- Hara gedir, a bala?

**CAVAD KİŞİ:**

- Rusiyaya.

**MƏHƏMMƏD KİŞİ:**

- Rusiyada nə işi var?

**CAVAD KİŞİ:**

- Məhəmməd kişi, oğlumda elə bir həvəs oyatmısan ki, deyir hərbçi olacam. Özü də Məhəmməd babama oxşayacam.

**MƏHƏMMƏD KİŞİ:**

- Allah xeyir versin, lap yaxşı edir, əsl kişi peşəsi seçib, Afərin, Rəhim balam.

**CAVAD KİŞİ:**

- Məhəmməd dayı, ağlın nə kəsir, bəlkə bir balaca ziyafət verək?

**MƏHƏMMƏD KİŞİ:**

- Lap yerinə düşər.

**FATMA NƏNƏ:**

- Ay qonşu, özünüz bilərsiniz ki, mən yaxşı plov dəmləyirəm. Plovu da özüm bişirərəm. Ziyafəti də bağçanın ortasında, gülünçiçəyin arasında versəniz yaxşı olardı, cənnət kimi bağınız-bağçanız var.

**DURNA ANA:**

- Ay Fatma bacı, sən hələ bağça-bağları deyirsən. Elə bizim yurdumuz – yuvamız başdan-başa cənnətdir. Yaz olanda da ki, gül-gülü çağırır, bülbül bülbülü.

**FATMA NƏNƏ:**

- Sənin sözünün qüvvəti, Allah-təala təbiətin ən gözəl guşəsini Qarabağı yaradıb da.

**DURNA ANA:**

- Qarabağı yaradan elə yaradıb ki, bütün gözəlliklər burada cəmləşib. Quran ayəsi qədər əziz olan muğamlarımızın özü də təbiətin sehridir.

**CAVAD KİŞİ:**

- Muğamatdan ki, söz açdınız bəlkə ziyafətə muğam ifaçılarını da dəvət edək?

***Bu vaxt qonşulardan bir nəfər Durnanın qardaşı arvadı Gülbahar gəlir***

**GÜLBAHAR *(Üzünü Fatma nənəyə tutaraq):***

- Sizə getmişdim, uşaqlar dedi qonşuya gediblər. Bildim ki, Durnagildəsiniz.

**DURNA ANA:**

**-** Vaxtında gəlmisən, sabah uşaqları da götürün, bizə gəlin.

**GÜLBAHAR**

– Xeyir ola?

**DURNA ANA: -** ***Xeyirdi, xeyirdi (gülümsəyir).***

**GÜLBAHAR**

**-** Olmaya qızlara elçi gələn var?

**DURNA ANA:**

**-** Sən də söz danışdın. Qızların hələ köçmək vaxtı deyil, nə yaşları var ki, Rəhimə görə qonaqlıq verəcəyik.

**GÜLBAHAR**

– Mən biləni, Rəhimin ad günü bu gün deyil, axı?

**DURNA ANA:**

**-** Sənin bilmədiyin şeylər var, sabah gələrsən, görərsən.

***Cavad kişinin işi olduğundan Məhəmməd kişiylə sağollaşır və qadınların söhbətinin uzanacağını zənn etdiyindən onlarla sağollaşıb gedir. Qonşular da gedirlər Evə çatmamış görür ki,***

***Durna da onun arxasınca gəlir .***

***Yerişini yavaşıdıb:***

**CAVAD KİŞİ:**

**-** Durna adətən sən, qonşu ilə söhbət edəndə, geri dönmək yadına düşmür. Nə əcəb söhbə-

tiniz qısa oldu.

**DURNA ANA:**

- Sabah gələcəklər də, bax onda doyunca söhbət edərik.

**CAVAD KİŞİ:**

- Ziyafət üçün kəsəcəyim qoçu bağçaya ötürün, yaxşıca otlasın.

**DURNA ANA:**

- Mən də qızlara deyim bulaqdan su daşısınlar, samovar qaynatsınlar.

***Axşam düşdüyündən həyətin işığını yandırırlar.***

**PƏRDƏ**

**II şəkil**

***Səhər tezdən Durna ana hamıdan tez oyanıb həyət-bacanı sulayıb-süpürür. Qızlar səhəngi götürüb bulağa tərəf gedirlər.***

**CAVAD KİŞİ:** ***(Durnaya yaxınlaşaraq):***

Məhəmməd kişi bir azdan gələcək. Çay-çörək yeyəndən sonra heyvanı kəsərik.

***Elə bu anda Məhəmməd kişi yanında da bir neçə ağsaqqal həyətə daxil olurlar.***

**CAVAD KİŞİ:**

- Ağsaqqal, xoş gəlmisiniz, buyurun əyləşin. Uşaqlar qoçu bağdan gətirənə qədər, biz də çay içək.

**DURNA ANA:** ***(çay süzə-süzə başındakı kəlağayısını düzəldərək):***

**-** Ay uşaqlar, haradasınız, bura gəlin, Məhəmməd babanızın kəlamlarından eşidin.

**MƏHƏMMƏD KİŞİ:**

**-** Ay Durna bacı, allaha şükür, Sizin balalarınız ağıllı- kamallı uşaqlardır. O günləri dükandan gəlirdim, sizin İsmayıl zənbilimi götürüb evə qədər gətirdi. Allah saxlamışa pul vermək istədim götürmədi, qaçıb getdi.

**DURNA ANA:**

**-** Hər şeydən xəbərim var, o biri uşaqları deyə bilmərəm, hərdən Rəhimə verdiyin pullara o da həmişə qələm-dəftər alır.

**MƏHƏMMƏD KİŞİ:** (ü***zünü Cavad kişiyə tutaraq):***

**-** Sən xoşbəxt atasan ki, belə ağıllı övladların var.

**FATMA NƏNƏ:**

**-** O gün də mən bulaqdan gəlirdim. Sizin qızlar da bulağa gedirdilər. İnan ki, özlərinin səhənglərini bulağın başında doluca qoyub, mənim səhəngimi gətirdilər. Allah da onlara kömək olsun. Oğullarınız da ağıllıdır, qızlarınız da. Ulu Tanrı bu balalara hər zaman kömək olsun, gözəl bəxtləri, gözəl taleləri olsun.

**CAVAD KİŞİ:** ***( üzünü Məhəmməd kişiyə tutaraq:***

Məhəmməd kişi sən həm uğurda xeyirlisən,

həm də əlin yüngüldür. Kimin işinə qol qoysan vallah o adam xeyir tapar. Allah qoysa bu gün Rəhimə xeyir-duanı verərsən. Bax elə ona görə istədim ki, balamın qonaqlıq qoçunu da sən kəsəsən.

***Elə bu anda oğullarından biri Rəhman atasına yaxınlaşaraq:***

**RƏHMAN:**

- Ata, icazə versən, kababı özüm çəkərdim.

**CAVAD KİŞİ:**

- A bala, ay oğul bəs kababı sən çəkməyəndə kim çəkəcək? Bacin Şahnaza da deyərsən ki, samovarları qaynadar.

**DURNA ANA:**

- Balalarıma qurban olum, əllərindən nə gəlmir ki?

***Rəhman atasının sözlərindən ruhlanaraq Manqalı həyətin ortasına gətirir.***

**CAVAD KİŞİ:**

- Ay Durna, deyirəm zurnaçı Seyidəlini də çağırsam, yaxşı olardı.

**DURNA ANA:**

- Atan rəhmətlik, sən olan yerdə bizdən niyə soruşursan? Allah köməyin olsun. Sən necə istəyirsən, elə də olsun.

**CAVAD KİŞİ:**

- Yaxşı onda mən gedim aşıqları gətirim. Siz də öz işlərinizlə məşğul olun.

**PƏRDƏ**

## III Şəkil

***Ağacın altında, stolun üstünə süfrə salan ana, qızları tələsdirir:***

**DURNA ANA:**

- Ay qızlar, bir az tələsin. Qonaqların gəlməsinə az qalıb, süfrəni indidən hazırlayın ki, qonaqlar gələnə qədər hər şey hazır olsun.

**MİRVARİ:**

- Ana, narahat olma, bu işi mənə həvalə elə.

**DURNA ANA:**

- Başınıza dönüm, ay mənim balalarım.

**GÜLBAHAR *(gəlir):***

- Ay bacı, gəldim ki, sənə kömək edəm, maşallah mən gələnə kimi özünüz hər şeyi hazırlamısınız.

**DURNA ANA:**

- Çox sağ ol, ay Gülbahar, Allah eləsin ki, sənin balaların da Rəhim kimi arzu etdiyi məktəbə qəbul olsun. Maşallah səninkilər də savadlı uşaqlardır. İnşallah bu il Səkinə balamız da istədiyi məktəbə qəbul olar.

**GÜLBAHAR:**

- Allah ağzından eşitsin, ay Durna bacı. Bəs yaxşı, Rəhim oğlumuz, general balamız özü haradadır?

**DURNA ANA:**

- Onun başına dönüm bağda ağacları suva-

rır. Elə bağdakı meyvə ağaclarının əksəriyyətini də özü əkib.

***Bu vaxt Rəhim bağdan evə tərəf gəldiyindən qohumlar onu dövrəyə alır.***

**GÜLBAHAR:** ***(Onun boynunu qucaqlayaraq)***

– Xalan qurban yaxşı oxu, yaxşı komandir ol. Qızımı da sənə verəcəm.

***Gülbharın sözlərindən utanaraq aynabəndə tərəf gedir. Elə bu anda Rəhimin orta məktəbdəki sinif yoldaşları olan oğlanlar onların həyətinə daxil olurlar.***

**OĞLANLAR XORLA:**

- Gözün aydın, ay Cavad dayı, Durna xala.

**CAVAD KİŞİ VƏ DURNA ANA:**

- Sağ olun, ay uşaqlar, nə yaxşı oldu gəldiniz.

**ZAHİR:**

- Durna xala hələ biz orta məktəbdə oxuyarkən Rəhimi özümüzə komandir seçmişdik. O da bizim etimadımızı doğrultdu. Bu gün biz də komandirimizin yanına gəlmişik.

***Rəhimin dayısı Rəşid söhbətə qoşularaq:***

**RƏŞİD:**

- Bala, el məsəlidir də: - Niyyətin hara, mənzilin də ora. Rəhimə halaldır, sözünün üstündə dayandı, hərb yolunu seçdi. Allah yolunu açıq eləsin. Allah qoysa, sabah tezdən də yola salırıq.

**DURNA ANA:**

- Vallah yola salırıq deyəndə ürəyim yerindən çıxır. Eh! Nə bilim qərib elə gedir. Ev uşağı-

dır, atadan-anadan uzaqda, birdən-birə Rusiya kimi bir ölkədə oxuyacaq.

**ZAHİR:**

- Ay Durna xala, Rəhim ki, rus dilində sərbəst danışır, yaxşı da oxuyandı. Daha nə çətinliyi olacaq, narahat olma, biz onun xasiyyətinə bələdik. Necə deyərlər, "dəyirmanın bu başından sal, bir də gördün ki, o başından çıxdı". Təki biz də Rəhim kimi fərasətli olardıq. Allah qoysa hər şey yaxşı olar.

**DURNA ANA:**

- Ay uşaqlar, niyə həyətdə dayanmısınız? Aynabəndə çıxın. Qonaqlarımız da artıq gəlirlər.

***Elə bu vaxt həyətin darvazası açılır, Rəhimin müəllimləri də Durna ananı təbrik etmək üçün gəlirlər.***

**DURNA ANA:**

- Xoş gəlmisiniz, buyurun yuxarı başa keçin. Sizin çox böyük zəhmətiniz sayəsində oğlum yaxşı təhsil aldı. Bu gün də hərbi məktəbə qəbul olunmaq üçün Leninqrada gedir. İnşaallah məktəbə də qəbul olacaq. Mən Sizlərə çox minnətdaram.

***Artıq qonum-qonşular, kənd ağsaqqalları, hamısı Cavad kişigildədirlər. Süfrə başına yığışan qonaqlar, hamısı diqqətlə Məhəmməd kişiyə və Cavad kişiyə qulaq asırlar.***

**CAVAD KİŞİ:**

- Əziz qonaqlar, qohumlar, qonşular hamınız

xoş gəlmisiniz. Bu gün mənim oğlum uzaq bir səfərə çıxır. Məhəmməd dayıdan xahiş edirəm ki, elimizin – obamızın hörmətli ağsaqqalı kimi öz xeyir-duasını verəydi. Məhəmməd kişi, hamımız sizi eşidirik, buyurun.

**MƏHƏMMƏD KİŞİ:**

- Əziz balalarım, bu gün əlamətdar bir günü qeyd edirik. Elimizin- obamızın qeyrətli oğlu Rəhim, babaların şərəfli yolunu örnək tutaraq, hərb sənətini sevdiyindən və seçdiyindən hərbi məktəbə təhsil almağa gedir. Yolları uğurlu, bəxti açıq olsun. Cavad və Durnaya üzümü tutaraq deyirəm ki, Sizə halal olsun ki, belə bir oğul böyüdübsünüz, Vətən, torpaq, bayraq sevgisi düz amallı, düzgün və şərəfli yolu seçənlərə Tanrı özü kömək olar. Yəqin ki, bu gün buraya toplaşan cavanlarda da Rəhimdən örnək görütənlər olacaq. Bu yol şərəfli yoldur, bu peşə əsl kişi peşəsidir. Mərdlik məktəbində oxuyan hər kəsi mən bir ağsaqqal kimi alqışlayıram.

Allahdan arzu edirəm ki, dünyamızın bəzəyi sülh olsun. Sülhün keşiyində, Vətənin keşiyində dayanan oğullarımız var olsun. Şəxsən mən Rəhim kimi oğullarla fəxr edirəm. Və inanıram ki, o, Vətənimizin ən layiqli hərbçilərindən olacaq. Mən buna inanıram.

**CAVAD KİŞİ:**

- Sağ olun, Məhəmməd kişi, Allah sizin kimi ağsaqqalları bizim üstümüzdən əskik eləməsin.

**MƏHƏMMƏD KİŞİ:**

**-** Rəhim balamızı yola salmağa gələn musiqiçilərimizi də alqışlayaraq, onları da dinləsək lap yaxşı olardı.

***Musiqiçilər – tarı, kamanı kökləyə-kökləyə musiqi sədaları altında qonaqları salamlayırlar.***

***Muğam ifaçısı – segah oxuyur: -***

Qartallar oylağı, igidlər yurdu,
Dağlarda marallar boynunu burdu,
Təbiət qoynunda toy-büsat qurdu,
Çeşmə tək durusan, Vətən torpağı.

Sənin hüzuruna gəlməyənlərə,
Dərdini səninlə bölməyənlərə,
Sənin uğrunda ölməyənlərə,
Zindansan, quyusan, Vətən torpağı.

**DURNA ANA: - (*astadan):***

**-** Sağ ol ay bala, mahnını da Vətən torpağı ilə başladın. Torpaqdan müqəddəs nə var ki?

**ONUN YANINDA ƏYLƏŞƏN QADIN:**

**-** Ay Durna, fikir vermisənmi, torpağın ətri çiçəyin ətrindən də gözəl olur.

**DURNA ANA:**

**-** Atan rəhmətlik, mən də həmişə belə fikirləşirəm. Mən evdə dibçəkdə gül əkəndə də, çiçək açana qədər torpağın qoxusu ilə nəfəs alıram.

**AĞBİRÇƏK QADINLARDAN BİRİ:**

- Bala bunu hər kəs demir ha. Kökü elə-obaya bağlı olan adamlar torpaq –yurd sevən olurlar. Görürsünüzmü yağış yağandan sonra torpaqdan nə gözəl qoxu gəlir.

**DURNA ANA:**

- Özü də yaz yağışından sonra. Torpağın, gülün-çiçəyin ətrindən mən doya bilmirəm.

**AĞBİRÇƏK QADIN:**

- Ay bala, o da sənin zəhmətkeşliyindən irəli gəlir. Torpağın qoxusunu görüm hər kəs sevirmi? Elə o torpağı sevməyinə görə Moskvaya, sərgiyə dəvət aldın dayna.

**DURNA ANA:**

- Torpaq qoxusu, mənə həyat verir, nəfəs verir. Yeri-göyü yaradana şükür, bağımızdakı – bağçamızdakı torpağımızın bərəkəti də ailəmizin bol ruzusudur.

**AĞBİRÇƏK QADIN:**

- Bala, bala başına dönüm, bəs el arasında belə bir məsəl də var ki, - “Torpaq deyir öldür məni, dirildim səni”. Torpaqdan gələn qazanc tükənməz olar. İnşaallah halal zəhmətinizin barını halallıqla da yeyərsiniz...

**DURNA ANA:**

- Allah köməyiniz olsun. Allahdan diləyim budur ki, bütün analar öz arzusuna çatsın, dünyamızda salamatçılıq olsun.

***Gələn qonaqların diqqəti aynabənddəki xoş ətirli, qollu-budaqlı ətirşah gülünün gözəlliyi cəlb etmişdi.***

**VAHİD:**

**-** Durna xala, bayaqdan evinizin səliqə-səhmanına baxıram, ancaq bu dibçəkdəki gülün gözəlliyindən gözümü çəkə bilmirəm.

**DURNA ANA:**

**-** Ay bala, başına dönüm bu gül xoş ətirli olduğu qədər, həm də ürək üçün çox xeyirlidir.

**VAHİD:**

**-** Ürəyə necə xeyri var, ay Durna xala, hərdən mənim ürəyim məni yaman incidir. Sən Allah o xeyirli məsləhəti ver, bəlkə dərdimə əlac tapam.

**DURNA ANA:**

**-** Bala, başına dönüm, hələ nə yaşın var ki, ürəyin ağrıyır? Ürəyindəki ağrıların səbəbi nədir belə?

**VAHİD:**

**-** Durna xala, səbəbini heç özüm də bilmirəm. Atam rəhmətə gedəndən sonra başlayıb.

**DURNA ANA:**

**-** Bala, başına dönüm, bu gül min bir dərdin dərmanıdır. Allah qoysa bax bu gülün yarpağından dəmlənmiş çaydan bir-iki dəfə içərsən, inşallah ağrın-acın keçib gedər.

**VAHİD:**

**-** Allah səndən razı olsun. Ay Durna xala, elə sənin xoş sözlərindən sonra hər şeyi unutdum.

**DURNA ANA:**

**-** Eh! Ay bala, Allah heç kimi xəstəliklə sınağa çəkməsin. Ağrın-acın dağlara-daşlara . Sən bu çayı iç, xoşuna gəldə, anana da öyrədəcəm, sənin çayını "Ətirşah"dan dəmləsin.

**VAHİD:**

**-** Sağ ol, ay Durna xala, çayın ətri də gözəldi, rəngi də, əllərin var olsun.

**DURNA ANA:**

**-** Halal xoşun olsun, ay bala.

**CAVAD KİŞİ:**

**-** Ay arvad, uşağın başını çaynan qatma. Cavan oğlandı, qoy kababdan-zaddan yesin. ***( Üzünü oğlana tutaraq):*** - Ay bala, xəstəliyi boynuna alma, yaxın otur yaxşıca ye-iç.

**VAHİD:**

**-** Sağ olun, Cavad dayı. Vallah sizin ailənizdə mənə qarşı olan mehribançılığa görə bilmirəm Sizə necə minnətdar olum.

**CAVAD KİŞİ: -** Cavanlara mənəvi dayaq olmaq hər birimizin borcudur. Biz də belə şeyləri Məhəmməd kişi kimi ağsaqqallardan öyrənmişik.

**MƏHƏMMƏD KİŞİ:**

**-** Ay bala, mehribançılıq olan yerdə, bərəkət də olar. Əslində, bizim elin-obanın adamları mehriban adamlardır. Bax elə bu mehribançılığımız bizi bu gün Cavad kişigilə toplayıb. Təki belə günlərin sayı çox olsun.

**CAVAD KİŞİ:**

- Məhəmməd kişi, icazə versəydin, bu cavanlar qara zurnanın sədları altında qol süzdürüb oynayardılar.

**MƏHƏMMƏD KİŞİ:**

- Allah qollarına qüvvət versin, mən nə deyirəm ki.

***Qara zurnanın sədaları altında cavanlar oynayırlar***

**DURNA ANA:**

- Sağ ol, ay Cavad. Nə yaxşı iş gördün, musiqinin qara zurnanın sədalarından cavanlar yaman xoş oldular. Sən həmişə övladların üçün yaxşı nə varsa edirsən. Allah səni bizim başımızın üstündən əskik eləməsin.

***Qonaqlıq sona yetmək üzrədir. Hamı sağollaşıb gedir. Durna ana qızları ilə süfrəni yığışdırıb, qab-qacaqları yuyub səliqə ilə yığışdırırlar.***

***Artıq gecədən xeyli keçmişdir.***

**DURNA ANA:**

- Ay qızlar, artıq gecə keçir. Səhər tezdən oyanacağıq, az da olsa gözümüzün yorğunluğunu alaq. Gecəniz xeyrə qalsın.

**İşıq sönür**

**PƏRDƏ**

## IV ŞƏKİL

***Sübh tezdəndir. Durna ana hamıdan tez oyanıb. Samovarı qaynadıb, çay süfrəsini açıb.***

**CAVAD KİŞİ:**

**- *( Eyvandan aşağı enərək):* -** Ay Durna çayın hazırdırsa bir stəkan mənə çay süz. Yaman narahatam. Rəhimi də oyat, bir saatdan sonra vağzalda olmalıyıq. Uşaq da çayını içsin, vaxtında gedək.

**DURNA ANA: - *(aynabənddən aşağı enən oğlunu görcək):***

**-** Sabahın xeyir olsun, ay bala, nə yaxşı vaxtında oyandın, gəl çay-çörəyini ye, atanla indi yola düşürsən.

**RƏHİM:**

**-** Sizin də sabahınız xeyir olsun, ay ata, ay ana.

***Onlar birlikdə süfrə başına əyləşirlər. Çay içib, çörək yeyəndən sonra Rəhim bacı və qardaşları ilə görüşüb yola düşürlər.***

**DURNA ANA: - ( *onların arxasınca su ataraq):***

**-** Yolların su kimi aydın olsun ay bala. Gün o gün olsun ki, sağ-salamat təhsilini başa vurub, vətənə qayıdasan, - deyərək ana onların arxasınca baxır.

**İşıq sönür**

**PƏRDƏ**

## V ŞƏKİL

***Eyni səhnədir, günortaya yaxındır. Durna ana yaman narahatdır. Bulaq başına getmək də hələ tezdir. Ona görə xəmir yoğurub təndirdə çörək bişirmək qərarına gəlir. Xəmiri yoğurur, üstünü örtüb bağa enir.***

**DURNA ANA:**

**-** Rəhim, ay Rəhim, ay Allah, bu uşaq hara getdi. Ay Allah görəsən hardadır ki, səsimə səs vermir?

**Şahnaz anasının səsini eşidib bağa enir.**

**ŞAHNAZ:**

- Ana, sən kimi çağırırsan?

**DURNA ANA:**

**-** Bala, səhərdən Rəhimi axtarmaqdan əldən düşdüm, qardaşın bilmirsən hara gedib?

**ŞAHNAZ** (***təəccüblə):***

**-** Ana, ay ana səhər tezdən Rəhimi atamla yola salmadınmı?

**DURNA ANA: -** ***(qızını qucaqlayaraq):***

**-** Bala, başına dönüm, nə yaxşı sən mənim səsimi eşidib gəldin. Yoxsa qonum-qonşu eşitsəydi deyərdilər ki, arvadın başına hava gəlib. Ay Allah, bu nə işdi mənim başıma gəldi. Öz əllərimlə uşağı yola salmışam, özümdə enib bağda onu axtarıram. (***Gilas ağacına yaxınlaşıb budağından tutaraq)-*** Oğlumun əkdiyi ağaca bax, meyvələri elə bil muncuqdu, sanki əl ilə düzülüb. Hələ buna bax, balam dünən bu ağacın

yanından keçəndə ayaq izləri də torpaqda qalıb. (*Ana əyilib torpağı ovcuna alaraq):* Balamın ayağı dəyən torpaqdan gələn qoxu (*ovcunu siə-sinə sıxır).*

**ŞAHNAZ:** - *(anasının kövrəldiyini görərək):*

- Ay ana, özün deyirdin ki, səfərə çıxanın arxasınca ağlamazlar. Özün də uşaq kimi kövrəlmisən.

**DURNA ANA:**

- Eh! Ay qızım ana ürəyi kövrək olur, neyləyim dözə bilmirəm.

**FATMA NƏNƏ** *(səsi gəlir)*:

- Sabahın xeyir, ay Durna bacı. Səhər-səhər bağda nə edirsən?

**DURNA ANA:**

- Eh! Ay Fatma, sən bilmədin başıma nə gəlib, uşağı öz əlimlə yola salmışam, özüm də bağa enib onu axtarıram.

**FATMA NƏNƏ** (*yaxınlaşır):*

- Ay Durna, anaların peşəsidi də, övladdan ötrü nigaran qalmaq Vallah mənim böyük oğlum əsgər gedəndə bir aya qədər hər səhər durub onu çağırırdım. Sonra evdə qızlara tapşırdım ki, mənə nəzarət etsinlər. Sözün düzü özüm-özümə fikirləşirdim ki, qonum-qonşu elə bilər ki, dəli olmuşam.

**DURNA ANA: -** (*gülümsəyərək):*

- Yeri-göyü yaradana and olsun ki, sən gələnə qədər mən də qızıma sən deyən kimi

başa saldım ki, məni gözdən qoymasın. Vallah bilmirəm, sən necə dözdün, mən çətin ki, dözə billəm. Hələ bura bax, səhərdən balam becərən ağacların budağından əlimi üzə bilmirəm.

**FATMA NƏNƏ:**

- Bəs ovcundakı nədir, ay Durna bacı?

**DURNA ANA:**

- Ağacın dibindən götürmüşəm, torpaqdı. Ovcuma almışam ki, qız gəldi çıxdı. Bir az təskinlik tapdım. Ay bacı, darıxsam belə əlimdən nə gəlir ki, yeri-göyü yaradan Allah hamının balasına kömək olsun, içində də mənim balama.

**FATMA:**

- İlahi, amin!

**CAVAD KİŞİ (*həyətə yaxınlaşır):***

- Ay uşaq, ay bala, evdəkilər hara gedib?

**DURNA ANA:**

- Ay Cavad, burada bağdayıq.

***Ovcundakı torpağı ehmalca ağacın dibinə səpib, ovcunu bir-birinə sürtərək evə tərəf gedir.***

**DURNA ANA:**

- A kişi, çoxdanmı gəlmisən? Sən Allah nə təhər yola saldın Rəhim balamı? İnan ki, havalanmaq dərəcəsinə gəlmişəm.

**CAVAD KİŞİ:**

- Yox, elə bir az var ki, gəlmişəm, ancaq həyətdəki səssizlikdən narahat oldum ki, görəsən hara gedibsiniz? Rəhimi də ki, qatarla yola sal-

dım. Bir tanış var idi, ona da tapşırdım ki, gözü üstündə olsun.

**DURNA ANA:**

- A kişi, sən Allah sən də hiss edirsənmi ki, evdə elə bil boşluq var.

**CAVAD KİŞİ:**

- Hə, arvad, Rəhim balamın yamanca yeri görünür. Başına döndüyüm evdə olanda elə bil həyət-baca qaynayırdı.

**DURNA ANA:**

- Ay atan rəhmətlik, elə bil mən deyə bilmədiyimi sən dedin.

***Aynabənddən Bənövşənin səsi gəlir:***

**BƏNÖVŞƏ:**

- Ana, Rəhimin kitablarını hara qoyum?

**DURNA ANA:**

- Hara qoyacaqsan, bala, qoy elə öz stolunun üstündə qalsın.

**BƏNÖVŞƏ:** ***- (Əlindəki rəsmi göstərərək):***

- Ana, gör Rəhim nə gözəl şəkil çəkib.

**DURNA ANA:**

- O, şəkli də divardan as. Ay qızım, o şəklə baxım görüm nə çəkib. (şəklə baxaraq, öz-özünə):- Bu əsgər şəkilləridir, bu tank, bu da top şəkilləridir. Bala, hər iki şəkli də yanaşı as, heç olmasa onlara baxıb təsəlli taparam.

**İSMAYIL:**

- Ana, bacımın boyu balacadı, onun əli yuxarı çatmaz, şəkli divardan özüm asaram.

**DURNA ANA:**

**-** Boynuna qurban, ay bala, lap yuxarıdan as ki, uşaqlar cırmasınlar.

**İSMAYIL**:

- Narahat olma, ana**.** Sən ki, bu işi mənə həvalə etmisən.

***İsmayıl və Bənövşə həvəslə divardan şəkilləri asırlar***

**PƏRDƏ**

**VI ŞƏKİL**

***Rəhimin getməsindən xeyli keçmişdir. Birdən darvaza tərəfdən səs gəlir. Poçtalyon həyətə daxil olur.***

**POÇTALYON:**

**-** Durna bacı, Durna bacı, gözün aydın oğlundan məktub gəlib.

**DURNA ANA:**

**-** Az, sənin başına dönüm, səni görüm şad xəbər olasan. Sən Allah bu şirinliyi də götür. ***(stolun üstündən qabdan bir ovuc konfet götürüb poçtalyonun çantasına töklür).*** Allah səni sevindirsin, ay bacı, məktubu özün gətirmisən, qadan alım özün də aç, görək oğlum nə yazıb.

**POÇTALYON:**

**-** Mənim gözüm üstə, təki sənin könlün şad

olsun. Mənim də taleyimə hərbçi analarını məktubla sevindirmək düşüb.

**DURNA ANA:**

- Vallah, elə ən xeyirxah və savab işi də sən görürsən.

**POÇTALYON: - *(konverti aça-aça sevincək halda):***

- Gözün aydın, ay Durna, bacı hələ sən bu şəkillərə bax.

**DURNA ANA (*oğlunun hərbi libaslı şəklini öpüb ürəyinə sıxaraq):***

- Allahım, sənə şükürlər olsun, balam lap generala oxşayır.

**POÇTALYON:**

- Ay Durna bacı, hələ bir buna bax, komandirdən də təşəkkür məktubu gəlib.

**DURNA ANA:**

- Ay Cavad, məktubu sən özün oxu görək oğlumun komandiri nə yazıb.

***Cavad kişi təşəkkür məktubunu əlinə götürüb oxuyur:***

***Hörmətli Cavad İsmayıl oğlu və Durna Minbaşı qızı Y.V.Andropov adına Leninqrad Hava Hücumundan Müdafiə Hərbi Siyasi Məktəbinin Komandanlığı Sizə bildirir ki, Sizin oğlunuz Rəhim Cavad oğlu öz hərbi xidməti borcunu yerinə yetirməkdə məktəbin nümunəvi kursantıdır. Məktəbdə təhsil aldı-***

*ğı ilk günlərdən, o hərbi biliklərə dərindən yiyələnmək üçün yorulmaz əməksevərliyi və çalışqanlığı ilə seçilmişdir. Hərbi xidmətə şüurlu münasibəti, tədris proqramının dərindən mənimsənilməsinə səylə çalışması, ictimai işlərdə fəallığı, söz və işlərində dürüstlüyü onu həmişə başqalarından fərqləndirən xüsusiyyətləridir.*

*Məhz bu keyfiyyətlərinə görə kursant yoldaşları ondan nümunə götürərək, ona oxşamağa çalışırlar. Rəhimin yüksək mənəvi-işgüzar keyfiyyətlərini nəzərə alınaraq, təhsil aldığı manqaya onu komandir təyin edilməsinə qərar verilmişdir.*

*Hörmətli valideynlər!*

*Məktəbin komandanlığı və kollektivi belə bir oğul tərbiyə edərək böyütdüyünüzə görə Sizə dərin təşəkkürünü bildirir.*

*Əminik ki, oğlunuz Rəhim zabit-siyasi rəhbər olduqdan sonra da, Vətənimizin müdafiəsi naminə səylə çalışacaq, Silahlı Qüvvələrdə komissar və siyasi rəhbərlərin şanlı ənənələrinin davamçısı olacaqdır.*

*Hörmətlə:*
*Məktəb rəisi general-mayor A.Qaydyükov*
*Siyasi şöbə rəisi polkovnik V.Qonçarov*

**DURNA ANA:**

- Ay Cavad, sən Allah bu təşəkkür məktubunu da, Rəhimin şəkillərini də aparaq, Məhəmməd babası baxsın.

**CAVAD KİŞİ:**

- Lap yerinə düşər. Məhəmməd babası hər gün soruşur ki, bəs Rəhimdən məktub gəlirmi? Əslində Məhəmməd kişi, Rəhimdən ötrü bizdən də çox darıxır.

***Elə bu anda Fatma nənə darvazanı açıb həyətə daxil olur.***

**FATMA NƏNƏ:**

- Deyəsən poçtalyon xeyir xəbər gətirib.

**DURNA ANA:**

- Xeyir xəbər eşidəsən, ay Fatma xala, elə sənin fikrinə gələn xeyir xəbərdi. Rəhimin komandiri bizə təşəkkür məktubu yollayıb.

**FATMA NƏNƏ:**

- Gözün aydın, ay Durna.Gün o gün olsun ki, sağ-salamat hərbi məktəbi bitirib gəlsin.

**DURNA ANA:**

- Allah ağzından eşitsin, ay Fatma xala. Allah-Təala qəriblikdə olanlara dayaq olsun.

**FATMA NƏNƏ:**

- İlahi, amin!

**MƏHƏMMƏD KİŞİ (*qonşuların səs-küyünü eşidib həyətin o biri tərəfindən*):**

-Ay bala, ay Cavad, o nə səs-küydür, nə olub orda?

**CAVAD KİŞİ:**

**-** Məhəmməd kişi, sənin sevimli Rəhim baladan şəkil, komandirindən də təşəkkür məktubu almışıq. Sevincimizdən səsimiz-küyümüz aləmi bürüyüb. İndi gətirərəm sən də baxarsan.

**MƏHƏMMƏD KİŞİ:**

**-** Gətir, ay bala, şad xəbər olasan.

***Cavad kişi şəkli və təşəkkür məktubunu da götürüb Məhəmməd kişinin həyətinə keçir. Birdən poçtalyon divarda olan şəkli görür.***

**POÇTALYON:**

**-** Ay oğlum, bu şəkli özünmü çəkmisən?

**İSMAYIL:**

- Yox, qardaşım çəkib.

**POÇTALYON *(şəklə baxaraq):***

**-** Əsgər şəkilləri nə gözəldir. Durna bacı, şirinlik-zad istəmirəm, sən Allah bu əsgər şəkillərini mənə verin. Mənim balaca oğlum belə şəkilləri yaman sevir. O gün özü bir az cızma-qara etmişdi, sözün düzü, yaxşı da çəkməmişdi.

**DURNA ANA (*Divardan şəkli götürərək):***

**-** Apar, bu şəkli Rəhimin adından balaca oğluna ver. De ki, bu şəkli sənə Rəhim qardaşın çəkib. Allah qoysa, Rəhim oxuyub qayıdana qədər sənin oğlun da böyüyər. Bir də ki, nə bilirsən, bəlkə elə sənin oğlun əsgər gedəndə, Rəhim də onun komandiri olacaq.

**POÇTALYON:**

- Təki o günü görək. Rəhim balam sağ-salamt oxuyub, qayıtsın və gün o gün olsun ki, mənim oğlumun komandiri olsun.

**DURNA ANA:**

- Allah ağzından eşitsin.

**POÇTALYON (Şirniyyatla çay içib, qəzetləri qoltuğuna vuraraq)**:

- Durna bacı – bu rəsmləri mənim oğluma bağışldığın üçün çox sağ ol. Uşağım çox sevinəcək ***(onlarla sağollaşıb gedir).***

**PƏRDƏ**

**VII ŞƏKİL**

***Rayon mərkəzi. Kursant Rəhim yay tətilinə gəlib yaşıdlarıyla dayanıb söhbət edir.***

**SƏRDAR KİŞİ (*onlara yaxınlaşaraq):***

- Oğlum, sən kimin oğlusan? Allah bəd nəzərdən qorusun, nə yaraşıqlı oğulsan. Əynindəki hərbi geyim sənə elə yaraşır ki. Hansı məktəbdə, harada təhsil alırsan?

**RƏHİM:**

- Cavad kişinin oğluyam. Rusiyada hərbi məktəbdə təhsil alıram.

**SƏRDAR KİŞİ:**

- Əhsən sənə oğul, sənin atanı yaxşı tanıyıram. Çox halal və zəhmətkeş adamdır. ***(Sərdar***

***kişi təbəssümlə): -*** Ay oğul, sən Allah gəlin bizə gedək, sizə bir ata kimi qonaqlıq vermək istəyirəm.

**RƏHİM:**

**-** Sərdar dayı, çox sağ olun, əziyyət çəkməyin.

**SƏRDAR KİŞİ:**

**-** Ay bala, Vallah heç bir əziyyəti yoxdur. Əslində, istəyirəm ki, mənim oğullarım Xaqani, Sərvər də səninlə tanış olsunlar. Onlar hələ orta məktəbdə oxuyur, səninlə tanış olandan sonra bəlkə elə onlar da sənin kimi hərbçi oldular. Bu mənim ən böyük arzumdur. Bu gündən sən də oldun mənim oğlum.

**SƏRDAR KİŞİ** ***(söhbət eləyə-eləyə dəmir darvazanı açır və Gülarə xanıma xoş əhval-ruhiyyə ilə):***

**-** Gülarə, Gülarə, gör bir bizə kim onaq gəlib.

**GÜLARƏ:**

**-** İlahi, nə gözəl baladır, boyuna qurban, ay oğul, kimin oğlusan?

**SƏRDAR KİŞİ:**

**-** Ay arvad, bizə gəlibsə, deməli, bizim oğlumuzdur.

**GÜLARƏ:**

**-** Ay Sərdar, qonağın payını Allah yetirir, səhərdən mən də ləzzətli yeməklər bişirirəm, elə bil ürəyimə dammışdı ki, belə bir oğul bizə qonaq gələcək.

**RƏHİM: -** Gülarə xala, sən Allah əziyyət çəkməyin, tələsirəm, anam xəstəxanada yatır, ona baş çəkməliyəm, bir stəkan çay içəcəm.

**GÜLARƏ:**

**-** Bala, sənin başına dönüm, ananla mən yaxın rəfiqəyəm, niyə, nə olub, olmasın azar. Siz çay-çörək yeyənə qədər mən də hazırlaşım, səninlə biz də gedək anana baş çəkək.

***Gülarə o biri otağa keçir. Xəstəxanaya getmək üçün hazırlıq görməyə başlayır. Rəhim isə çay içir.***

**RƏHİM:**

**-** Gülarə xala, əziyyət çəkməyin. Bacılarım səhər tezdən hər nə lazımdırsa, bişirib aparıblar.

**GÜLARƏ:**

**-** Ay oğul, sənin anan mənim yaxın rəfiqəm olub.Mən bişirən xörəkləri də yaman sevir. O, bişirən xörəkləri də mən sevirəm. Ancaq Durnanın hazırladığı xörəklərin dadı da gözəldir.

**SƏRDAR KİŞİ:**

**-** Allah qoysa, Durna xəstəxanadan çıxanda da biz sizə qonaq gedəcəyik. Hələ ki, Gülarənin yaxın rəfiqəsi xəstəxanadadır. Biz mütləq ona baş çəkməliyik.

**GÜLARƏ *(dolu zənbilləri götürərək):***

**-** Artıq mən hazıram, gedə bilərik.

***Sərdar kişi zənbilləri götürmək istəyir.***

**RƏHİM:**

**-** Sərdar əmi, Gülarə xala yaman ağır zənbillər hazırlayıb. Siz götürməyin, özüm götürərəm.

**GÜLARƏ:**

**-** Allah səni qorusun, ay bala bir də yolumuz xəstəxanaya yox, yaxşı yerlərə, toya-düyünə düşsün.

**SƏRDAR KİŞİ:**

**-** Eh, ay oğul, sənin bu Gülarə xalan toya-düyünə getməyi yaman xoşlayır. Allah qoysa, gör sənin toyunda Gülarə xalanla Sərdar əmin necə qol süzdürüb oynayacaqlar.

**GÜLARƏ:**

**-** Allah-Təala bütün el-obaya toy qismət eləsin. Durna bacıma da Allah şəfa versin. Sağ-salamat evində - ocağında olsun.

**RƏHİM:**

**-** Sağ olun, ay Gülarə xala, yəqin ki, anamın bizim gəlişimizdən xəbəri yoxdur.

**GÜLARƏ:**

**-** Ay bala, xəstəyə baş çəkmək, onu sevindirmək, könlünü şad etmək özü də bir məlhəmdir. Ən əsası da ay oğul, o, səni görən kimi bütün ağrılarını unudacaq.

**SƏRDAR KİŞİ:**

**-** Təki elə olsun. Rəhim də tətil günlərində evdə yaxşıca dincələr.

**GÜLARƏ:**

**-** Allah böyükdür, heç bir bəndəsini naümid qoymaz. Tezliklə Durna sağalar.

***Yol boyu söhbət eləyə-eləyə xəstəxanaya tərəf gedirlər.***

**PƏRDƏ**

**VIII ŞƏKİL**

***Xəstəxana, Palata.***

**DURNA ANA *(yuxuda sayıqlayır):***

- Rəhim, oğlum haradasan, gözümüz işığı.

**RƏHİM *(əyilib anasının alnından öpərək):***

- Yanındayam ana.

**DURNA ANA *(gözünü açaraq):***

- Boyuna qurban ay oğul, nə vaxt gəlmisən. Allah bilir elə mən yuxuya gedəndən başımın üstündə dayanmısan. ***(Rəhimi qucaqlayıb öpür).*** Gülarə ay bacı səndəmi gəlibsən, hamı burada imiş, mən isə şirin yuxuda.

**GÜLARƏ:**

- Ay Durna bacı, yastığın yüngül olsun, nə olub sənə, Vallah Rəhim deyəndə bildim. Allah Sərdar kişinin atasına rəhmət eləsin, nə yaxşı Rəhimi bizə qonaq gətirdi. Vallah Rəhim bizə gəlməsəydi, mənim heç nədən xəbərim olmyacaqdı. Sən Allah ürəyin-könlün nə istəyir de, özüm bişirim sənə gətirim.

**DURNA ANA:**

- Ay Gülarə bacı, çox sağ ol, qızlar hər gün yanıma hər şey də bişirib gətirirlər.

**GÜLARƏ:**

**-** Durna bacı, qızların hələ uşaqdırlar, çətinlik çəkməsinlər deyə elə uşaqların da, sənin də yeməyini sən xəstəxanadan çıxana kimi özüm bişirəcəm.

**SƏRDAR KİŞİ:**

**-** Durna bacı da, lap tez sağalar, Gülarənin bişirdiyi yeməyin ləzzəti adamın damağında qalır. ***(gülərək):-***Elə ona görə də Gülarənin yanağından yağ damır. ***(hamı gülür).***

**DURNA ANA:**

**-** Allah köməyiniz olsun, vallah sizin gəlişinizdən ürəyim şad oldu. Bayaqdan yaman darıxıram.

**GÜLARƏ:**

**-** Rəhim kimi oğlu olan ana da heç xəstələnərmi?

**DURNA ANA:**

**-** Daha sağaldım, indi özümü gümrah hiss edirəm.

**RƏHİM:**

**-** Ana, bəlkə elə bu gün xəstəxanadan çıxasan, evimiz sənsiz yaman soyuq görünür.

**DURNA ANA:**

**-** Mən elə bu gün həkimə deyərəm, sabah çıxaram. Həm də sən tətilə gəlmisən ki, evimizdə anan bişirən yeməyi yeyəsən. Mən də xəstəxanaya düşdüm. Yox, mən burada daha yata bilmərəm, həm də ki, səndən nigaranam, daha da xəstələnərəm.

**RƏHİM:**

- Yox, ana, sənin sağalmağın mənə yeməkdən-içməkdən də vacibdir.

**DURNA ANA:**

- Sabah mütləq çıxacam. Rəhim, ay oğul, sabah gələndə həyətimizdəki qızılgüldən bir dəstə gətir, həkimə verəcəm. Mən buraya gələndə özümlə gətirmişdim, qoxusu palatanı bürümüşdü. Güllər soldu, ancaq gülün dibindən tökülən torpağı yaylığımın arasında yastığımın altına qoymuşam. Vallah torpağın qoxusu da çiçək ətri verir.

**RƏHİM (*gülümsəyərək):***

- Elə bil anam qürbət elə gedib, torpağı niyə özünlə gəzdirirsən.

**DURNA ANA:**

- Ay bala, səndən niyə gizlədim, xəstəxanaya çox ağır vəziyyətdə gəlmişdim. Fikirləşdim ki, ölüb-eləyərəm, bu qurban olduğum torpağı ürəyimin başına qoyarlar.

**GÜLARƏ:**

- Ay Durna, sən Allah uşağın yanında belə danışma, fikir eləyər. Sənə nə olub ki, lap yaxşısan.

**DURNA ANA:**

- Həkimləri sağ olsunlar, onlar məni yenidən həyata qaytardılar. Bəlkə də bu torpağın qoxusunda da bir sirr, möcüzə var. Vallah axşamlar yatmazdan öncə dərman-zad içmirdim.

Ciyəri dolusu bu torpaqdan nəfəs alırdım. Nə bilim ay Gülarə siz Allah məni qınamayın, mən də torpaq vurğunuyam. Elə bilirəm ki, dünyada ən qiymətli şey Vətən torpağıdır!

**GÜLARƏ:**

**-** Torpağını sevən ananın oğlu da hərbiçi olar da. Vallah sənin oğlun bu yaşında bütün gənclərə örnəkdir. Elə bizim uşaqlar da Rəhim kimi hərbçi olmaq arzusundadırlar.

**DURNA ANA:**

**-** Allah bütün cavanları öz arzularına çatdırsın.

**GÜLARƏ: -** İlahi, amin!

***Elə bu anda həkim palataya daxil olur.***

**HƏKİM:**

**-** Durna ana, maşallah bu gün gümrah görünürsən. Gözün aydın, oğlun da gəlib ki.

**DURNA ANA:**

**-** Aydınlıq içində olasan, ay həkim. Sizdən bir şey xahiş edəcəm.

**HƏKİM:**

**-** Buyurun.

**DURNA ANA:**

**-** Özümü yaxşı hiss edirəm, deyirəm, bəlkə məni evə buraxasınız?

**HƏKİM:**

**-** Durna ana, mən sizi lap yaxşı başa düşürəm, oğlun da tətilə gəlib, səhhətin bir az yaxşılaşıb. Sizi evə yazsam da, gərək tez-tez müayinəyə gələsiniz, dərmanlarınızı vaxtlı-vaxtında

qəbul edəsiniz. ***(Elə bu anda həkimin gözü ananın sinəsi üstünə tökülmüş torpağa sataşdı).*** Ay xanım, sinəninə tökülən torpaq nədir?

**DURNA ANA:**

**-** Sənə qurban, ay oğul, yaylığımın arasından tökülüb.

**HƏKİM:**

**-** Hansı yaylığın?

**DURNA ANA:**

**-** Öz yaylığım arasında saxladığım torpaqdı.

**HƏKİM *(yaylığı açır və kövrəlir):***

- Durna ana, siz məni kövrəltdiniz.

**DURNA ANA:**

**-** Niyə, ay həkim, nədən kövrəldiniz?

**HƏKİM:**

**-** Mən hələ uşaq idim, atam söyləyirdi ki, babam qürbət eldə son nəfəsində Vətən torpağı istəyibmiş. Sovetlər dövrünün sərt rejimi olduğundan onun vəsiyyətinə əməl edə bilməmişdi atam. Ancaq sonradan onun məzarını ziyarət etməyə gedəndə Vətən torpağından aparıb onun məzarı üstünə səpmişdi. Ondan sonra babam, atamın yuxusuna girmişdi və Vətən torpağının qoxusuna qovuşduğunu deyibmiş...

**DURNA ANA:**

**-** Allah heç kimin yolunu qürbətə salmasın, ay bala. Allah babana rəhmət eləsin, atan da çox sağ olsun ki, gec də olsa onun vəsiyyətini yerinə yetirib. Ondan savab iş yoxdur.

**HƏKİM:**

**-** Durna ana, siz gözəl ana olduğunuz qədər də vətənpərvər qadınsınız. Elə ona görə də oğlunuz da hərbi peşəni seçib. Əhsən sizə!

**RƏHİM:**

**-** Məni çox tərifləməyin, onu zaman göstərəcək.

**GÜLARƏ VƏ SƏRDAR *(birlikdə):***

**-** Ay bala, elə siz ailəliklə tərifə layiqsiniz.

**HƏKİM:**

**-** Mən də sizin sözlərinizə ürəkdən şərikəm.

***Elə buanda tibb bacısı əlində dərman palataya daxil olur.***

**TİBB BACISI:**

**-** Doktor, Durna ananın səhhəti deyəsən lap yaxşıdır.

**HƏKİM:**

**-** Siz də deyirsinizsə, deməli xəstənin səhhəti lap yaxşıdır. Elə bu gündən evə yazıram. Ancaq Durna ana, bir şərtlə gərək mən deyənlərə əməl edəsən.

**DURNA ANA:**

**-** Çox sağ olun, ay həkim, mən sizin əziyyətinizə qıyarammı, hər gün də müayinəyə gələrəm.

***Gülarə xəstənin pal-paltarını yığır, Durna ana Tirmə yaylığını başına bağlayır, xəstəxananın işçiləri ilə sağollaşırlar.***

**İşıq sönür**

**PƏRDƏ**

# II PƏRDƏ

## I ŞƏKİL

***Kənd əhalisi vahimə içərisindədir. Ataş səsi,barıt qoxusu aləmi bürüyüb.Kənd sovetinə toplaşan cavanlar, ağsaqqallar arasında kənd ağsaqqalı Sərdar kişi qəlyanını yandıraraq o yan bu yana var-gəl edirdi.***

**KƏND SOVETİ** ***(orta yaşlı kişi):***

- Sərdar kişi, belə olmaz. Axı kənddə cavanlar qalmayıb, hamısı döyüşə getməyə ərizə yazıb.

**SƏRDAR KİŞİ:**

- Bəs necə olmalıdır, bu dağları yağıya verməkmi olar, ay bala? Bax bu cavanların qeyrətinin qadasını alım. Mənim üç oğlumun üçü də davadadır. Hələ aparsalar mən də gedcəyəm.

***Elə bu anda gənc leytenant Sərdar kişiyə yaxınlaşaraq:***

**RƏHİM:**

- Ay əmi, biz olan yerdə, siz niyə döyüşə gedirsiniz, döyüşə biz getməliyik.

**SƏRDAR KİŞİ:**

- Ayə, başına dönüm, ay bala, bu sənsənmi ***(gənc leytenantın boynundan qucaqlayaraq):***
- Bala, sn Rəhim deyilsənmi? Ay bala, başına dönüm lap vaxtında gəlmisən.

**RƏHİM:**

- Elə mən də bu harayı eşidib gəlmişəm.

Rusiyada təhslimi başa çatdırandan sonra Qazaxıstanda xidmət edirdim. Vətənimin dar günündə mən də başaları kimi köməyə gəldim.

**KƏND SOVETİ:**

**-** Əhsən sənə, oğul, bu Cavad kişinin oğlu deyilmi? Sənin başına dönüm ay oğul, Kənd soveti olsam da hərbidən başım çıxmır ***(sənədləri onun qarşısına qoyur),*** bax gör bu ərizə yazanlardan döyüşə getməyə hamının yaşı çatırmı?

**RƏHİM:**

**-** Əgər ərizəni könüllü yazıblarsa deməli hamısının yaşı da düşür, cürəti də çatır.

**SƏRDAR KİŞİ:**

**-** Torpaq yetişdirib də vallah belə oğulları olan Vətən basılmaz. Hamınızın uğurunuz xeyir olsun. Allah sizə yar olsun.

***Elə bu anda Kənd sovetindən bir az aralıya qrad mərmisi düşür. Partlayış səsindən az qalır qulaq tutula.***

**RƏHİM:**

**-** Qadınları, qızları təhlükəsiz yerlərə aparın.

***Əsgərlər əks tərəfdən yaxınlaşırlar***

**KOMANDİR POLKOVNİK HƏSƏNOV *(üzünü əsgərlərə tutaraq):***

**-** Salam gənc əsgərlər.

**ƏSGƏRLƏR:**

- Salam, yoldaş polkovnik.

**POLKOVNİK HƏSƏNOV:**

**-** Vətənin dar günündə Vətən keşiyində da-

yanmaq hər bir əsgərin, zabitin şərəfli peşəsidir! Çətin və şərəfli yolda qələbə naminə irəli!

***Əsgərlər əllərində silah döyüşə vəziyyəti alır, sonra komandir əsgərləri sıraya düzüb sonuncu cərgədəki arıq, balacaboy oğlanı görür;***

**POLKOVNİK HƏSƏNOV:**

- Ay bala, sən niyə sırada durmusan?

**BALACABOY ƏSGƏR:**

- Yoldaş komandir, boyum balaca olsa da artıq əsgərə getmək vaxtımdır. Mənim 18 yaşım sabah tamam olacaq.

**POLKOVNİK HƏSƏNOV:**

- Gözləyəydin yaşın tamam olaydı da.

**ƏSGƏR:**

- Cənab komandir, mən ərizə ilə müraciət etmişəm, könüllü əsgər gedənlərdənəm.

***Elə bu dəmdə poçtalyon qadın onlara yaxınlaşır:***

**POÇTALYON QADIN:**

- Yoldaş komandir, mən də oğlumun döyüşə getməyinə razıyam. Siz Allah, onu da özünüzlə aparın. Mən oğlumu Vətən üçün böyütmüşəm.

**POLKOVNİK HƏSƏNOV:**

- Yaxşı qoy getsin. Könlü Vətən eşqi ilə döyünən oğulları bizim sıralarımızda görməyimizdən şad oldum.

**POÇTALYON QADIN *(Kəlağayısının ucu ilə gözünü silərək):***

- Allah bütün əsgərlərimizə dayaq olsun. ***(əlindəki kitabçadan şeir oxuyur):***

*Halal süd əmmiş oğul,*
*Haqq da sənə tərəfdir.*
*Vətən yaman dardadır,*
*Keşik çəkmək gərəkdir.*
*Yağır hələ güllələr,*
*Torpağın üstə dən-dən.*
*Tanrı sizi qorusun,*

*Pis gözdən, pis nəzərdən.*
*Qartal kimi qanad çal,*
*Şığı düşmən üstünə,*
*Durmasın yağı düşmən*
*Heç vaxt sənin qəsdinə..*

***Əsgərlər əl çalırlar. Hamısı bir ağızdan, "sağ ol, ay ana, sağ ol, ay ana"- deyərək irəliyə addımlayırlar.***

**PƏRDƏ**

**II ŞƏKİL**

***Cəbhə xətti. Qızğın döyüşlər gedir,komandir əlindən yaralansa da geriyə dönmək fikri yoxdur. Birdən çavuş ona yaxınlaşaraq: cənab komandir, indi bizə məlumat daxil olub ki, meşədəki əsgərlərimiz mühasirəyə düşüblər.***

**POLKOVNİK HƏSƏNOV:**

- Onları mühasirədən xilas etməliyik.

***Əməliyyat qrupu hazırlanır.Qızğın döyüşlər gedir. Gənc leytenant komandirə döyüş tapşırığından müvəffəqiyyət*lə *çıxdıqlarını bildirir.***

**POLKOVNİK HƏSƏNOV:**

- Düşmən, onsuz da düşməndir. Ancaq mühasirəni yarıb çıxanlara və düşmən texnikasını məhv edənlərə təşəkkür elan edirəm.

***Əsgərlər komandirin diqqətindən razı qalırlar və yenidən döyüşə atılmağı planlaşdırırlar. Döyüş yenidən başlayır. Qan su yerinə axır. Elə bu zaman snarper balaca əsgəri hədəfə alır, əsgər hamının gözü önündə canını tapşırır***.

**ƏSGƏRLƏR** ***(ölmüş əsgəri dövrəyə alırlar):***

- Seymur, Seymur, qalx ayağa, qardaş. Biz sənin anana bu qara xəbəri necə çatdıracağıq.

***Hamı bir dəqiqə sükutla dayanır. Meyidi xərəyə qoyub qabağa gətirirlər və oradan isə, doğulduğu kəndə aparmaq üçün zabit və əsgər gərək olduğunu söyləyirlər. Bu zaman Rəhim sanki göydən peyda olubmuş kimi təəccüblə.***

**RƏHİM:**

- Aman Allah bu ki, poçtalyon qadının oğludur. İlahi, bu necə oldu belə. Yazıq ana ***(dərin fi-***

***kir içərisində).*** İcazə versəydilər cənazəni mən özüm aparardım.

**POLKOVNİK HƏSƏNOV:**

**-** Rəhim bilirəm, bu çox çətindir, siz o ailəni tanıdığınız üçün sizin getməyiniz məsləhət görülür.

**RƏHİM:**

**-** Tabutun üzərinə Azərbaycan bayrağı sərin, şəhidin kəfəni bayraqdan yoğrulub.

***Əsgərlər tabutun üstünə ay-ulduzlu bayrağı sərirlər. Maşın şəhidin doğulduğu kəndə tərəf yol alır.***

**PƏRDƏ**

**III ŞƏKİL**

***Kənd qəbristanlığı. Kənd əhalisi oraya axışır.***

**POÇTALYON QADIN:**

*Elim-obam yığışın,*
*Dünya başıma uçub.*
*Mən balamın meyidini,*
*Balam bayrağı qurub.*
*Aman fələk yanasan,*
*Mənim kimi yanasan.*

**ƏSGƏRLƏRDƏN BİRİ:**

- Ağlama, əziz ana, Seymurun qisasını yerdə qoymayacağıq.

**POÇTALYON QADIN:**

- Sizə qurban olum, ay əsgər balalar, bala dağına dözə bilmərəm. Məni də onun yanında diri-diri basdırın.

**DURNA ANA:**

- Ay bala, bu yazıq ananın kürəyinə oğlunun məzar torpağından tökün. Ay bala Vallah qara torpağın üzü soyuqdur. Yoxsa arvadın ürəyi partlayar.

***Ağbirçək qadınlardan biri əyilib məzarın üstündəki torpaqdan ovcuna götürüb ananın boynuna tökür.Ana məzarı qucaqlayıb öpür, ayağa duraraq***

**POÇTALYON QADIN:**

- Vətən torpağının uğrunda ölən şəhidin müqəddəs adına qurban.

***Sonra isə dəfn mərasiminə gələnləri çay süfrəsinə dəvət edir.Birdən Rəhimin gözü ananın əlindəki rəsmə sataşır. Xəyal onu çox uzaqlara apars da anadan soruşur:***

**RƏHİM:**

- Ay ana, bu rəsm sizdə haradandır? Bu ki, mən orta məktəbdə oxuyanda çəkdiyimdir. Dəqiq tarixi də yadımdadır. VIII sinifdə oxuyanda çəkmişdim.

**POÇTALYON QADIN** ***(göz yaşını silərək):***

- Ay bala, sən o vaxtı Rusiyada oxuyanda səndən məktub gəlmişdi, anan mənə muştuluq vermək istəyəndə, mən bu şəkli sizin evdəki divarda görmüşdüm, istədim anan da mənə verdi. Mən də gətirib oğlum Seymura bağışlamışdım. Əsgər şəkilləri onun yaman xoşuna gəlirdi. Ona görə də elə o vaxtdan divardan asmışdı. Əsgər olmaq arzusu ilə yaşayırdı. Allah mənfur düşmənlərimizin arzusunu gözündə qoysun. Balamın divardan asdığı şəkilləri divarda, arzuları ürəyində qaldı.

**AĞBİRÇƏK QADINLARDAN BİRİ:**

- Allah səbrini versin, ay qızım. Dərdli adam çox danışar, deyərlər. Danış, ay qızım, bəlkə ürəyin boşala. Sən də bir gün görmədin, hələ bu az imiş kimi uşaq da belə oldu. Nə etməli, alın qazısından qaçmaq olmaz ki. Sənin də taleyin belə yazılıbmış. Dözməkdən başqa əlacın yoxdur. Bir də ki, ay qızım, hamımız dərd əhliyik. Dərdə sinə gərmək lazımdır. Ağlama qızım, sənin oğlun bir evin ha deyil, bütün elin oğludu. Şəhidlər əbədi yaşayırlar. Bu müqəddəs ad hər kəsə nəsib olmur ki!

**DURNA ANA:**

- Vətən torpağı uğrunda ölmək də bir şərəfdir, ay bacı, özün ki, həmişə şəhid ailələrinə təsəlli verirdin. Allah rəhmət eləsin.

**RƏHİM *(poçtalyon qadına):***

- Sən heç də özünü tənha sanma. Anam

Durnaya bacı demisənsə, deməli, sən də mənim anamsan.

**POÇTALYON QADIN:**

**-** Allah səni qorusun, ay oğul, mənim bu yaman günümdə mənə dayaq oldun, Allah da sənə, sənin döyüş dostlarına dayaq olsun.

**RƏHİM *(ananın əlindən öpür və anası Durnaya tərəf dönərək):***

**-** "Artıq biz hərbi hissəyə qayıtmalıyıq"- ***mərasimə gələnlərlə sağollaşır.***

**PƏRDƏ**

**IV ŞƏKİL**

***Qaçqınlıq həyatından sonra ailə Bakıda məskunlaşıb. Durna ana ağır xəstədir. Doğmaları-əzizləri onun başına toplaşıb.***

**SƏRVİNAZ:**

**-** Ana, sənə qurban olum, aç gözlərini, ürəyin nə istəyirsə mənə söylə. Vallah nə istəsən yerin dərinliyində də olsa taparam ( ***başını anasının sinəsinə söykəyir).***

**DURNA ANA *(qırıq-qırıq):***

**-** Qızım, ürəyim Vətən torpağı istəyir.

**SƏRVİNAZ *(başını anasının sinəsindən qaldıraraq):***

**-** Sənə qurban olum, ay ana, sən qərib eldəsənmi, elə Vətəndəyik də, Bakı da Vətənimizdi də.

**DURNA ANA:**

- Qızım, Bakı da Vətəndir, ancaq Bskının torpağından neft qoxusu gəlir. Mən doğma Qarabağımın, Zəngilanımın çiçək ətirli torpağını qoxulamaq istəyirəm.

**SƏRVİNAZ:**

- Ana, sənə qurban olum, bizim yurdlarımız yad – yağı əllərində deyilmi? ***(əli ilə başını tutaraq)*** Aman Allah, bir ovuc torpağa da həsrət qalmışıq, yazıq anamın bu anında bağçamızın torpağından gətirə bilən olsaydı ***(kövrəlir).***

**DURNA ANA:**

- Qızım, qardaşım Rəhim hardadır, niyə gəlib çıxmadı? Ona qurban olum, torpağı o mənə çatdıracaq, mütləq çatdıracaq ***(qırıq-qırıq öskürür).***

**SƏRVİNAZ** ***(üzünü xalasına tutaraq qorxmuş halda):***

-Xala, ay xala, anamın alnına gələn bu soyuq tər nədir? – ***(əli ilə anasının alnını silir).***

**ZƏRİFƏ:**

- Asta səslə, Allahım bacımın əcəl tərini dəmi gördüm, kaş ki, gözlərim kor olaydım, ay bacı, sənin bu yaman gününü amansız fələk mənə də göstərdi ***(ağlayır).***

***Molla Durna ananın çarpayısının ayağında dayanıb hamını sakitləşdirərək:***

**MOLLA:**

- Ay Anam, ay bacım onun gözü görə-görə

ağlamayın, sakit olun, bir əzan oxuyum heç olmasa qulağı “Quran” səsi eşitsin.

***“Quran” kitabını bismillah deyərək ehmallıca açır. Elə bu anda qapı açılır. Sərvinaz qapıya tərəf qaçır, qardaşının boynundan qucaqlayaraq:***

**SƏRVİNAZ:**

**-** Qardaş, nə yaxşı gəldin, anamın gözü yolda qalıb, neçə gündü ki, canını tapşıra bilmir, sənin yolunu gözləyir. Ana, ana bax Rəhim də gəldi.

**DURNA ANA *(qırıq-qırıq səslə):***

**-** Boyuna qurban olum, ay oğul, gəldinmi, bəs niyə belə gec gəldin?

**RƏHİM *(Əyilib anasının üzündən öpür, onu qəhər boğsa da bacılarına təsəlli verərək):***

- Niyə ağlayırsınız, anama heç nə olmayıb, yəqin məndən ötrü darıxıb, indi anama çay gətirin, mən anamla çay içmək istəyirəm.

**SƏRVİNAZ *(Sevincək mətbəxə keçir və uca səslə):***

**-** Qardaş, kəklikotulu çay olsa necə olar.

**RƏHİM:**

**-** Lap yaxşı, yanına mürəbbə də qoysan yaxşı olardı.

**SƏRVİNAZ *(Armudu stəkandakı çayları süfrəyə düzür, qonaqları da çaya dəvət edərək uşaq kimi sevinir):***

**-** Qardaş, başına dönüm buşlatını çıxart, on-

suz da evimiz istidir. Anam da bayaqdan yaman tərləmişdi. Sən gəldin deyə elə bil anama heç nə olmayıbmış kimi, rəngi-ruhu özünə gəldi.

**RƏHİM *(gülümsəyərək):***

- Hərbçi anasına nə ola bilər ki? ***(ananın yastığını azca yuxarı qaldırır).*** Bəlkə mənim gözəl anam balınca dirsəklənə ***(anasının gözlərinə baxır).***

**DURNA ANA:**

- Oğul, hə azca başımı yuxarı qaldır.

**RƏHİM *(taqətsiz anasını qucaqlayıb azca yuxarı qaldıraraq soruşur):***

- Ana bəlkə ürəyin nəsə istəyir?

**DURNA ANA:**

- Oğlum, ürəyim torpaq istəyir Vətən torpağı.

**RƏHİM:**

- Ana!

**DURNA ANA *(onun sözünü kəsərək):***

- Rəhim, ay oğul, o vaxtlar sən Bakıdan ev alanda sənin evinə eyvanımızdakı dibçəkdəki gülü göndərmişdim. De görüm həmin dibçək dururmu?

**RƏHİM:**

- Ana, dibçək də durur, güllər də elə gözəlləşib ki.

**DURNA ANA: (qırıq-qırıq səslə)**

- Oğlum, sənə qurban mən çay-zad içmək istəmirəm. Dur get, o dibçəkdəki torpaqdan bir ovuc mənə gətir.

***Rəhim baş üstə deyərək tələsik buşlatını geyinib qapıdan çıxır.***

**DURNA ANA *(qızına):***

- Qızım, Rəhim torpağı gətirəndən sonra yəqin mən sizinlə əbədi vidalaşacam.

**SƏRVİNAZ:**

- Ana qurban olum, elə demə.

**DURNA ANA:**

- Dinlə qızım, gör nə deyirəm. Bu dünyanın işidir, bir gün dünyaya gələn, bir gün də dünyadan köçməlidi, bu həyatın qanunudur. Mən artıq son aylarımı yaşayıram. Sizə bir vəsiyyətim də var. Qardaşına deyərsən, həmin torpaqdan məzara qoyulduğum anda gözlərimə də töksün. ***(Dərindən köksünü ötürərək): -*** Hər şey bu fani dünyada qalır. Mən məzarda öz torpağıma qovuşmaq istəyirəm ***(halı yenidən pisləşir, qızları təlaşa düşürlər).***

**RƏHİM *(bu anda Rəhim qapıdan içəri girir):***

- Ana gəldim, torpağı da gətirdim.

**DURNA ANA: -** Oğlum o torpağı sinəmin üstünə qoy, qoy qoxusu ürəyinə hopsun.

***Rəhim tövşiyərək və əlləri titrəyə-titrəyə torpağı anasının sinəsinin üstünə qoyur.***

**DURNA ANA:**

- Sağ ol oğlum, bağımızın-bağçamızın ətrini duydum. Allah səni muradına yetirsin.

***(Qırıq səslə):*** Mən gedirəm, torpaq məni çağırır, odur ey qucağını açıb məni yeni əbədi mənzilimdə gözləyir. Hələ buna bax ey, çayın şırıltısı, bulağın səsi, quşların cəh-cəhi eh bala gül-gülü çağırır, əzrayıl da məni. Mən gedirəm, gedirəm nənə-babalarımın uyuduğu torpağımıza, məni Vətən torpağı çağırır **(*deyərək gözlərini əbədi yumur).***

**RƏHİM:**

**-** Ana, ana, deyərək ananı qucaqlayır.

***Artıq Durna ana dünyasını dəyişmişdir.***

**PƏRDƏ**

**IV ŞƏKİL**

***Şəhər həyəti, Durna ananın yas mərasimi. Mərasimə gələnlər, eldən-obadan aralı düşmüş qaçqınlıq həyatı yaşayan insanlar. Mərasimə gələn qadınlardan biri üzünü Rəhimə tutur:***

**SOLMAZ:**

**-** Ay bala, başın həmişə uca olsun, sən ki, ananın son anında son istəyini yerinə yetirmisən.

**RƏHİM:**

**-** Ay xala, nə faydası, anamı ölümün ağuşundan ki, ala bilmədim.

**NARIBƏYİM:**

**-** Ay bala, səbirli olun, bəs mənim qardaşım neyləsin, erməni faşistləri heç imkan vermədilər ki, cavan balasının meyidini el adəti ilə qəbristanlıqda dəfn eləsin. Onun meyidini külə dönmüş evinin həyətində basdırdılar. Yazıq qardaşım, bir də görürsən ki, gecə yarı durub öz-özünə qışqırır ki, "oğlum odur ey gəlir" deyərək yerindən durub dəli kimi o yan bu yana qaçır.

**ZƏRİFƏ:**

**-** Ay oğul, indiki zəmanədə urvatla ölmək özü də bir xoşbəxtlikdi. Bu günə də şükür ki,ananız son sözünü sizə deyə bildi. Bir də ki, sən o torpağı ona çatdırıbsan, ondan gözəl nə var ki? Son istəyi Vətən torpağı olub, onu da görüb. Ay bala, səbrli olun. Dünyanın min bir dərdi var. Elə bilirsən hamı sizin ananız kimi dünyadan urvatla köçür?

**SONA BİBİ:**

**-** Yeri cənnətlik olsun Durna bacımızın, adı Durna, özü də durna kimi bu dünyadan köç etdi. Sağ əli mənim başıma ***(deyərək köksünü ötürür).***

**ŞAHNAZ:**

- Sona bibi, köksünü niyə ötürdün, ahın dağlara-daşlara.

**SONA BİBİ:**

**-** Eh, ay qızım, mənim qadaşım Cavad bəs bu dərdə necə dözəcək? Görəsən mənim son gü-

nüm necə olacaq? ***(gözünün yaşını silir).***

**RƏHİM:**

- Bibi, təki siz sağ olun, sizin və xalam Zərifənin sağlığı bizə böyük bir təskinlikdir.

**SONA BİBİ:**

- Bala başına dönüm, vallah bütün el-obanın adamları hamımız səninlə öyünürük. İllah da ki, o çiynindəki ulduzları görəndə inanırıq ki, gec-tez yurdumuza dönəcəyik. Onda anan Durnanın da ruhu şad olar, ay bala. Dərdimiz birdimi, ikidimi, həm yurdumuzu itirdik, həm də ki, doğmalarımızı.

**ŞAHNAZ**:

- Allah ermənin tifanağını dağıtsın. Yurd həsrətindən qırıldıq, adam ha qalmayıb. Vallah o cümə günü olmaz ki, yas yerinə getməyək. Axırımız necə olacaq, bilən də yoxdu.

**SƏRVİNAZ:**

- Anam yazıq da qardaşı oğlu İlqarın ölümündən sonra yaman fikir çəkdi, elə hey evimizdən, bağımızdan, bağçamızdan söhbət açırdı. İlqarın erkən ölümü anamızın saçını da ağartdı.

**SONA BİBİ:**

- Eh, ay bala, bağımız- bağçamız da viran qaldı. İndi o cənnət yurdumuz gör necə ildir ki, düşmən caynağındadır.

**FATMA NƏNƏ:**

- Beşiyimiz Vətən, son mənzilimiz də o doğ-

ma yurd yerləri olsaydı nə dərdimiz olardı.

**SONA BİBİ:**

- Allah rəhmət eləsin, Durna bacıya. Son nəfəsində ata yurdunun torpağını qoxlayandan sonra canını tapşırdı. Bəs mənim ürəyim o torpağı istəsə kim gətirəcək? Deyəsən elə bu dünyadan mən nigaran köçəcəm. Hələ ki, Vətən torpağına qovuşmaq arzusu ilə yaşayıram.

**GÜLBAHAR *(başındakı qara kəlağayını düzəldərək Sona bibiyə təsəlli verir və üzünü Rəhimə tutur):***

- Rəhim, yaxşı çay dəmləmişəm özü də Durna nənənin sevdiyi ətirşah yarpağından. Elə hamımız o çaydan içsək, elə bilirəm ki, Durna nənənin sağlığında gördüyümüz xatirəli anlara qayıdarıq.

**RƏHİM:**

- Gülbahar bacı, çox sağ olun. Siz hər zaman, hamıya təsəlli olmağı bacarırsınız.

**SONA BİBİ:**

- Eh, ay bala, hələ rayonda yaşayanda Gülbahar nələr eləmirdi. Səhər tezdən bulaqdan su gətirərdi, çörək yapdığı təndirin ətri hər yanı bürüyərdi. Əlindən nə gəlmirdi, onun? Bir söznən Gülbahar oddu-alovdu. Allah bəd nəzərdən qorusun.

**RƏHİM:**

- Sona bibi, hələ heç kimin xəbəri yoxdu ki, mən Gülbahar bacıma gözəl bir şeir də yazmı-

şam.

**SONA BİBİ:**

- Ay bala, oxu, qoy elə özü də eşitsin. Ona şeir də hələ belə üstəlik mahnı da yazsan azdır. Oxu, sən Allah, oxu.

**RƏHİM *(şinelinin cibindən gündəliyini çıxarır və varaqlaya-varaqlaya üzünü Gülbahara tutur):***

- Gülbahar bacım görək şeiri bəyənəcəkmi?

**GÜLBAHAR:**

- Mənim özümə də maraqlıdır, oxu, sən Allah oxu. Əslində, mən heç bilməzdim ki, hərbçilər də şeir yazarmış..

**RƏHİM:**

- Oxu deyirsiniz, oxuyum da.

*Adında həm gül var, həm də ki, bahar,*
*Ətirli çiçəkdir, bacım Gülbahar.*
*Halal zəhmətiylə eldə tanınar,*
*Kəndimin mərd qızı, bacım Gülbahar.*

*Kişi hünərlisən, qeyrət tacısan,*
*Düşmənə göz dağı, dosta bacısan,*
*Nur yayıb aləmə, işıq saçırsan,*
*Bir elin ulduzu, bacım Gülbahar.*

*Yurdun həsrətiylə sızlayırıq biz,*
*Olmasın həyatda daha itkimiz,*
*Dünyadan köçübdür Durna nənəmiz,*
*De, varmı əvəzi, bacım Gülbahar?*

**GÜLBAHAR:**

- Çox sağ ol, ay Rəhim, Allah köməyin olsun. Nə gözəl yazmısan. Allah Durna nənəyə rəhmət eləsin, sağlığında da xeyirxah insan idi, dünyadan köçsə də onun bu günkü yas mərasimində də xeyirxah kəlmələr eşitdik. Allah hamınızdan razı olsun.

**SONA BİBİ:**

- Yerin cənnətlik olsun, ay Durna, ağıllı balalar böyütdün. Sənin yas mərasimini də adına layiq keçirən övladlarının başı uca olsun. Allah Rəhimi də ucalardan uca eləsin.

**RƏHİM *(ayağa duraraq uzaqdan eşidilən əsgərlərin oxuduğu mahnıları dinləyir və üzünü mərasim iştirakçılarına tutaraq):***

- Əziz analar, mənim anam dünyadan Vətən torpağı həsrətilə köçsə də, Vətən torpaqları bizi gözləyir. Gec-tez torpaqlarımızı qaytaracağıq. O gün isə uzaqda deyil.

**GÜLBAHAR:**

- Ulu Tanrı əsgərlərimizi qorusun. Ay Rəhim, bizim ümidimiz də Sizin kimi Vətən oğullarınadır.

**RƏHİM:**

- Biz, hərbçilər hər zaman Ali Baş Komandanımızın əmrinə hazırıq. Möhtərəm Prezidentimiz öz çıxışlarında belə demişdir ki, "Azərbaycan Ordusu Qafqazda ən güclü ordudur". Güclü ordusu olan Vətən basılmaz. Şanlı qələbəmizlə

Azərbaycan xalqını sevindirəcəyik. Tezliklə yurd yerlərimizə qayıdacağıq. Bax onda xalqımız bayram edəcək. Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizin, Vətən həsrətilə dünyadan köçmüş analarımızın - doğmlarımızın ruhu şad olacaq.

***Mərasimdə olanlar Rəhimin sözlərindən ruhlanır, hamısı birlikdə:***

**HAMI: -** Vətən keşiyində dayanan oğullarımız var olsun! Qartal gözlü Azərbaycan ordusunun əsgərlərindən xoş müjdə, Qələbə gözləyirik. Ulu Tanrı arzularımızı çin eləsin. Amin!

**İşıq sönür.**

**PƏRDƏ**

**S O N**

# VƏTƏN
# BİZİM ANAMIZ

**(Bağça uşaqları üçün 1 pərdəli**
**2 şəkilli kiçik pyes)**

**İŞTİRAK EDİRLƏR:**

**Orxan -**
**Ana -**
**Satıcı qız -**
**Müəllimə -**
**Orxanın dostları**- bağça uşaqları

## 1 PƏRDƏ

### I şəkil

**Balaca Orxan bağçaya gedir. Müəllimləri və dostları Orxanı vətənpərvər oğlan kimi tanıyırlar. Onun atası ön cəbhədə hərbçi, anası isə həkimdir. Ana işdən sonra bağçaya gəlir və Orxanın əlindən tutub evə getmək istəyirlər. Bu zaman:**

**ORXAN:**

**-** Ana mənə qılınc və avtomat al.

**ANA:**

- Qılıncı və avtomatı neyləyirsən oğlum?

**ORXAN:**

**-** Davaya gedəcəyəm.

**ANA:**

**-** Mənim balam, hələ sən balacasan. Sən böyüyənə kimi dava da qurtarar.

**ORXAN:**

**-** Dava qurtarsa da, vətəni qorumaq üçün həmişə müharibəyə hazır olmalıyıq.

**ANA:**

**-** Düzdür, oğlum. Elə mən də səni vətəni qorumaq üçün dünyaya gətirmişəm.

**ORXAN: - (Anasının sözlərmindən ruhlanaraq)**

- Ana, mənə xeyir-dua ver ki, uşaqlıqdan ruhum möhkəm, iradəm polad kimi olsun.

**ANA:**

Vətən keşiyində dayanan bütün oğlullara anaların xeyir-duası və südü halaldır. Oğlum, sənin istədiyin qılınc da, avtomat da bu mağazada satılır. (**Əli ilə yaxınlıqdakı mağazanı göstərir)** Elə bu gün sənin istəyini yerinə yetirəcəyəm.

**(Anası Orxanın əlindən tutub mağazaya girir, Orxan maraqla top, tüfəng, tank, avtomat oyuncaqlarına baxır, onların arasından qılıncı və avtomatı seçib götürür. Avtomatı çiyninə asır, qılıncı isə belinə taxır).**

**ORXAN: -**

Darda qalıbdır vətənim,
Hanı igidim, ərənim,
Qanım coşa gəlib mənim,
Ana, mənə avtomat al.

Erməníni öldürəcəm,
Dədəsini yandıracam.
Qarabağı mən alacam,
Ana, mənə avtomat al.

**SATICI:-(Onlara yaxınlaşıb, gülümsəyərək):**

- Oğlum, qılıncın da, avtomatın da özündən böyük olsa da, sənə yaxşı yaraşır.

**ANA:**

- Mənim oğlum həm yaraşıqlı, həm də əsl cəngavərdir, əsl qəhrəmandır.

**(Ana əyilib oğlunu öpür və satıcıya pul verib gedirlər).**

**PƏRDƏ**

**II ŞƏKİL**

**Səhər tezdəndir. Orxan bağçaya gəlmişdir. Dostları Orxanın əlindəki qılıncı və avtomatı görüb onun başına toplaşırlar. Müəlliməsi Orxanı hərbi libasda görüb onu bağrına basır və öpür.**

**ORXAN: -**
Geyib əsgər paltarı,
Xidmətə gedəcəyəm.
Vətənimi, xalqımı,
Ordumu sevəcəyəm.

**(Dostları Orxana qoşularaq hamısı birlikdə)**

Biz azəri yurdunun,
Körpə, gül balasıyıq.
Böyüyəndə düşməndən,
Qisası alasıyıq.
**ORXAN:**
Mən ana torpağıma,
Üçrəngli bayrağıma,

And içirəm ürəkdən,
Yurdumu sevəcəyəm.

**(Orxan əlində qılınc və bayraq irəli gəlir, dostları onu dövrəyə alırlar).**

**ORXAN:-**

Ruhum döyüşə köklənib,
Misri qılınc verin mənə,
Hoydu mənim dəlilərim,
Qıratı göndərin mənə.

**İSMƏT: -**

Oyan millət, yurd hayqırır,
Düşmən yurdu çalır, çapır.
Cıdır düzü dərddən yanır,
Elatı göndərin mənə.

**LEYLA:-**

Alışmayın ayrılığa,
Həsrət qaldıq bağça, bağa.
Bağlayıb güllü yaylığa,
Bayatı göndərin mənə.

**( Uşaqlar hamısı birlikdə)**

Biz od oğlu odlarıq,
İgid nər oğullarıq.
Nankor, xain düşməni,
Yuvasında odlarıq.

**ORXAN:-**

Atam ön cəbhələrdən,
Səngərlərdən keçibdir.
Zabit olduğu gündən,
Hərbi andı içibdir.

**ƏLİ:-**
Vətən mənim canımdır,
Damarımda qanımdır.
Əsgər olduğum gündən,
Dostlar da heyranımdır.
**ZƏHRA:-**
Mən vətənə daş oldum,
Gözəl vətəndaş oldum.
Parladım ulduz kimi,
Üzüklərdə qaş oldum.
**ORXAN:-**
Vətən bizim andımız,
Vətən bizim anamız.
Heydər baba adıyla,
Fəxr eyləyir xalqımız.

**Orxan əsgəri addımlarla irəliyə gedir və dostları da onun arxasınca gedirlər.**

**PƏRDƏ**

**S O N**

# AĞ ATLI OĞLAN

**(bağça uşaqları üçün 1 pərdəli 2 şəkilli kiçik pyes)**

**İştirak edənlər:**

**Azər-**
**Tural-**
**Azərin babası -**
**Günel-**
**Vaqif-**
**Azərin anası -**
**Uşaqlar, qonşular-**

## I PƏRDƏ

### I ŞƏKİL

**(Azər dostu Turalla həyətdə oynayır.)**
**AZƏR:**
**-** Tural oynamaqdan yoruldum.
**TURAL:**
**-** Bəs onda neyləyək?
**AZƏR:**
**-** Gedim sazımı gətirim yaxşı bir hava çalım.
**TURAL:**
**-** Lap yaxşı. Mən heç evə getmək istəmirdim. Açıq havada, həyətdə oynamaqdan xoşum gəlir. Onda dayanma, tez get sazını gətir.

**(Azər evlərinə tərəf qaçır: qapını döyür, anası qapını açan kimi)**
**AZƏR:**
**-** Ana, mənim sazımı köynəyindən çıxart ver mənə, həyətdə dostlarıma saz çalacam, onlar da qulaq assınlar.

**(Anası oğlunun tərini əlilə silir və sazı köynəkdən çıxarıb Azərə verir.)**
**AZƏR:- (Sazı döşünə basaraq:)**
- Görüm sazım kökdən düşməyib ki?
**AZƏRİN ANASI:**
**-** Maşallah lap köhnə kişilər kimi danışdın.
**AZƏR:**
**-** Elə mən də köhnə kişilərin nişanəsiyəm

də **(deyərək sazını dınqıldada-dınqıldada həyətə gəlir:)**

**TURAL: - (Dostlarını səsləyir)**

Uşaqlar, uşaqlar bura gəlin, Azər saz çalacaq.

**VAQİF:**

**-** Azər, sağ ol ki, sazını həyətə gətirdin.

Bayaqdan mənim anam məni evə çağırırdı.

(**Elə bu anda bir qadın oğluna:- Vaqif haradasan? –deyib çağırır).**

**VAQİF:**

Azərlə Turalın yanındayam. Azər saz çalır ona qulaq asırıq.

**VAQİFİN ANASI:**

**-** Yaxşı onlar evə gedəndə sən də evimizə gələrsən.

**VAQİF:**

**-** Yaxşı ana.

**TURAL:**

**-** Azər hansı havanı çalacaqsan.

**AZƏR:**

**-** «Ruhani» havasını çalacam.

**SAVALAN:**

**-** Azər bu ki, çətin havadır, bunu sənə kim öyrədib?

**AZƏR:**

**-** Çətin niyə olur, mənim atam mənə hələ bundan başqa havaları da çalmağı öyrədəcək.

**TURAL:**

**-** Uşaqlar, Azər mənim dayım oğludur. Hələ siz heç bilmirsiz. Azərin atası, milli sazımızda da, türk sazında da çalır. Azəri də atası öyrədib.

**SAVALAN:**

**-** Bəs dayın sənə niyə saz çalmaq öyrətməyib?

**TURAL:**

**-** Mən də kinoya çəkilirəm də, artist olacam.

**ELVİN**

**-** Hansı kinoya çəkilirsən?

**TURAL:**

**-** «Gün aydın mələyim» kinosuna.

**AMİN:**

**-** Hansı rolda.

**TURAL:**

**-** Filmdə Qarabağda vuruşan bir döyüşçünün balaca oğlunun rolunda.

**AMİN:**

**-** Əhsən sizə. Azər və Tural! Biz sizinlə həmişə dost olacağıq.

**TURAL:**

**-** Onsuz da dostumuzsunuz da, gəlin - hələlik Azərə qulaq asaq.

**(Azər sazda «Ruhani» havası çalır. Qonşular hamı həyətə toplaşır.)**

**AZƏR:**

**-** Hələ siz bilmirsiniz ki, mənim ad günümdə mənə «Ağ atlı oğlan» adlı şeir də yazıblar.

**TURAL:**

- Azər sən sazı çal, mən o şeiri əzbərdən deyim.

**(Azər sazı çalır. Uşaqlar onları dövrəyə alırlar. Tural şeiri söyləyir:)**

Azəri yurdumun Azər balası,
Böyu kişi kimi, böyu nər kimi,
Səndə gözəllərin gözü qalası,
Böyu kişi kimi, böyu ər kimi.

Soyun, soyadının kökü dərindi,
Sən mugam beşikli Qarabağlısan.
Dinlə sözlərimi, eşit sən indi,
Düşməndən qisası sən almalısan.

At atlı oğlan ol! Yolun uğurlu,
Həyat yollarında ucalığa get.
Nənənin, babanın,ata-ananın,
Müdriklik çağında, köməyinə yet.

**(Uşaqlar əl çalırlar. Azər saz çalmaqda davam edir.)**

**TURAL: (Azərə yaxınlaşaraq)**

– Azər artıq gecdir, evə getmək vaxtıdır.

**(Azər sazı çala-çala ayağa durur, uşaqlarla sağollaşıb evə gedirlər).**

**PƏRDƏ**

## II ŞƏKİL

**(Azərgilin evi. Babası yazı masasının arxasında əyləşib, elmi əsərlərinə nəzər salır. Azər babasına yaxınlaşıb onun əlyazmalarına baxır və soruşur: )**

**AZƏR:**

**-** Baba, kimin haqqında yazırsan?

**BABA:**

**-** Aşıq Qurbani haqqında.

**AZƏR:**

**-** Baba Qurbani indi yaşayırmı?

**BABA: - (Azərin başını sığallayaraq)**

– Mənim ağıllı balam Aşıq Qurbani XVI əsrdə, neçə yüz il əvvəl yaşayıb-yaradıb.

**AZƏR:**

**-**Baba onun haqqında mənə çoxlu danış də.

**BABA:**

**-** Səni maraqlandırırsa danışaram.

**AZƏR:**

**-** Danış baba, danış.

**(Elə bu anda Günel və Tural da babanın iş otağına daxil olurlar.)**

**BABA:**

**-** Mənim ağıllı nəvələrim, siz də gəlin Azərin yanında oturun, maraqlı söhbətə qulaq asın.

(**Günel və Tural Azərin yanında otururlar və bir ağızdan: – baba danış, baba danış – deyə qışqırırlar).**

**BABA:**

**-** Mənim əziz nəvələrim. Əvvəla, sizə onu deyim ki, Aşıq Qurbani əslən Qarabağın Diri kəndindəndir. Onun haqqında çoxlu dastanlar, rəvayətlər söylənildiyini hamımız yaxşı bilirik. Onu da deyim ki, Aşıq Qurbani haqqında, çoxlu məqalələr çap olunub. Onun haqqında elmi işi isə ilk dəfə mən yazmışam. Aşıq Qurbani həm də vətənpərvər, döyüşkən ruhlu aşıq olub.

**GÜNEL:**

**-** Baba, Aşıq Qurbani davada iştirak edib?

**BABA:**

**-** Bəli.

**GÜNEL:**

**-** Hansı davada?

**BABA:**

**-** Hə, mənim əzizlərim, onu da yadınızda saxlayın ki, Aşıq Qurbani türk dünyasının böyük sərkərdəsi Şah ismayıl Xətainin qoşunlarını öz sazı ilə hər zaman döyüşlərə ruhlandırıb. Onu da qeyd edim ki, sazın, sözün özü də mənfur düşmənlərə qarşı ən böyük silahdır. Bax elə buna görə də Şah İsmayıl Xətainin qoşunları düşmən üzərində həmişə qələbə çalarmış.

**AZƏR:**

**-** Baba, mən də sazımı götürüb döyüşə gedəcəyəm. Düşmənləri ata yurdumuz Qarabağdan - Cəbrayıldan qovacağam.

**BABA:**

**-** Mənim əziz nəvəm, Qarabağ adı dilimə gələndə düşmənlərə nifrətim artır. Eh ay bala,

muğam beşikli, kəhriz bulaqlı, Xan çinarlı, göy yaylaqlı Cəbrayılımız indi düşmən caynağındadır. Əlbəttə ki, Qarabağı canımızla, qanımızla biz azad edəcəyik. Qarabağ bizim yurdumuzdur. Düşmən o yerdə at oynada bilməz.

**GÜNEL:**

**-**Baba, Azərin və Turalın ağ atı olsa Qarabağa gedə bilərlərmi?

**BABA:**

**-**Qarabağa ağ atla da, silahla da getməliyik. Yoxsa o yerlərdə dolaşan şəhidlərin ruhu bizdən inciyər. Bax elə ona görə də müharibə başlayarsa, cavanlarla bərabər mən özüm də davaya getməyə hazıram.

**TURAL:- (Əlindəki avtomatın tətiyini çəkərək)**

ta-ta-ta-ta Ermənilәri Qarabağdan qovacağam, onlar bizim torpaqlarımızı işğal ediblər.

**BABA:**

**-** Eh, ay bala, erməni nəkarədir ki, bizim torpaqlarımızı işğal etsinlər, onlara xarici havadarlar köməklik edirlər. Odlar diyarı Azərbaycan zaman-zaman xarici təcavüzkarların döyüşlərinə sinə gəriblər. O gün uzaqda deyil, Qarabağın azad olunacağı gün lap yaxındadır. Allah qoysa xoş müjdə ellərə yayılar. Xalqımız qələbə gününü tezliklə qeyd edər. İnşallah!

**AZƏR:**

**-** Baba, deyirsən ki, Aşıq Qurbaninin qılıncı da olub, atı da?

**BABA:**

**-** Hə, mənim əziz balam, elədir ki, var.

**AZƏR:**

**-**Baba mənim sazım var, qılıncım da var. Ancaq atım yoxdur.

**BABA:**

**-** Mənim ağıllı balam, sənə Qarabağımızın qəhrəmanlıq rəmzi olan ağ rəngli Qarabağ atı alacam. Ağ atlı oğlan olarsan, ordumuzun önündə sazınla, qılıncınla ağ atın belində öndə gedərsən. O müqəddəs yerlər bizləri gözləyir. O yerlərə gedəcəyik, mütləq gedəcəyik.

**AZƏR:**

**-** Ağ atla eləmi baba!

**BABA:**

**-** Hə, mənim ağ atlı igid balam. **(deyib Azərin başını sığallayır).** Zəfər sorağını ağ atın belində ellərə də sən yayacaqsan.

**GÜNEL və TURAL:**

**-** Ağ atlı oğlan, ağ atlı oğlan **(deyərək Azəri dövrəyə alaraq atılıb düşür, əl çalırlar. Elə bu anda Azərin atası Aqşin də gəlir.).**

**BABA:**

**-** Aqşin də vaxtında gəldi. İndi Azər atası ilə bir həzin saz havası çalsın, hamımız bir yerdə qulaq asaq.

**Azər saz çala-çala gözləri önündə ağ atı canlandırır.**

**P Ə R D Ə**

**SON**

# ƏMİRXAN ƏSGƏR GEDIR

**(Bağça uşaqları üçün 1 pərdəli,**
**2 şəkilli kiçik pyes)**

**İştirak edənlər:**

**Nənə**
**Nəvə–Əmirxan**
**Gülnar–Əmirxanın dostu**
**Qəndab–Əmirxanın dostu**
**Uşaqlar, qohumlar, qonşular –**

## I PƏRDƏ

## I ŞƏKİL

**(Nənə yazı masasını səliqəyə salıb ayağa durur. Divardan asılmış fəxri diplomlıarına nəzər salandan sonra yeni bior diplomu divardan asmaq istəyəndə Əmirxan otağa daxil olur.)**

**Əmirxan:**

– Nənə, ay nənə, yeni diplom almağın münasibətilə səni təbrik edirəm. Nə gözəl rəngi var. Adı da gözəldir. “Vətən naminə”. **(Diplomu əlinə götürərək)** Nənə, bu diplomu bir az da yuxarıdan asaq, qoy hamı görsün.

**Nənə:**

– Əllərinə qurban Əmirxan, al, haradan istəyirsən as, məndən çox sən sevinirsən. Bax vətən sevgisi ilə yaşayan, yaradan insanların əməyini Tanrı hər zaman qiymətləndirir. Vətən sevgisi də hər kəsə nəsib olmur ki, əziz balam.

**Əmirxan:**

– Nənə, ay nənə, Vətəni ən çox sevənlər kimlərdir?

**Nənə:**

– Vətəni ən çox sevənlər vətən oğulları, vətənpərvər insanlardır.

**Əmirxan:**

– Nənə, bəs sən ən çox kimlər haqqında ya-

zırsan?

**Nənə:**

– Vətəni qoruyan əsgərlər haqqında.

**Əmirxan:**

– (Dodaqlarını büzərək) Bəs mənim haqqımda yazmamısan?

**Nənə:**

– Sənin haqqında necə yazmaya bilərəm, əziz balam. Sözümün əvvəli də, axırı da sənsən. Yaxın gəl, sənə yazdığım şeiri oxuyum.

**Əmirxan:**

– (Toppuş əlləri ilə nənəsinin əllərindən tutaraq) Nənə tez oxu, tez oxu. Sənin şeirlərin çox xoşuma gəlir.

**Nənə: – (Əmirxana yazdığı şeiri oxumağa başlayır)**

Ruhumu dincəldən yaz yağışısan,
Ətirli çiçəyim, gülüm, Əmirxan!
Sənə öz canımı əsirgəmərəm,
Ağzımda can deyən dilim, Əmirxan!

Sən mənim sultanım, şahım, əmirim,
Mənimçün dünyada açılmaz sirrim.
Sənə kömək olsun ocağım, pirim,
Üfürsən közərər külüm, Əmirxan!

Sənsən ümid verən həyatda mənə,
Yolun heç düşməsin dumana, çənə.
Sənə kömək olsun ocağım, pirim,
Üfürsən közərər külüm, Əmirxan!

Sənə güvənirəm, arxam, dayağım,
Dizimdə taqətim, ürəkdə yağım.
Qaranlıq ömrümə nur saçan Ayım,
Ətirli güllərdən balım, Əmirxan!

Hay deyib hayımı səndə tapmışam,
Kədəri atmışam, dərdi atmışam.
Ölsəm də arzuma daha çatmışam,
Saz olan köksümdə telim Əmirxan!

Tanrı ömür versin görüm toyunu,
Bəylərin içində uca boyunu.
Nənən qurban kəssin qoçu, qoyunu,
Gəlsin şöhrətinə elim, Əmirxan!
Ətirli güllərdən balım, Əmirxan!

**Əmirxan:**

– Nənə, çox sağ ol, mən də hər zaman çalışacağam ki, sənin arzularını doğruldum. (Nənəsinin boynunu qucaqlayaraq) Nənə, mən də böyüyəndə əsgər gedəcəyəm.

**Nənə:**

– Mənim igid balam, gün o gün olsun sən də böyüyüb əsgər gedəsən. O müqəddəs gündə qurban kəsib paylayacağam.

**Əmirxan:**

– Nənə, mən də o günü səbirsizliklə gözləyirəm.

**Nənə:**

– Ay Allah, gürən o gün gələcək ki, sən də vətən keşiyində dayanacaqsan?

**Əmirxan:**

– Bax, onda mənim avtomatım, pulemyo-

tum, topum, tüfəngim olacaq. Üçrəngli bayrağımızı da, vətən torpağını da, silahımı da göz bəbəyim kimi qoruyacağam.

**Nənə:**

– Dilinə qurban olum, ay bala (əyilib nəvəsinin üz-gözündən öpür, sonra əllərini Tanrı dərgahına açaraq) Ulu Tanrım, sənə çox şükürlər olsun ki, mənim ilk nəvəmi oğlan payı vermisən.

**Əmirxan:**

– Nənə, ay nənə, məni niyə belə çox sevirsən?

**Nənə:**

– Eh ay bala, səni necə sevməyim? El arasında belə bir məsəl var: Deyərlər ki, oğul düşmən çəpəridir. Sənsə mənim cəngavər balamsan.

**Əmirxan:**

– Nənə, ay nənə, onda icazə ver dünən sən aldığın əsgər paltarımı geyinim və dostlarıma göstərim. Qoy hamı görsün və bilsin ki, mənim nənəm məni əsgər paltarınd görəndə necə də göyünür.

**Nənə:**

– Mənim ağıllı balam, az qala unutmuşdum. Bu gün sənin ad günündür axı. Mənim igid balam, sənin şirin dilin adamı valeh edir. Səninlə danışmaqdan doymuram. Özün yaxşı bilirsən ki, bu gün səni sevənlər hamısı bizə qonaq gələcəklər. (yazı masasının üstündəki yazıları yığışdıraraq) Mənim ağıllı balam, mən də gedim mətbəxdə anan Ləmanla ləzzətli yeməklər ha-

zırlayım. Sən də dostlarını və qonum-qonşuları çağır bizə gəlsinlər.

(Əmirxan elə bu tapşırığı gözləyirmiş kimi həyətə qaçır. Nənə isə mətbəxə keçir).

**PƏRDƏ**

**I PƏRDƏ**

**2-Cİ ŞƏKİL**

**(Əmirxangilin evinə çoxlu qonaqlar gəlib. Süfrədə səliqə ilə düzülmüş yeməklər, üstündə isə Əmirxan əsgər gedir sözləri yazılmış tort və ətrafında al-əlvan şamlar hər yana nur saçır. Əmirxan əsgəri geyimdə masanın yuxarı tərəfində qonaqların arasındadır.)**

**Nənə:**

– Əziz qonaqlar, mənim nəvəm Əmirxanın ad gününə, şad gününə xoş gəlmisiniz. Bu gün Əmirxan əsgəri geyimdə ad gününü qeyd edirsə, deməli mənim nəvəm əsil qəhrəmandır. Atalar demişkən ot kökü üstə bitər. Əmirxanın da uşaqlıqdan babası Nurəddinin yolunu getmək istədiyinin bu gün hamımız şahidi olduq. Əmirxanın babası Qarabağ savaşında öndə gedənlərdən olub.

Alay komandirinin müavini kimi ön cəbhə-

lərdə sinəsini sipər edib. Allahdan arzu edirəm ki, Əmirxan balam Qarabağın qələbə sorağını ellərə yayanlardan olsun. İndi isə gəlin hamımız birlikdə Əmirxan və onun dostlarının söyləyəcəkləri şeirləri dinləyək.

**Əmirxan**:

– Ey vətən, ana Vətən,
Keşiyində durmuşuq.
Müstəqil Azərbaycan,
Dövlətini qurmuşuq.

**Gülnar:**

– Vətənim odlar yurdu,
Od yurdu, odlar yurdu,
Keşiyində dayanıb,
Basılmaz igid ordu.

**Qəndab:**

– Durun millət, ayağa,
Gedək qisas almağa.
Könüllü getməliyik,
Vətəni qorunağa.

**Əmirxan: – *(Əlindəki üçrəngli bayrağı yuxarı qaldıraraq)***

Vicdanı bayraq tutub,
İrəliyə gedək biz.
Türk qanıdır, qanımız,
Kor olsun düşmənimiz.

**(Hamı əl çalır. Əmirxanın əlində bay-**

**raq olduğundan qonaqlar ayağa durub onu alqışlayırlar. Elə bu anda nənə Əmirxana yazdığı digər bir şeiri söyləyir).**

**Nənə: –**
Sarıl bu bayrağa, qurbanın olum,
Bu bayraq uğrunda qanlar tökülüb.
Vətənin yolunda candan keçənlər,
Təkcə bu bayrağa bükülə bilib.

Vətənə gərəkli övlad ol sən də,
Ucalt göy üzündə üçrəng bayrağı.
Şərəfli olana güvənir vətən,
Sən ol vətənimin arxa, dayağı.

Mən mətin görürəm səni Əmirxan,
Baxışları duru, qönçə fidansan.
Bu odlar yurdunun ərən elindən,
Bütöv varlığımda sən son nidamsan.

**(Yenə də hamı əl çalır. Gələn qonaqlardan biri nənəyə üz tutaraq):**

**Qonşu:**

– Mən elə bilirdim ki, bu gün Əmirxanın ad gününə toplaşmışıq.

**Nənə:**

– Bəli, bu gün Əmirxanın ad günüdür. Mənim ən böyük amalım odur ki, mənim nəvələrim hər zaman vətənpərvər olsunlar, kişi kimi böyü-

sünlər. Gələcəyin əsgəri olacaqları günə hər an, hər dəqiqə hazır olsunlar.

**Qonşu qadın:**

– Vallah mənim nəvələrim də sənin nəvələrinə oxşamaq istəyirlər. Onlar da Əmirxana baxıb məndən əsgər paltarı istəyirlər.

**Nənə:**

– Allah qoysa, sənin nəvələrinin ad günündə də onlara hərbi geyim, üstəlik top, tüfəng, qılınc, qalxan da alaram.

**Qonşu qadın:**

– Allah köməyin olsun. Vətənin dar günündə körpə balaları vətənpərvərlik ruhunda böyütmək ən vacib şərtlərdən biridir.

**Nənə: – *(Əli ilə uzaqları göstərərək)***

Ay bacı, bax gördüyün o dağların döşündəki ərazilər – Qılınclı kəndi öz dədə-baba yurdumuz olub. İndi o yerlər mənfur ermənilərin əlindədir. Hələ o boyda Qarabağı xarabalığa döndərən ermənilərlə barışmaq nədir, belə basıb onların gözlərini də çıxarmalıyıq. Bax elə ona görə də düşmən gözü tökən igid oğullar yetişdirmək hər birimizin borcudur.

**Qonşu qadın:**

– Vətən keşiyində dayanan oğulların ayağına dəyən daş mənim gözlərimə dəysin. O gün də radioda “Əsgər istəyi” verilişində Rəhman Quluzadə belə bir şeir demişdi. Elə o şeiri Qəndab söyləsə yaxşı olardı.

**Qəndab: –**

Hala sed əmmiş oğul,
Haqq da sənə tərəfdir.
Anan namaz üstədir,
Keşik çəkmək gərəkdir.

Allah özü qorusun,
Düşmənin gülləsindən,
Tanrı özü qorusun,
Pis gözdən, pis nəzərdən.

**Gülnar: – (Qəndab şeiri sona yetirməmiş əlindəki tər çiçəkləri Əmirxana tərəf uzadaraq)**

Aç qollarını qartal tək,
Şığı düşmənin üstünə.
Allah ömür calasın,
Sənin əsgər ömrünə.

**(Əmirxan gülləri Gülnardan götürür və əsgəri addımlarla irəli gedir. Uşaqlar da onun arxasınca gedirlər. Əmirxan bir əlində çiçəklər, bir əlində isə bayraq olduğundan əllərini göyə qaldıraraq ucadan gur səslə:)**

**Əmirxan:**

– Nənə, nənə salamat qal. Bu gün əsgər gedirəm.

**Nənə:**

– (Uşaqlara üz tutaraq) 0 Uşaqlar, Əmirxan

hara gedir?

Uşaqlar xorla: –

Nənə, nənə, ay nənə,
Əmirxan əsgər gedir.
Əmirxan əsgər gedir.

**(Əmirxan ad gününə toplaşan qonaqlarŞ, qohumlar, dostlar əl çalıb onu təbrik edirlər. Nənə nəvəsini bağrına basıb öpür).**

**Pərdə**

**Son**

***Hörmətli oxucular!***

***Kitabda təqdim olunan seçmələr hərbi vətənpərvərlik mövzusunda olduğuna görə Füzuli bölgəsində yaşayıb yaradan şair-publisist Azərbaycan Yazıçılar Birliyinin üzvü, «Yaddaş» milli mükafatı laureatı Sabir Arazlı Özgünün Zəminə Xınalıya həsr olunmuş «Əsgər libaslı qadın» poemasını da sizlərə təqdim edirik.***

***Redaktor***

**Sabir Arazlı Özgün**

*"Azərbaycan Yaziçilar Birliyinin üzvü,*
*«Yaddaş"milli mükafatı laureatı.*
*11.01.2007 (Harami-Baki)*

## ƏSGƏR LİBASLI QADIN

Zəminə -zəminlik;
al sabaha,
xoş gələcəyə zəmin olmaq...
deməkdir.
Əlbət!..

Zəminə -zaminlik;
rifahlı, gəlişiylə nur bəxş edən
zərrin günlərə zamin olmaq...
deməkdir.
Əlbət!..

Zəminə-zəmanətdir;
səbrin,
dözümün dəmir yaxalaığını cırıb
bayraq kimi ucalmaq.
deməkdir.
Əlbət!..
Sabahların səadətinə əmin olmaq...
Deməkdir.
Əlbət!..

Ömrün payızında
torpağa yarpaq-yarpaq gömülən
şəhidlərimizin ruhu kimi
bahar çağı təzədən
çiçəkləyib ləçək-ləçək doğulmaq...
Əlbət!..

Zəm-inə...
Bu adda
Zəm-zəm duruluğu,
Zəm-zəm saflığı var.
Zəminə adında
Zəm-zəm səfası,
Zəm-zəm şəfası,
çeşmə billurluğu
şəffaflığı var.

Zəmi-nə....
Bardır, bərəkətdir,
Atəş, oddur;
Qaranlıqdan sıyrılan yaşantı,
qaranlıqları
doğram-doğram, xıncım-xıncım
eləyən həyatdır.

Zəminə.....
Təbiətin təravəri,

Nurlu Zamanı!

...Hələ
Novruz tonqalının sönmədiyi,
Hələ
əngin səmalara qanadlanan
sevdaların
göy üzündən enmədiyi
nurlu gündə, əziz gündə,
billur gündə, təmiz gündə-
Yeni ilin ilk günündə...
Şairlərin boy atdığı bir məkanda;
Ulu Qazax mahalının
Aslanbəyli oylağında
Bir qızcığaz qədəm qoydu
bu dünyaya.
Bu qızcığaz bənzəyirdi günə, aya.
Baxışları ovsunluydu....
əfsanəydi, nağıl idi,
şəkər idi, noğul idi.
İlahi gör necə şehli,
necə mehli,
necə nazlı,
necə xoşbəxt, gülər üzlü, ..
təravətli,
məlahətli, ..
ətirliydi o xoş sabah!

Havalıydı,
şəfalıydı bihuş sabah!
...o xoş sabah!
Başqa rəngdə,
başqa ruhda görünürdü
tanış sabah.
...Nə durmusan, götür sazı
başqa sözlə,
Təzanəni çırp tellərə,
Alqış deyək bu gündüzə,
Bizə dastan danış, sabah!

Ey aqil Həqq!
Bu xoş sabah
arzuların, istəklərin
gündüzüydü.....

Kim nə deyir desin mənə,
Lap...
istər qınasın məni, -
bu.. bir tale,
bir "yazı"ydı.

O gün Dədə Göyəzənin
atlas donlu ormanları
şəfəq-şəfəq laləlləndi.
Tər güllərin ləçəyinə

nur çiləndi.
Dağ döşündə zərrin-zərrin,
qırçın-qırçın.

libas biçdi təbəssümü
Zəminənin, -
o körpəcə qızcığazın.
Al sabahın
üfüqləri al şəfəqə boyananda.
İşıq saçdı təbəssümü Zəminənin, -
o körpəcə qızcığazın.

O körpəcik qırovunu sındırmamış
incə bir qar çiçəyiydi,
O körpəcik...
özü məsum,
özü kövrək,
təravətli bir bənövşə,
baharın tər çiçəyiydi.
O gün...
Novruz tonqalının
sönmədiyi baharın ilk
sabahında, -
nurlu gündə,
əziz gündə,
billur gündə,
təmiz gündə

Bu dünyaya qədəm qoyan
O körpənin gözlərində
həyat eşqi coşdu,
daşdı.
Tər çiçəyə,
təravətli bənövşəyə
bənzəyən o qızcığazın
qanadalanan
körpə,
kövrək duyğuıarı
dərə keçdi, dağlar aşdı.
Seyr edirdi bu aləmi
həzin-həzin
oğrun-oğrun,
xısın-xısın...duman gendən.
Elə bil ki, ...
sabah-sabah
çiçəklərin ləçəyində
bəzənmişdi şeh də dən-dən.
...Hə nə oldu,
ala sabah, nə durmusan,
başla sözə.
İstəyirsən "Dədə Qorqud"
boylarından
boy boyla sən,
soy soyla sən.
Ya...istərsən, "Koroğlu"dan,

“Abbas –Gülgəz” dastanından
söz söylə sən.
....nə istərsən söylə bizə!

Ala sabah dilə gəlib
dedi:”Sizə
əsgər libaslı bir mələkdən
danışacam.
Vardır buna ehtiyacım...
Bəli,
bunu söyləməyə,
bu söhbəti
öz xalqıma çatdırmağa
borcluyam mən.
Qoy tanısın, qoy öyünsün
mərd qürurlu övladıyla
ana Vətən!”

Azərbaycan qadını
müqəddəsdir Günəş tək!
Azərbaycan qadını
həlim qəlbli anadır;
o...həm pak,
həm də kövrək.
Azərbaycan qadını
müqəddəsdir Atəş tək!
Azərbaycan qadını

aslan qətiyyətlidir;
o... həm şah,
həm də mələk...
Döşündən süd verərək
mərd ərənlər böyütdü,
Zamanı yetəndə də
sarılaraq silaha
özünü oda atdı...
Azərbaycan qadını!

Rəşadət rəmzidir Azəri-Türk qadını;
Necə ki.
Fars hökmdarı Kir
Döyüş meydanında gətirməyib tab
İskəndərin qarşısından qaçdı,
Fəqət, ...
Azərbaycan hökmdarı
Tomris ana
məğlub etdi bu cəlladı,
başın kəsdi,
qanın içdi.

Necə ki, …
Mehriban Xatun diz çökdürdü
Xarəzm Cəlaləddini,
İtlərə yedirtdi murdar ətini..
Qətiyyət rəmzidir azəri-türk qadını;

Necə ki, ...
Ağqoyunlu hökmdarı
Qara Yusifin
Ömür-gün yoldaşı Könüldaş
həm ağıllı
həm… cəsur idi,
Həm müdrik,
həm tədbirli,
həm də ki, ...
döyüş meydanında,
ər qeyrətli
məğrur idi.

Necə ki, ...
Atabəylər dövlətinin son sərkərdəsi
Özbəyin adını
Mehrican Xatun.
Görüncə ərində əyyaş sifəti,
Özü sahib oldu taxta,
Qoymadı dağılsın məmləkəti.

Necə ki, ...
Qubalı Fətəli xanın vəfədarı,
istəkli yarı Tuti Bikə
Dözmədi Əmir Həmzənin
Dərbənddə hücumuna,

Silaha sarıldı,
döyüşlərə atıldı,
Qalanı müdafiə elədi, ...
aman vermədi düşmana....
Sədaqət rəmzidir azəri-türk qadını;

Necə ki, ...
Naxçıvanlı
Məhəmməd Cahan Pəhləvan
könül sirdaşı,
vəfalı yar-yoldaşı
Mömünə Xatun sədaqətliydi.
Necə ki, ...
Şah Təhmasibin qızı
Pərican Xatun sədaqətliydi...
Ədalət rəmzidi azəri-türk qadını;
Necə ki, ...
Şah Abbasın anası
Xeyransa Xatun ədalətliydi.

Necə ki, ...
Ağqoyunlu Uzun Həsənin anası
Sara Xatun ədalətliydi...

Bu diyarın Heyran xanımı,
Qəmərbəyimi
Fatma xatunu,

Kəminə Şahnigari,
Natavanı... var.

Bu diyarın  Taclı Bəyim,
Salatını,
Gültəkini.. var.
Və bir də bu cərgədə
Zəminə Xınalı sıralanar!
Zəminə Xınalı....
Məğrur, qürurlu Azərbaycan qadını!
Haqlıyam ki, mən yazam
bu adlarla yanaşı
o döyüşkən,  şir cüssəli,
aslan dəyanətli insanın adını.

...Əsgər libaslı bir mələkdir
Zəminə Xınalı.
İlahinin qismətinə inanır o,
Bu qismətlə ovunur o.
Ağ atlı Ali Baş Komandanın
hünərinə
və bir də ki,
Azərbaycan Ordusuna güvənir o.

Gün gələcək;
bu mələyin Ayaz-Arzu qanadları
yığılacaq, açılacaq,

Qarabağın qalasına-Şuşamıza
qalibiyyət bayrağımız
ərənlərin əllərilə sancılacaq.

**Sonca**

Sən...vüqarlı,
Sən..qürurlu,
pak diyarın dürr qızısan,
Zəminə xanım!
Gözlərində Tomris odu,
Ürəyində
Burla Xatun dəyanəti,
Əməlində
Nüşabənin,
Nətavanın məhəbbəti,
Baxışında
Nigar, Həcər qətiyyəti...
Azman Oğuz ellərinin
hərarətli,
nur qızısan Zəminə xanım!
İzin qalan bu dünyada
haqq səsini uca tutdun,
Haqq, ədalət təntənəsin
başın üstə tacdı,
tutdun!
Qarabağdı şah kəlməmiz, -

Qarabağı
bir əbədi məşəl kimi
bir...
nur saçan çıraq kimi,
daim yanar odlaq kimi, ...
tac Şuşamı misra-misra,
kəlmə-kəlmə parıldatdın,
Zəminə xanım!

"Xınalı qız" deyirlər adına sənin...
"Xınalıqlı"qız deyirlər adına sənin.
Ancaq...
Sənin xınan özündəndi,
Sənin Xınalıqlığın da özündəndi;
Zəminə xanım!
Sən...rənglər dünyasısan;
Sən...ana təbiətin
min rəngə çalan,
min rəng çalarlı
aşıkar röyasısan...
Zəminə xanım!
Sən Azərbaycan xalqının
sazıyla
sözüylə,
Misrisiylə,
Cəngisiylə,
Aynasıyla

Düşmən üstünə yeriyən
qopuzusan, azmanısan,
Zəminə xanım!
...Zəminliyin, zaminliyin
yetgin,
yetişən zamanı-sən...
zamanın əsgəri Sən
Zəminə xanım!
Zəminə Xınalı xanım!

# TƏRCÜMEYYİ - HAL

## ZƏMİNƏ XINALI

1964-cü il martın 21-də Qazax rayonunun Aslanbəyli kəndində doğulmuşdur. Kənddə orta məktəbi bitirdikdən sonra Sumqayıt Kimya Texnologiya Texnikumunun analitik kimya fakultəsində təhsil almışdır (1981-1984). Əmək fəaliyyətinə Sumqayıt Kimya İstehsalat Birliyində laborant kimi başlamışdır (1984-1986). Sonralar Bakıdakı 25 saylı texniki peşə məktəbində istehsalat təlim ustası (1986-1990), 240 saylı orta məktəbdə əmək və rəsm müəllimi (1990-1996) işləmişdir. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində təhsilini davam etdirmiş, hərbi jurnalistika fakültəsini bitirmişdir (1996-1998). Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində uzun müddət Qadınlar Şurasının sədri, eyni zamanda "Azərbaycan ordusu" qəzetində ştatdankənar müxbir işləmişdir (1996-2001). Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin hərbi qulluqçusudur. 2007-ci ildən Qazax Müəllimlər İnsitutunun filologiya fakültəsinin məzunudur.

Ədəbi fəaliyyətinə XX əsrin 80-ci illərindən başlamışdır. Azərbaycanda fəaliyyət göstərən Ali hərbi məktəbləri – H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəiçilik Məktəbinin, Dünya Azərbaycanlılarının Həmrəylik marşının və Azərbaycan Sülhməramlı Qüvvələrinin Sülh marşının sülh marşının sözlərinin müəllifidir. Hərbi vətənpərvərlik mövzusunda 30-dan çox mahnı mətninin sözlərini yazmışdır. "Təki Vətən yaşasın" adlı mənzum pyesi, "Ali Baş Komandanım" adlı sənədli pyesi əsasında radio-tamaşa hazırlanaraq radionun qızıl fonduna daxil edilmişdir. Zəminə Xınalının 15-dən çox kompakt disk və audio-kasseti kütləvi şəkildə çap olunmuşdur. "Azərbaycan Silahlı qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz Xidmətə görə" medalı ilə təltif edilmişdir. 22 kitabı çap olunmuşdur. Zəminə Xınalının müəllifi olduğu kitablar aşağıdakılardır:

1. "Mənim Əsgər qardaşım" – 1997
2. "Yarı yolda qalan ömür" –1998
3. "Üç qardaş, üç pəhləvan" –1998
4. "Müqəddəs zirvə"–2000

5. “Ömrün bahar çağında”– 2001
6. “20 Yanvar – ümumxalq matəm günüdür”– 2001
7. “Tanrı sevgisiylə döyünən ürək”–2002
8. “İncə duyğularla yaşayacaqsan”–2002
9. “Hər şeydən əzəl Vətəndir”–2002
10. “Müqəddəs Vətən” –2002
11. “Sarıtel laylası”–2005
12. “Qarabağı unutma”–2005
13. “Hərbi Məktəblərin banisi–2006
14. “Tənha türk məzarı–2007
15. “Vətən sevgisi”–2007
16. “Təki Vətən yaşasın”–2008
17. “Qaçaq İsmayıl dastanı” – 2008
18. “Vətən bizim anamızdır”–2009
19. “Ağ atlı oğlan”–2009
20. “Əmirxan əsgər gedir”–2009
21. “Vətən torpağı” –2010
22. “Ali Baş Komandan”–2010
23. “Ömür yarpaqları” – 2011

## Zəminə Xınalının təltif olunduğu fəxri diplomlar

1. Məmməd Araz–2002
2. “Məshəti”–2004
3. “İnam Şərəf”–2004

4. “Vətən” –2007
5. “Mübariz qadın” –2007
6. “Vətən naminə” –2007
7. “Qızıl qələm” –2008
8. “Vicdanlı qələm” – 2008
9. “Müqəddəs qələm” –2009
10. “Əsrin ziyalısı” –2009
11. “Qaratel” –2010
12. “Onur Belgesi” – Türkiyə-Eski şəhər – 2010

## Z.Xınalının təltif olunduğu medallar

1. “Silahlı Qüvvələrin 90 illik yubileyi” medalı– 2008
2. “Qüsursuz xidmətə görə” medalı–2009

## Z.Xınalının diskləri və kassetləri

1. “Dağ boyda dərdim var” – 1999
2. “Qarabağı unutma” –2000
3. “H.Əliyev adına AAHM Məktəb marşı” –2000
4. AAHDM-nin Məktəb marşı–2000
5. “Sarıtel laylası” –2000
6. “Vətən müqəddəsdir” – 2001
7. “Tənha türk məzarı” –2001

8. “Layla çal, ay ana” –2002

9. “Əsgər libasında qadına alqış”–2002

10. Dünya Azərbaycanlılarının həmrəy-lik marşı –2003

11. AAHTM-nin məktəb marşı–2004

12. “Şəhriyar” – 2005

13. “Ötən illərimdən xatirə” –2007

14. “Ali Baş Komandanım” –2008

15. “Təki Vətən var olsun” mənzum pyes–2008

16. “Hərənin bir ömrü var” – 2012

Çapa imzalanmışdır: 23.12.2012.
Formatı: 60x84 1/16  Həcmi: ? ç.v.
Sifariş 39. Tiraj ?.
«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

**Telefon**: 408-18-30; 050-222-40-25.